www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 30 iyul 2015-ci il Cümə axşamı № 164 (6192) Qiyməti 40 qəpik

Xəbər

## Sabirabadda dəhşət: kişi arvadını, sonra özünü güllələdi

yazısı səh.14-də

Gündəm

### 3 yüksək çinli zabit rüşvətxorluğa görə həbs olundu




Müdafiə Nazirliyi: "Toplanmış materiallar qanunamüvafiq tədbir görülməsi üçün Baş Prokurorluğa göndərilib"

yazısı səh.11-də

### Deputat Malik Həsənov YAP-ın "faydasızlar" siyahısında

yazısı səh.4-də

### ADP seçkidə iştirak qərarı verdi

yazısı səh.5-də

### Millət vəkilinin qumarda ev uduzan xalası oğlunun məhkəməsi sona çatır

yazısı səh.4-də

*Natiq Miri:*

### "Azərbaycan hakimiyyəti daxilində "5-ci kolon" var"

yazısı səh.9-da

### Elçibəyin qardaşı hakimlərdən Fikrət Məmmədova şikayət etdi

yazısı səh.4-də

*Arzu Nağıyev:*

### "Boru kəmərlərinə təhlükə haqda deyilənlər həddən artıq şişirdilir"

yazısı səh.3-də

### MSDM Qarabağ problemini müzakirə etdi

yazısı səh.5-də

*Professor Niyazi Mehdi:*

### "Azərbaycan müxalifətində "ben-Zakailik" çatışmır"

yazısı səh.6-da

### Azərbaycanda övladlığa uşaq götürmək istəyənlərin sayı artıb

yazısı səh.15-də

### Rusiya Sterliqovu Bakıya təhvil verəcəkmi...

yazısı səh.13-də

## Avropa İrana, ABŞ Türkiyəyə qucaq açır, bəs Azərbaycan?

# AZƏRBAYCAN ƏLEYHİNƏ "AVRASİYA HƏRƏKATI"NIN ŞOK SƏBƏBİ

Ölkəmizin yerləşdiyi bölgə ətrafında başlayan proseslərin yeni, təhlükəli pərdəarxası; Rusiya "5-ci kolon"çularının qəfil fəallaşması, Sterliqov "sindromu" müstəqilliyimizə və Qarabağa nə vəd edir?




yazısı səh.8-də

## Hakimiyyət gömrük və vergidə islahatlara gedir?

Gömrük Komitəsinin rəhbərləri sahibkarlarla görüşüb; deputat Vahid Əhmədovun fikrincə, son aylar baş verən hadisələr hökuməti tərpədib ki, artıq əvvəlki kimi işləmək qeyri-mümkündür

yazısı səh.3-də



*Nazim Məmmədov:*

### "Sovet vaxtı kolxoz sədri, briqadir işləmiş adamlar bu gün yüksək vəzifələr tutur"

yazısı səh.7-də



### Mirzə Sakitdən sensasion müraciət; "...O veriliş dayandırılsın"

yazısı səh.11-də



Allahşükür Paşazadə

### Bahalaşma Şeyxi "vurdu", zəvvarlar üçün kvota dolmayıb

yazısı səh.10-da

## “Azadlıq - 2015” siyasi durumu müzakirə etdi



**29 iyul 2015- ci il tarixdə “Azadlıq 2015" Seçki Blokunun sədrlərinin toplantısı olub. Toplantıda aşağıdakı məsələlər müzakirə edilib və qərarlar qəbul olunub:**

1.Qarabağ cəbhəsində gərginlik müzakirə olunub və hökumətdən düşmənə qarşı qəti cavablar verilməsi tələb edilib.

2. Seçkiöncəsi vəziyyət barədə sənədin müzakirəsi davam etdirilib, sənəddə mövcud şəraitin demokratik seçkilər baxımından qənaətbəxş olmaması nəticəsi təsbit edilir.

3. Mərkəzi Seçki Qərargahına tapşırılıb ki, dairələr üzrə namizədlər siyahısının hazırlanmasını başa çatdırsın.

4. “Azərbaycan saatı” və “Meydan TV” televiziyalarının rəhbərləri Qənimət Zahid və Emin Millinin qohumlarının həbsi siyasi təqib kimi dəyərləndirilərək pislənilib.

5. Universitetlərin ödənişli bölmələrə daxil olanlara faizsiz təhsil ipoteka kreditləri ayrılması hökumətə təklif edilib.

6. Qardaş Türkiyədə terror olaylarından narahatlıq bildirilib və Türkiyənin apardığı antiterror əməliyyatlarına dəstək bəyanatı qəbul edilib.

7. İctimai-siyasi vəziyyətə dair digər məsələlər müzakirə edilib.

## Azərbaycan bəzi məhsulların gömrük idxal rüsumunu ləğv etdi

### Qərar avqustun 29-da qüvvəyə minəcək və 7 il müddətində qüvvədə olacaq




**Nazirlər Kabineti özünün “Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında” qərarında dəyişiklik edib. “Report” xəbər verir ki, dəyişikliklə bağlı qərarı baş nazir Artur Rəsizadə imzalayıb.**

Qərarla “Azərbaycan Respublikası Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin təsdiqedici sənədinə əsasən, Mingəçevir Yüksək Texnologiyalar Parkının rezidenti olan hüquqi şəxs və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxs tərəfindən gömrük rüsumlarından azad olunmaqla idxal edilən qurğuların, hissə və ləvazimatların xarici iqtisadi fəaliyyətin mal nomenklaturası (XİFMN) üzrə Siyahısı” təsdiqlənib.

Qərar avqustun 29-da qüvvəyə minəcək və 7 il müddətində qüvvədə olacaq.

Siyahıya “Qrup 84" üzrə yaddaş qurğuları (sərt maqnit disklərdə), hesablayıcı maşınların digər qurğuları, 8471 mal mövqeyindəki maşınların hissələri və ləvazimatları (elektron modulları), 8471 mal mövqeyindəki maşınların hissələri və ləvazimatları (digərləri), ”Qrup 85" üzrə digər monitorlar (yalnız və ya əsasən 8471 mal mövqeyində göstərilən hesablayıcı sistemlərdə istifadə olunan), elektron inteqral sxemlər (prosessorlar və kontrollerlər), yaddaş qurğuları ilə, dəyişdiricilərlə, məntiqi sxemlərlə, gücləndiricilərlə, sinxronizatorlarla və ya digər sxemlərlə birləşdirilmiş və ya birləşdirilməmişlər daxildir.

## “AST Telman”ın “Mardan Palace” hoteli müsadirə olunacaq



**Türkiyənin Antalya şəhərindəki məşhur “Mardan Palace” hoteli müsadirə olunacaq. APA-nın Türkiyənin “Sözcü” qəzetinə istinadən verdiyi xəbərə görə, “Mardan Palace” hotelinin 2,2 milyon dollar borca görə müsadirə olunması haqda Antalyanın 6-cı İcra Dairəsində qərar çıxarılıb.**

İstanbul Kadıköy 3-cü İcra Dairəsindən Antalya 6-cı İcra Dairəsinə göndərilən təlimatda “Art Decor” firmasına 2 milyon 254 min 898 türk lirası borca görə hotelin müsadirəsi tələb edilib. Müsadirə haqda qərar verilməsinə baxmayaraq, İstanbuldan təlimatın xərcləri ödənilmədiyi üçün qərar icra olunmur.

Qeyd edək ki, Antalya 4-cü İcra Dairəsi tərəfindən Türkiyə Xalq Bankının Adapazarı filialına 100 milyon dollar borca görə iyun ayında satışa çıxarılan “Mardan Palace” hoteli borcun 4 il ərzində 25 milyon dolların ödəniləcəyi ilə bağlı öhdəlik götürüb və müsadirə satış günü ləğv edilib. “Mardan Palace” hotelinin borcları ilə bağlı məhkəmələrdə ümumilikdə 67 iş mövcuddur.

Xatırladaq ki, “Mardan Palace” hoteli əslən Azərbaycandan olan rusiyalı iş adamı Telman İsmayılova məxsusdur. Hotelin tikintisinə 1,5 milyard dollar xərc çəkilib.

# “AĞ Blok”un təmsilçisi ABŞ səfirliyinin müşaviri ilə görüşdü

### Tural Abbaslı: “İlkin mərhələdə hədəfimiz Azərbaycanda keçiriləcək parlament seçkiləridir”



**İyulun 29-da ABŞ səfirliyinin siyasi işlər üzrə müşaviri Syuzan Çesli ilə son günlərdə qarşıdan gələn parlament seçkiləri ilə əlaqədar yaradılan “AĞ Blok”un təsisçilərindən olan Tural Abbaslı arasında təkbətək görüş olub. Görüş ABŞ səfirliyinin dəvəti ilə baş tutub. Əsas müzakirə mövzusu “AĞ Blok” olub. Blokun yaranma məqsədi, qarşısına qoyduğu məqsədlər barədə geniş fikir mübadiləsi aparılıb. Səmimi şəraitdə keçən görüş bir saatdan artıq davam edib. ABŞ səfirliyinin nümayəndəsi “AĞ Blok”un hədəfləri və məqsədləri barədə qeydlərini aparıb.**

Bu barədə musavat.com-a görüşdə «AĞ Blok»un təmsilçisi kimi iştirak edən Tural Abbaslı məlumat verib. O, bundan sonra da ABŞ səfirliyi ilə diplomatik əlaqələrin davam etdiriləcəyini bildirib.

Dünən həmçinin, APA-ya açıqlamasında Müsavat başqanlığına sabiq namizəd Tural Abbaslı deyib ki, “AĞ Blok” müxtəlif partiyalarda təmsil olunan, lakin həmin təşkilatlarda yetərincə dəstəklənməyən gənclərin parlament seçkilərində birgə iştirakını təmin etmək məqsədilə yaradılıb.

**O, həmtəsisçisi olduğu “AĞ Blok”un gələcək fəaliyyəti, formatı barədə fikirlərini açıqlayıb:** “Bizim üçün önəmli olan yeni simaların siyasi arenaya çıxmasıdır. Azərbaycan cəmiyyətində artıq ənənəvi müxalifətdə olanlara inam yoxdur. Cəmiyyətimiz bəzi siyasətçilərin nəticəsi olmayan fəaliyyətindən yorulub. Bu baxımdan xalqın sosial sifarişini nəzərə alaraq belə bir bloku təsis etmək qərarına gəldik. İlkin mərhələdə hədəfimiz Azərbaycanda keçiriləcək parlament seçkiləridir. Bu seçkilərdə biz istər Bakı, istərsə də regionlardan olan gənc namizədlərlə təmsil olunmaq niyyətindəyik”.

**Onun sözlərinə görə, blok gələcəkdə partiyaya çevrilə bilər:** “Seçkidən sonra da blokun fəaliyyətini davam etdirmək niyyətindəyik. Sadəcə, formatını, daxili strukturunu müəyyənləşdirəcəyik. Blokun gələcəkdə partiyaya çevriləcəyini də istisna etmək olmaz. Ancaq bütün bunlar sonrakı mərhələdə baş tutacaq. Blok qarşısına qoyduğu məqsədlərə çata biləcəksə, onun formatını dəyişəcəyik. Ümid edirəm ki, fəaliyyətimiz uğurlu olacaq”.

Müsavat Partiyası Mərkəzi İcra Aparatının rəhbəri Gülağa Aslanlı isə APA-ya açıqlamasında T. Abbaslının partiya yaradacağı təqdirdə Müsavatdan kənarlaşdırılacağını vurğulayıb: “Müsavat Partiyasının Nizamnaməsində açıq şəkildə yazılıb ki, başqa partiyanın üzvü Müsavatın üzvü ola bilməz. Kimsə partiya yaradıb onun üzvü olacaqsa, Müsavat üzvlüyündən azad olunacaq”.

Xatırladaq ki, Müsavat başqanlığına sabiq namizəd Qubad İbadoğlu da Azərbaycan Demokratiya və Rifah (ADR) Hərəkatını yaradıb və bundan sonra partiyadan kənarlaşdırılıb.



## İstilər həftənin sonuna qədər davam edəcək

**Yaxın üç gündə Azərbaycanda isti və quru hava şəraiti davam edəcək. Sinoptiklərin məlumatına görə, Bakıda və Abşeronda iyulun 30-da şimal küləyi əssə də, havanın temperaturu 40 dərəcəyə qədər isinəcək.**

Ölkənin regionlarında da çox isti olacaq. Mərkəzi Aran rayonlarında və Naxıvanda ən yüksək temperatur - +42 dərəcə olacaq, şərq küləyi əsəcək.

Qeyd edək ki, isti dalğası bütün Cənubi Qafqaz regionundan keçir. Beynəlxalq sinoptiklərin məlumatına görə, bu, Ərəbistan yarımadasından Qafqaza doğru hərəkət edən qaynar hava kütlələrinin nəticəsidir.

## Penitensiar Xidmətin 4 əməkdaşı ədliyyə orqanlarından kənarlaşdırılıb

**“Vəzifədən sui-istifadə və digər neqativ halların aradan qaldırılmasına yönələn konkret tədbirlər görülüb, bu ilin 6 ayı ərzində xidmətin kobud qanun pozuntularına yol verən 142 əməkdaşı intizam məsuliyyətinə cəlb olunub, 4 əməkdaş ədliyyə orqanlarından xaric edilib”.**

Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin ictimaiyyətlə əlaqələr şöbəsindən APA-ya verilən məlumata görə, bu barədə xidmətin 2015-ci ilin birinci yarım ili ərzindəki fəaliyyətinin yekunlarına həsr olunmuş müşavirədə bildirilib.

Müşavirədə cəzaçəkmə müəssisələri rəhbərlərinin çıxışları dinlənilib. Qeyd olunub ki, aparılan əməliyyat-baxış tədbirləri nəticəsində hesabat dövründə 103 litr spirtli içki, 180 mobil telefon, 142 qram müxtəlif narkotik vasitə aşkarlanaraq, götürülüb və həmin faktlar üzrə toplanmış materiallar tədbir görülməsi üçün aidiyyəti orqanlara təqdim edilib.

Müşavirəyə yekun vuran ədliyyə nazirinin müavini, Penitensiar Xidmətin rəisi, ədliyyə general-leytenantı Mədət Quliyev mövcud nöqsan və pozuntulara toxunaraq, fəaliyyətin daha da təkmilləşdirilməsi ilə bağlı hər bir xidmət sahəsi üzrə konkret tapşırıqlar verib, işin səmərəliliyinə və səylərin artırılmasına nail olunması məqsədilə xidmət rəhbərliyi tərəfindən əlavə tədbirlərin müəyyənləşdirildiyini diqqətə çatdırıb.

## “Elm” tədris mərkəzi

**MAGIC LANGUAGES**

- Ali məktəblər xarici dillər
- kompyuter kursları
- Magistratura - dövlət qulluğu - məntiq
- 1.C. mühasibat - anbar - bank işi
- Məktəbə qədər həftədə 5 dəfə
- Sürücülük kursları (1 aya 100 AZN)

**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05



## Mehdiabadda avtoxuliqan və qohumları polislərə hücum edib

### Ehsan Zahidov: “Nurlan Manafov və onun qohumları polisin qanuni tələbinə tabe olmaq əvəzinə...”

**Əldə etdiyimiz məlumata görə, bu gün (29 iyul, 2015-ci il) Binəqədi rayonu ərazisində avtoxuliqanlıq edən sürücü və onun qohumları ilə Yol Polisi əməkdaşları arasında qarşıdurma yaranıb.**

Musavat.com xəbəri dəqiqləşdirmək üçün DİN-in mətbuat xidməti ilə əlaqə yaradıb. Xidmətin rəis müavini Ehsan Zahidov xəbəri təsdiqləyib. O bildirib ki, iyulun 29-da saat 11 radələrində Binəqədi rayonu ərazisində əvvəllər məhkum olunmuş Nurlan Manafov “Tofaş” markalı avtomobili idarə edərkən sürət həddini aşıb: “Üstəlik, nəqliyyat vasitəsinin konstruksiyasında dəyişiklik etdiyinə görə ərazidə xidmətdə olan Yol-Patrul Xidmətinin əməkdaşları tərəfindən ona ”saxla" işarəsi verilib. Polisin qanuni tələbinə məhəl qoymayan sürücü avtomobilin sürətini daha da artıraraq yol hərəkəti qaydalarını davamlı şəkildə pozmaqla digər hərəkət iştirakçıları üçün real qəza şəraiti yaradaraq avtoxuliqanlıq hərəkətlərini davam etdirərək Abşeron rayonunun Mehdiabad qəsəbəsindəki yeni yaşayış massivinə daxil olub".

**E.Zahidov deyib ki, cəmiyyətə açıq hörmətsizlik nümayiş etdirməklə kobud qayda pozuntusu və avtoxuliqanlıq hərəkətləri törədən sürücünün məsuliyyətə cəlb edilməsi üçün qeyd edilən ünvana gələn Binəqədi RPİ DYPŞ-nin əməkdaşları Nurlan Manafovun qohumlarının zor tətbiqi və kobud müdaxilələri ilə üzləşiblər:** “Əllərində müxtəlif kəsici və küt alətlər olan bir neçə şəxs xidməti vəzifələrinin icrasını həyata keçirən polis əməkdaşlarına qarşı zor tətbiq edərək onlara müxtəlif dərəcəli bədən xəsarətləri yetirib, xidməti BMW markalı avtomobilə isə maddi ziyan vurublar.

Dərhal görülən tədbirlər nəticəsində hadisənin iştirakçıları əvvəllər məhkum olunmuşlar Nurlan Manafov və Vüsal Əliyev, eləcə də Teymur Əliyev, Rəcəb Manafov, Xatirə Əliyeva saxlanılıblar. Müvafiq təlimata uyğun olaraq onlar xidməti “Fiat Doblo” markalı avtomobildə RPİ-yə gətirilərkən Rəcəb Manafov yolda qaçıb, Xatirə Əliyeva isə qaçmağa cəhd edərkən yıxılaraq xəsarət alıb".

E.Zahidov bildirib ki, faktla bağlı Binəqədi RPİ-də cinayət işi qaldırılıb, araşdırmalar aparılır.

❑ Xəbər xidməti



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**




YENİ MÜSAVAT

N 164 (6192) 30 iyul 2015


**İyulun 29-da Bakı Şəhər Baş Gömrük İdarəsində Azərbaycanda sahibkarlıq fəaliyyəti ilə məşğul olan aparıcı iş adamları ilə görüş təşkil olunub. Publika.az saytının məlumatına görə, görüş Prezident İlham Əliyevin sədrliyi ilə keçirilmiş Nazirlər Kabinetinin 2015-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında səsləndirdiyi müvafiq məsələlərə həsr olunub.**

# Hökumət gömrük və vergidə islahatlara gedir

## Gömrük Komitəsinin rəhbərləri sahibkarlarla görüşüb; deputat Vahid Əhmədovun fikrincə, son aylarda baş verən hadisələr hökuməti tərpədib ki, artıq əvvəlki kimi işləmək qeyri-mümkündür

Sahibkarlar qarşısında çıxış edən **Dövlət Gömrük Komitəsinin (DGK) sədr müavini Şahin Bağırov** bildirib ki, bu cür görüşlər Azərbaycanda hökumət-biznes əlaqələrinin daha da sıxlaşmasına və ölkədəki biznes mühitinin inkişafına gətirib çıxaracaq. Onun sözlərinə görə, Dövlət Gömrük Komitəsi hər zaman Azərbaycan iqtisadiyyatının rəqabətli və sağlam inkişafına dəstək verir: "Bu gün sahibkarlarla keçirilən görüşdə Azərbaycan Prezident Administrasiyasının da məsul nümayəndəsi iştirak edir. Burada bizim sahibkarlarla aparacağımız qarşılıqlı müzakirələr hesab edirəm ki, gələcəkdə dövlət-sahibkar münasibətlərinin daha da inkişafına gətirib çıxaracaq".

**Ş.Bağırov qeyd edib ki, son illər prezident tərəfindən sahibkarlığın inkişafı istiqamətində böyük və uğurlu addımlar atılıb:** "Cənab Prezident bu sahədə hüquqi müstəvinin daha da genişləndirilməsi, sahibkarlıq subyektlərinin hüquqlarının müdafiəsi, qanunsuz yoxlamaların qarşısının alınması, yeni üsulların tətbiq edilməsi və yeni çağırışlara cavab verilməsi istiqamətində uğurlu addımlar atıb. Bu gün bizim qarşımızda duran əsas məsələlərdən biri də səmərəli dövlət tənzimlənməsi tədbirlərinin həyata keçirilməsi və bazar iqtisadiyyatına əsaslanan formaların tətbiq edilməsi ilə bağlıdır. Bütün bu məsələlər cənab Prezident tərəfindən imzalanan sənədlərdə və "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyasında da əksini tapıb".

**Ş.Bağırov bildirib ki, Azərbaycanda biznesin inkişafı üçün əlavə imkanlar yaradılmalıdır. Eyni zamanda Gömrük Komitəsi rəsmisi sahibkarların özlərindən təkliflər almağa hazır olduqlarını bildirib. Sitat:** "Çünki cənab Prezident bizim qarşımızda konkret vəzifələr qoyub. Biz də sahibkarlığın inkişafına yardım göstərməliyik. Ölkəmizin iqtisadi potensialının daha da gücləndirilməsi üçün müvafiq tədbirlər görməliyik. Bu baxımdan da hesab edirəm ki, bu gün keçirilən görüş həm bizim üçün, həm də sahibkarlar üçün çox maraqlı olacaq".

**Daha sonra Bakı Şəhər Baş Gömrük İdarəsinin rəisi Vüsal Novruzov ölkə prezidentinin keçirdiyi son müşavirədə bəzi dövlət orqanlarının fəaliyyətsizliyini və öz vəzifələrinin öhdəsindən layiqincə gələ bilməməsini, xüsusilə də ölkədə sahibkarların sərbəst fəaliyyətinə süni maneələr yaradılmasını tənqid etdiyini xatırladıb. V.Novruzov əlavə edib ki, prezident İlham Əliyev tərəfindən 26 fevral 2011-ci il tarixli 45 saylı "Dövlət Gömrük Komitəsi əməkdaşlarının sosial müdafiəsinin gücləndirilməsi, gömrük işi sahəsində prosedurların sadələşdirilməsi və şəffaflığın artırılması ilə əlaqədar bəzi tədbirlər haqqında" fərman imzalanıb:** "Fərmanın icrası ilə bağlı Bakı Baş Gömrük İdarəsində qanunvericiliklə müəyyən edilmiş bütün gömrük ödənişlərinin yalnız bank və ya plastik kart vasitəsilə ödənilməsini təmin etmək üçün müxtəlif banklara aid 14 poçt-terminal quraşdırılıb. Həmin vaxtdan etibarən, nağd qaydada ödənişlərə birdəfəlik son qoyulub və bu sahədə şəffaflıq təmin edilib. Bundan əlavə, Bakı Şəhər Baş Gömrük İdarəsində gömrük xidmətlərinin şəffaflığını və operativliyini artırmaq məqsədilə elektron idarəetmə sistemi yaradılıb. Bununla da sahibkarla idarə rəisi arasında birbaşa rabitə xətti quraşdırılıb".




Daha sonra o, tədbirdə iştirak edən sahibkarlara müraciət edərək, şəffaflığın təmin olunması üçün daha sıx əməkdaşlıq şəraitində çalışmağa çağırıb. Sonra tədbir KİV üçün qapalı şəraitdə keçirilib. Qapalı keçirilən görüşdə bir sıra sahibkarların təklifləri dinlənilib, müzakirələr aparılıb.

Qeyd edək ki, Bakı Baş Gömrük İdarəsində sahibkarlarla görüş ilk baxışdan adi toplantı kimi də görünə bilər. Ancaq gömrük şeflərinin sahibkarlara müraciəti, şəffaf fəaliyyət barədə açıqlamaları, konkret ölkə başçısının son toplantıda səsləndirdiyi iradlara istinad etməsi onu göstərir ki, toplantı konkret məqsədlidir. Yeri gəlmişkən, bir gün əvvəl Vergilər Nazirliyində geniş kollegiya iclası keçirilib. Nazirliyin şikayət xətti yaradılıb. Onu da xatırladaq ki, sonuncu toplantıda ölkə başçısı vergi orqanlarının sahibkarları incitdiyini tənqid etmişdi. Belə görünür ki, vergi və ardınca gömrükçülərin toplanması bu müşavirə ilə əlaqədardı.

**Deputat Vahid Əhmədov deyir ki, ölkə başçısının son iclasında vergi orqanlarının fəaliyyətini tənqid etməsindən sonra bu qurumların fəaliyyətində canlanma olması, hökumətin bu sahədə müəyyən işlər həyata keçirmək niyyətində olduğunu göstərir:** "Ümumiyyətlə, son dövrün hadisələri, xüsusilə də dövlət başçısının son iclaslarda verdiyi mesajlar ictimaiyyət tərəfindən müsbət qarşılanıb. Dövlət qurumları da bu istiqamətdə müəyyən addımlar atmağa çalışırlar. Vergilər Nazirliyində böyük kollegiya iclası keçirildi, nazir Fazil Məmmədov şikayətlərlə bağlı xüsusi xətt yaratdı. Vergi orqanları ilə müəyyən problemlərin aradan qaldırılması üçün birbaşa təmasların qurulması imkanları yaradıldı. O cümlədən də gömrük orqanlarında da artıq hərəkətlənmə var. Çünki bu iki orqan vergi və rüsum yığan orqanlardır. Sahibkarlar birbaşa bu orqanlarla əlaqədə olurlar. Son vaxtlar da bildiyiniz kimi, müəyyən şikayətlər və problemlər vardı.

Görünür, dövlət başçısı da bu şikayətləri mediadan izləyirdi və nəhayət, öz qərarını verdi və tapşırdı ki, bu sahələrdə özbaşınalıqlar yığışdırılsın. Ona görə də mənə elə gəlir ki, ciddi addımlar atılacaq. Artıq bank sistemində müəyyən islahatlar həyata keçirildi, kreditin yuxarı həddi müəyyən edildi və sair. Yəni müəyyən işlər görülür və bunu mən alqışlayıram. Yəqin ki, gömrük sistemində də analoji addımlar atılacaq və bu məsələlər öz müsbət nəticəsini tapacaq".

**Deputatın fikrincə, şikayətlər və narazılıqlarla yanaşı, dünya bazarında neftin qiymətlərinin ucuzlaşması, devalvasiya hökuməti islahatları daha da dərinləşdirməyə, qənaət mexanizminə keçməyə vadar edir:** "İslahatlar həmişə gedirdi, ancaq açığını demək lazımdır ki, son zamanlar dünya bazarında neftin qiymətlərinin kəskin şəkildə aşağı düşməsi, qonşu dövlətlərdə milli valyutaların məzənnələrinin düşməsi, Neft Fondunda gəlirlərin azalması ilə dövlət büdcəsində müəyyən problemlərin yaranması Azərbaycan hökumətini də tərpədib ki, artıq əvvəlki kimi işləmək qeyri-mümkündür. Yəni müəyyən islahatlara getmək lazımdır. Həm bank sistemində, vergi, gömrük orqanlarında, həm də struktur islahatlarına getmək lazımdır. Yəni necə deyərlər, qənaət mexanizmi Azərbaycanda ciddi şəkildə işləməlidir ki, gələcəkdə neftin qiyməti indikindən aşağı düşsə də ciddi problemlə üzləşməyək. Çünki son olaraq dünya siyasətində baş verən bir sıra hadisələr neftin qiymətlərinin də aşağı düşməsinə təsir edir".

❑ **KƏNAN**

# "Boru kəmərlərinə təhlükə həddən artıq şişirdilir"

## Arzu Nağıyev: "Risk hər zaman var, lakin Azərbaycanın enerji təhlükəsizliyi ilə bağlı müəyyən konsepsiyası mövcuddur"



Arzu Nağıyev

**Türkiyədə başlayan antiterror əməliyyatları və son həftələrdə Gürcüstanda baş verən hadisələr strateji əhəmiyyətli enerji xətlərinin təhlükəsizliyi məsələlərini yenidən gündəmə gətirib. Məlum olduğu kimi, iki həftə əvvəl Bakı-Supsa neft boru kəmərinin bir neçə yüz metrlik hissəsi Rusiya ordusu tərəfindən nəzarətə götürülən ərazilərə düşüb. Bununla da faktiki olaraq boru kəməri nəzarətsiz ərazidə qalıb.**

Eyni zamanda Türkiyədə başlayan antiterror əməliyyatları bu ölkənin ərazisindən keçən boru kəmərlərinə də təhlükə yaradıb. Ağrı vilayətində baş verən partlayış boru kəmərini yararsız hala salıb, üstəlik, ətraf ərazilərə böyük ekoloji zərər vurub. Xatırladaq ki, 2008-ci ildə də Türkiyə ərazisində BTC boru kəməri partladılmışdı.

Son günlər PKK və İŞİD terrorçularının Türkiyəyə qarşı elan olunmamış savaşı boru kəmərlərinə də təhlükə yaradır. Məlum olduğu kimi, Türkiyədən Azərbaycanın Bakı-Tiflis-Ceyhan neft kəməri və Bakı-Tiflis-Ərzurum qaz boru xətti keçir. PKK terrorçularının son günlər təbii qaz boru xəttinə, elektrik xətlərinə etdiyi hücumlar Azərbaycanın bu ölkədən keçən neft kəmərlərinin təhlükəsizliyi məsələlərini də gündəmə gətirir.

BTC beynəlxalq əhəmiyyətli enerji layihəsidir və mütəxəssislərə görə, bu layihənin qorunması Qərb dövlətlərinin nəzarəti altında aparılır. Eyni zamanda boru kəmərinin keçdiyi ölkələrdə müvafiq qurumlar onun mühafizəsini təşkil edir. Azərbaycan Xüsusi Dövlət Mühafizə Xidməti 2005-ci ildə BTC-nin ölkəmizdən keçən hissəsinin təhlükəsizliyini təmin etmək üçün 850 nəfərdən ibarət struktur formalaşdırıb. Terror riskinin yüksək olduğu Türkiyə ərazisində isə BTC-nin kifayət qədər güclü mühafizə olunmadığı barədə qardaş ölkə mətbuatında da dəfələrlə yazılıb. Kəmərin Türkiyə ərazisində təhlükəsizliyinin təmin olunmasına yerli hökumət, habelə "Botaş" şirkəti cavabdehdir.

İndi isə həm Gürcüstanda, həm də Türkiyədə boru kəmərlərinə qarşı terror təhdidinin olacağı ilə bağlı xəbərdarlıqlar artıb. Əcəba, bu xəbərdarlıqlar reallığa yaxındırmı? Doğrudanmı, kəmərlərə təhlükə ciddidir?

**Siyasi şərhçi, "Trend" İnformasiya Agentliyinin direktor müavini Arzu Nağıyev deyir ki, boru kəmərlərinə terror təhlükəsi ilə bağlı məlumatlar son zamanlar şişirdilmiş şəkildə ortaya atılır. Xüsusən də Gürcüstan tərəfinin bu mövzunu qabartdığını qeyd edən ekspertə görə, bu məsələdə gürcülərin öz maraqları var:** "Son vaxtlar bu istiqamətdə söz-söhbət həddən artıq böyüyür. Bunu əsasən Gürcüstan tərəfi edir. Çünki bu söhbətlərin böyüməsi ilk növbədə Gürcüstana divident gətirir. Faktiki olaraq öz ərazilərinin zəbt edilməsini və təcavüzə məruz qaldığını dünyaya bəyan edirlər. Yəni dünyada neftin nəqli layihələri ən aktual mövzulardan biridir və bütün dünya dövlətləri üçün maraq doğuran məsələdir. Gürcüstan da bundan yararlanır, Rusiyanın işğal siyasətini dünyaya göstərir. Əgər belə olmasaydı, Gürcüstan üzərinə götürdüyü öhdəliklərlə əlaqədar çoxdan güc tətbiq edərdi. Lakin bunu etmir. Deməli, öz maraqlarını üstün tutur".

**Türkiyədən keçən boru kəmərlərinə terror təhdidi mövzusuna gəlincə, A.Nağıyev deyir ki, Türkiyədə antiterror əməliyyatlarına NATO-nun qoşulması boru kəmərlərinin təhlükəsizliyi məsələsinə diqqəti artıracaq:** "Türkiyə ilə əlaqələndirməyə gələndə ilk növbədə NATO qüvvələri də bu əməliyyatlara cəlb edilərsə, artıq maraqlar da dəyişir və düşünürəm ki, boru kəmərlərinin mühafizəsinə də maraq artacaqdır".

**Boru kəmərlərinə terror təhlükəsinin hər zaman aktual olduğunu xatırladan ekspertə görə, əsas təhlükə kəmərin zədələnməsindən çox, enerji ehtiyatlarının bazara çıxarılmasından gedir ki, bu məsələ müəyyən mənada həllini tapıb:** "Əlbəttə, risk hər zaman var, lakin Azərbaycanın enerji təhlükəsizliyi ilə bağlı müəyyən konsepsiyası mövcuddur və o qədər də böyük narahatçılığa səbəb yoxdur. İlk növbədə ona görə ki, neft bir neçə marşrutla bazara çıxarılır. Bunlar - Bakı-Supsa (Qara dəniz), Bakı-Novorossiysk (Qara dəniz) və Bakı-Tbilisi-Ceyhan (Aralıq dənizi). Yəni bunların hansındasa nəql problemi yaranarsa, digərləri ilə nəql davam etdiriləcək. Əlbəttə, Rusiyanın özəl maraqları var və ilk növbədə onlar neftin Bakı-Novorossiysk kəməri ilə nəqlini istəyirlər və buna görə müvafiq addımlar da atırlar. Məlumdur ki, son illər bu marşrut ən zəif bənd olub.

Bir sözlə, neftin nəqlində böyük maraqlar kəsişir və toqquşur, lakin ölkənin təhlükəsizliyinə təhdid ola bilən enerji təhlükəsizliyi Azərbaycan tərəfdən müvafiq qaydada və dünya standartlarına uyğun təmin edildiyi üçün həddən artıq narahatlığa əsas yoxdur".

❑ **KƏNAN**

YENİ MÜSAVAT
N 164 (6192) 30 iyul 2015

# Deputatın qumarda ev uduzan xalası oğlunun məhkəməsi sona çatır


Əsabil Qasımov

**Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Eldar İsmayılovun sədrliyi ilə Rövşən Hacızadə və Qərib Əmiraslanovun işi üzrə növbəti proses keçirilib. Prosesdə dövlət ittihamçısı məhkəmə qarşısına çıxarılan R.Hacızadənin 12 il, Q.Əmiraslanovun isə 9 il müddətinə azadlıqdan məhrum olunmasını istəyib.**

Rövşən Hacızadə deputat Əsabil Qasımovun yaratdığı, hazırda oğlunun idarə etdiyi "Karat" MTK-da qarovulçu olub.

Faktiki qarovulçu olsa da, rəsmi sənədlərdə adı MTK-nın icraçı direktoru kimi qeyd olunub. Buna görə də ittiham aktında da adı "Karat" MTK-nın icraçı direktoru kimi keçir və məhkəmə qarşısına da bu vəzifənin daşıyıcısı kimi çıxarılıb.

İttiham aktında yazılıb ki, Rövşən Hacızadə tanışı Qərib Əmiraslanovla qabaqcadan əlbir olub tamah niyyəti ilə rəsmi sənədlərə bilə-bilə yalan məlumatlar daxil ediblər. Q.Əmiraslanov deputat Əsabil Qasımovun xalası oğludur. Onun qarovulçu ilə birgə məhkəmə qarşısına çıxarılması təsadüfi deyil. Deputatın öz xalası oğlundan şikayətçi olmasının səbəbi var.

İttiham aktına görə, Rövşən Hacızadə Qərib Əmiraslanovla birgə MTK-nın Bakı şəhərində inşa etdiyi çoxmərtəbəli yaşayış binasında əvvəllər ayrı-ayrı şəxslərə satılmış 5 mənzili və 4 avtodayanacaq yerlərini təkrarən başqa şəxslərə satmaqla 1 milyon 112 min manat məbləğində pulu mənimsəyiblər. Buna görə də Rövşən Hacızadəyə Cinayət Məcəlləsinin 178.3.2 (dələduzluq külli miqdarda ziyan vurmaqla törədildikdə), 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə ağır nəticələrə səbəb olduqda) və 313-cü (vəzifə saxtakarlığı), Qərib Əmiraslanova isə 178.3.2-ci maddəsi ilə ittiham elan olunub.

İş üzrə keçirilən məhkəmə proseslərində təqsirləndirilən şəxs qismində dindirilən R.Hacızadə ona elan olunmuş ittiham üzrə özünü təqsirli bilməyib. Deyib ki, ittihamda yer alan bütün qanunsuzluqlar deputat Əsabil Qasımovun yaxın qohumları olan Taleh Qasımov, Umud Umudov, Qərib Əmiraslanov və İntiqam Umudov tərəfindən törədilib. R.Hacızadənin bacısı Güllü Hacıyeva isə mətbuat konfransı keçirərək deyib ki, deputat öz xalası oğlunu həbs et-

## Əsabil Qasımov qarovulçunu tutdurmaqla hansı məqsədinə çatmaq istəyib?

dirməklə "Karat" holdinqə daxil olan çoxsaylı şirkətlərindəki yeyintilərin qarşısını almağa, orada çalışan digər qohumlarını qorxutmağa çalışır. Məhkəmədə R.Hacızadənin özü isə bəyan edib ki, mənzil və avtomobil yerlərinin satılması barədə sənədlər Əsabil Qasımovun təhriki ilə yazılıb: **""Karat" MTK-da heç bir vəzifədə işləməmişəm, heç bir səlahiyyətim olmayıb, heç kimin pulunu ələ keçirmək üçün mənzil və ya avtodayanacaq yerləri satmamışam. "Karat" MTK-da heç bir vəzifəm olmadığından vəzifə saxtakarlığı törətməmişəm. Əsabil Qasımov və onun yaxın ətrafı öz saxtakarlıqlarını gizlətmək məqsədilə mənə şər və böhtan atırlar".**

R.Hacızadənin ifadəsi məhkəmənin onu direktor kimi mühakimə etməsinə mane olmayıb. Ona direktora aid suallar verilib. Təbii ki, qarovulçunun direktora aid suallara cavab verməsi də mümkünsüz olub.

İstintaq materialları arasında Q.Əmiraslanovun ifadəsi var. Həmin ifadəsində Q.Əmiraslanov mənzili qumar borcuna görə Ağdam rayonundan olan Yusif Əfsəriyə verdiyini gizlətməyib. Deyib ki, qumarda Yusif Əfsəriyə külli miqdarda pul uduzub. Həmin məbləğin bir hissəsini nağd ödəyib, qalan 205 min manat borcun əvəzinə isə "Karat" MTK-dan mənzil vermək barədə razılığa gəliblər. Deputatın qohumu R.Hacızadəyə deyib ki, X.Şuşinski küçəsi 12 saylı binadakı 4 otaqlı mənzili Y.Əfsərinin qardaşı oğlunun adına sənədləşdirməkdə köməklik etsin.

**R.Hacızadənin vəkili Ceyhun Yusifov** deyir ki, müdafiə etdiyi şəxsin bu cinayətlə, ümumiyyətlə, əlaqəsi yoxdur Vəkilin sözlərinə görə, istintaq qərəzli xarakter daşıyıb, cinayətin açılmasına, əsl cinayətkarların müəyyən edilməsinə, cinayət işinin obyektiv araşdırılmasına deyil, əsl cinayətkarları gizlətmək məqsədilə həyata keçirilib: **"Nə istintaq zamanı, nə də məhkəmədə Rövşən Hacızadə ona elan olunmuş ittihamlarla özünü təqsirli bilməyib. Bu halları nəzərə alan məhkəmə öncə məhkəmə istintaqının zərərçəkmişlərin ifadəsi ilə başlanılmasını məqsədəuyğun hesab etdi. Rövşən qəti şəkildə bu işin qurma, özünün isə qurbanlıq olduğunu bildirdi. Bununla yanaşı, Rövşən Hacızadə dələduzluqda ittiham olunduğu əmlakla bağlı mötəbər sübutları məhkəmə baxışına təqdim edəcəyini israrlı şəkildə dedi. O, məhkəməyə bu iş üzrə dırnaqarası zərərçəkənin Əsabil Qasımov olduğunu və istintaqa zərərçəkən kimi təqdim olunanların hamısının onun öz adamları olduğunu bildirdi".**

**Onu da qeyd edək ki, R.Hacızadənin bacısı Güllü Hacıyeva mətbuat konfransı keçirərək ölkə başçısına müraciət edib: "Qardaşım Rövşən barəsindəki həbs-qətimkan tədbirinin ləğvinə və cinayət işi üzrə təqsirləndirilən şəxs kimi tanınmasına son qoyulması üçün aidiyyəti üzrə göstərişlər verilməsini və əsl cinayətkarların cinayət məsuliyyətinə cəlb edilməsinə köməklik göstərilməsini xahiş edirik. İnanıram ki, müraciətimizdən sonra deputat adına xələl gətirən, günahsız insanları həbs etdirərək dövlətdən narazı salmağa çalışan Əsabil Qasımov barəsində qanuni tədbir görüləcək. Bizim haqsız olaraq məruz qaldığımız bu əzab və iztirablara son qoyulacaq".**

**Proses avqustun 5-də davam etdiriləcək.**

**❑ E.HÜSEYNOV**


Malik Həsənov

# Malik Həsənov YAP-ın "faydasızlar" siyahısında

## "Hacı" kimi tanınan Cəlilabadın deputatından narazılığın olduğunu seçkiöncəsi aparılan araşdırma da təsdiqləyib

**Əmlak Məsələləri Dövlət Komitəsinin sədri Kərəm Həsənovun qardaşı, "AZINKO-Holdinq"in prezidenti, 67 saylı Cəlilabad şəhər seçki dairəsindən deputat olan Malik Həsənovun YAP-ın budəfəki siyahısında yer almayacağı barədə xəbərlər ciddiləşir. Məlumata görə, beş ilə yaxındır deputat seçilsə də, indiyə qədər hər hansı fəaliyyətinə rast gəlinməyən biznesmen-deputat seçiciləri ilə də görüşmür. O, rayona yalnız ara-sıra gedir və onda da heç kimin gözünə görünməməyə çalışır. Bütün iş-gücünü özünün biznesinin genişlənməsinə yönəldən M.Həsənov mandat daşıdığını daha çox şəxsi xarici səfərlərində yadına salır və bundan qürrələnərək istifadə edir.**

"Hacı" kimi tanınan M.Həsənovla bağlı narazılığın olduğunu YAP-ın dairələrdə seçkiöncəsi apardıqları araşdırma da təsdiqləyib. M.Həsənovun deputatlığının hakim partiya üçün faydasızlığı YAP-ın yuxarı təbəqələrində də ciddi müzakirə mövzusudur. M.Həsənov isə yaxın ətrafına və dostlarına yenidən deputat olacağı barədə mesajlar verir və bu məsələdə təbii ki, komitə sədri olan qardaşına güvənir. Sabiq nazir Fərhad Əliyev və qardaşı Rafiq Əliyevin ölkədən getməsi Malik Həsənovun rahat nəfəs almasına imkan versə də, məlumata görə, deputatın rayona gedəndə camaat üzünə çıxa bilməməsinin bir səbəbi də Əliyev qardaşlarına etdikləridir. İddia var ki, M.Həsənov hətta xarici səfərlərə tək getməkdən ehtiyat edir və bunu "Fərhadgildən nə desən çıxar" deyə izah edir. Avqustun 5-dən sonra icra başçıları ilə bağlı iqtidarın sərt qərarlar verməyə hazırlaşması M.Həsənovun icra başçısı olan şəriki Əziz Əzizovu da ciddi narahat edib. Rayondan aldığımız məlumata görə, Ə.Əzizov hazırda ölkədə yoxdur. Uzun illərdir ki, Cəlilabadın icra başçısı olan Ə.Əzizov Həsənovların "çörəyini" yeyir və onlara sadiqdir. Cəlilabadın əsas gəlirli obyektləri və istehsal müəssisələrini Əzizov Malik Həsənovla birgə işlədir. Amma mediada yayılan xəbərlərə görə, icra başçısı arada "Malik Həsənov bizim üçün nə etdi ki, onu yenidən seçək" kimi sözlər də danışır. Xəbərlər var ki, Kərəm Həsənovun bəzi hakimiyyətdaxili qruplaşmalarla münaqişə vəziyyətində olması ona yaxşı perspektiv və etmir. Hakimiyyət elitasında xüsusi söz sahibi olan nazirlərlə qarşıdurma, onların bəziləri ilə hətta məhkəmədə çözülən əmlak mübahisəsi komitə sədrinin mövqeyini xeyli dərəcədə laxladıb.

**❑ Xəbər xidməti**

# Elçibəyin qardaşı hakimlərdən Fikrət Məmmədova şikayət etdi

## Almurad Əliyevə Heydər Əliyevin bağışladığı torpaq sahəsini mənimsəyən şəxs məsuliyyətdən yayındırılır

**Eks-prezident Əbülfəz Elçibəyin qardaşı Almurad Əliyev hakimlər İlahə Abbasova və Rizvan Səfərovdan Məhkəmə Hüquq Şurasının sədri Fikrət Məmmədova şikayət edib. Bu barədə müsavat.coma vəkil Səməd Vəkilov məlumat verdi.**


Almurad Əliyev

Mərhum prezident Heydər Əliyev tərəfindən Əbülfəz Elçibəyin qardaşı Almurad Əliyevə hədiyyə edilmiş torpaq sahəsini mənimsəyən iş adamı Ələkbər Huseynovla bağlı yaranmış qalmaqal barəsində məlumat vermişdik. Xatırladaq ki, mərhum prezident Heydər Əliyev tərəfindən Əbülfəz Elçibəyin qardaşı Almurad Əliyevə hədiyyə edilmiş torpaq sahəsini Müzəffər Məmmədlinin (Almurad Əliyevin qohumu) etibarından sui-istifadə edərək alıb və ona vəd edilmiş əmlakları bir neçə adama satıb.

Vəkil qeyd etdi ki, buna görə o, barəsində Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 178-ci maddəsi ilə cinayət işi başlanan Ələkbər Huseynov bir müddət istintaqdan yayınmağa nail olsa da, mayın 20-də Yasamal Rayon Polis İdarəsi tərəfindən saxlanılıb: "Lakin sonradan hakimlər onu azadlığa buraxıblar. Belə ki, Yasamal Rayon Məhkəməsinin hakimi İlahə Abbasova prokurorluğun Ələkbər Huseynov barəsində həbs-qətimkan tədbiri seçilməsinə dair təqdimatını rədd edərək, mayın 22-də onu azadlığa buraxıb. Lakin Yasamal Rayon Prokurorluğu tərəfindən İlahə Abbasovanın qərarı əsassız hesab edilib və ləğv edilməsi ilə bağlı protest verilib. Yasamal rayon prokuroru Rasim Hacıyevin dələduz iş adamının həbs edilməsi ilə bağlı əsaslı protestinin Bakı Apelyasiya Məhkəməsi tərəfindən təmin ediləcəyi gözlənilsə də tamamilə əksinə olub. Belə ki, Bakı Apelyasiya Məhkəməsinin hakimi Rizvan Səfərov Yasamal Rayon Məhkəməsinin hakimi İlahə Abbasovanın qanunsuz qərarını qüvvədə saxlayıb. Bundan sonra iş üzrə zərərçəkmiş Müzəffər Məmmədli (Almurad Əliyevin qohumu, nümayəndəsi) hər iki hakimin barəsində MHŞ-nın sədri Fikrət Məmmədova şikayət verib.

**Səməd Vəkilov mətbuata hakimlərin qərarlarını şərh edərkən bildirib ki, dələduzluqda təqsirləndirilən Ələkbər Hüseynovun istintaqın çağırışından dəfələrlə boyun qaçırması ilə bağlı onun barəsində Yasamal Rayon Məhkəməsinə verilmiş təqdimatın hakim İlahə Abbasova tərəfindən rədd edilməsi tamamilə qanunazidd əməldir:** "Adıçəkilən hakim işə baxarkən kobud qanun pozuntusuna yol verərək təqdimata baxılarkən prosesdə prokurorluğun iştirakını təmin etməmişdi. Prokurorluğun təqdimatına tərəfin iştirakı olmadan baxılması ədalət mühakiməsinin fundamental təməl prinsiplərindən olan çəkişmə prinsipini pozmaq deməkdir. Cinayət prosessual qanunvericiliyinə əsasən bu qərar əsaslı - qanuni sayıla bilməz. Bu halda Yasamal Rayon Prokurorluğunun qərarın ləğv edilməsi ilə bağlı protesti Bakı Apelyasiya Məhkəməsinin hakimi Rizvan Səfərov tərəfindən təmin edilməli idi. Lakin eyni pozuntunu təkrar edərək, hər iki hakim dələduzluqda təqsirləndirilən iş adamı Ələkbər Huseynovu himayə ediblər. Hesab edirəm ki, Məhkəmə Hüquq Şurası bu məsələ barəsində obyektiv araşdırma apararaq hər iki hakimi intizam məsuliyyətinə cəlb edəcək".

Hazırda işin hansı mərhələdə olduğu ilə bağlı suala S.Vəkilov artıq istintaqın yekunlaşmaq üzrə olduğunu və bugünlərdə işin məhkəməyə gedəcəyini bildirdi.

**❑ M.MAHRIZLI**






# MSDM Qarabağ problemini müzakirə etdi

## “Biz ortaya platforma işləyib qoymalıyıq”

**Milli Strateji Düşüncə Mərkəzi (MSDM) iyulun 29-da Qarabağ probleminə həsr olunmuş konfrans keçirib.**

Musavat.com xəbər verir ki, “Qarabağ problemi 2015-ci ildə: Azərbaycanın milli maraqları və xarici siyasəti” mövzusunda keçirilən konfransda İsa Qəmbər başda olmaqla, MSDM rəhbərliyi, Müsavat Partiyası rəhbərliyi, AXP, VHP kimi partiyaların təmsilçiləri, o cümlədən ziyalılar və ekspertlər qatılıblar.

MSDM rəhbəri İsa Qəmbər bildirib ki, Dağlıq Qarabağ münaqişəsinin həllində dünyanın mövqeyini dəyişmək istəyiriksə, Azərbaycan xalqının, cəmiyyətin də torpaqların işğaldan azad olunması üçün ardıcıl mövqeyi, aydın siyasəti olmalıdır.

**Tarixçi Yasəmən Qaraqoyunlu çıxış edərək bildirib ki, artıq cəmiyyət olaraq Dağlıq Qarabağ məsələsində ATƏT-in Minsk Qrupuna etibar edirik ki, bu da səhvdir:** “Qərb ikili standartlar siyasəti yeridir bu məsələdə”. Onun sözlərinə görə, Azərbaycan Qərbin enerji siyasətində iştirakının əvəzində nə qazanacağını, əldə edəcəyini soruşmalıdır: “Həmin ölkələrin Dağlıq Qarabağ münaqişəsinin həllində bizim yanımızda olmasını istəməliyik”.





**Müsavat başqanı Arif Hacılı isə deyib ki, hər kəs Dağlıq Qarabağ probleminin Azərbaycanın bir nömrəli problemi olduğunu bilir. Dünyada baş verən müəyyən geopolitik dəyişikliklərdən söz açan A.Hacılının sözlərinə görə, Qərblə Rusiya arasında uzun illərdən sonra dayanmış soyuq müharibə şəraiti yenidən bərpa olunub:** “Azərbaycan bu dəyişiklikdən öz mənafeləri üçün istifadə etməli idi. Ancaq apardığı qeyri-müəyyən siyasət, son dövrlərdə isə Rusiyaya meylli görünən xarici siyasət nəticəsində bu prosesin Azərbaycanın ziyanına işləməsinə nail oldu”. A.Hacılı Dağlıq Qarabağ münaqişəsinin Azərbaycan hakimiyyətinin yarıtmaz siyasəti nəticəsində həllini tapmadığını vurğulayıb.

**Daha sonra AXP sədri Pənah Hüseyn çıxış edərək, fikirlərini bölüşüb.**

**“Turan” İnformasiya Agentliyinin rəhbəri Mehman Əliyev bildirib ki, münaqişənin hərb yolu ilə həllinə bir neçə dəfə cəhd edilsə də, uğurlu olmayıb. O, həmçinin qeyd edib ki, münaqişəyə olan ikili standartlar Qərb tərəfindən deyil, Azərbaycan hakimiyyəti tərəfindəndir:** “Azərbaycan hakimiyyəti Qərb institutları, ATƏT, Avropa Birliyi qarşısında götürdüyü öhdəlikləri yerinə yetirmək istəmir, ona görə bu problem, indiki gərginlik yaranıb”.

**VHP sədri Sabir Rüstəmxanlı isə qeyd edib ki, Dağlıq Qarabağ problemini ölkədə bütün siyasi qüvvələrin iştirak etdiyi bir forumda müzakirəyə çıxarmaq lazımdır:** “Biz ortaya platforma işləyib qoymalıyıq”.

Digər çıxış edənlər də problemin ciddiliyini vurğulayıb və həll yollarını müzakirə ediblər.

❑ Röya RƏFİYEVA
Fotolar müəllifindir

# ADP seçkidə iştirak qərarı verdi

## Sərdar Cəlaloğlu: “125 dairənin hamısından namizəd irəli sürən partiya əslində demokratiyadan məlumatsızlığını göstərmiş sayılır”

**Azərbaycan Demokrat Partiyası 1 noyabr parlament seçkilərində iştirak edəcək. Bu barədə partiyanın İdarə Heyəti qərar verib. ADP sədri Sərdar Cəlaloğlunun verdiyi məlumata görə, seçkilərdə iştirak edəcəklər, lakin bütün dairələrdən namizəd irəli sürmək fikrində deyillər: “Azərbaycandakı seçki reallığını nəzərə alıb, ən effektli yolu seçəcəyik.**


Sərdar Cəlaloğlu

Yeni Azərbaycan Partiyası və bəzi müxalifət partiyalarından bildirilir ki, 125 dairənin hamısından deputatlığa namizəd irəli sürmək fikrindədirlər. Bir partiya 125 nüfuzlu şəxsin namizədliyini irəli sürə bilər. Amma bütün dairələrdən namizəd irəli sürməklə parlamentə düşmək arasında heç bir əlaqə yoxdur. Bu gün parlamentdə elə partiya var ki, 125 namizədlə seçkiyə girib, lakin tək bir nəfər seçilib. Eləsi də var ki, 125 dairənin hamısından namizəd irəli sürüb, ancaq bu gün parlamentdə heç bir nəfərlə də təmsil olunmur. Demokratiya tələb edir ki, gücün çatsa belə bütün siyasi sferanı əhatə eləməlisən ki, başqa qüvvələrin inkişafına yer qalsın. Odur ki, biz 60-70 dairədən namizəd irəli sürəcəyik, qoy yerdə qalan dairələrdən bizimlə rəqabət aparan qüvvə olsun”.

**S.Cəlaloğlu onu da qeyd etdi ki, 125 dairənin hamısından namizəd irəli sürən partiya əslində demokratiyadan məlumatsızlığını göstərmiş sayılır:** “Bəzi partiyalardan bəyanatlar verilir ki, bütün dairələrdən namizəd irəli sürüblər, indi də irəli sürmək istəyirlər. Bu mövqenin özü həmin partiyanı idarə edənlərin demokratiyadan bixəbərliyini nümayiş etdirir. Bütün bunlara görədir ki, dəfələrlə bəyan etmişəm ki, Azərbaycanda partiyaların 90 %-nın demokratiyadan xəbərləri yoxdur. Demokratiya inkişaf edən bir anlayışdır. Onun forması getdikcə dəyişməlidir. 15 il bundan öncə necəydisə, bu gün də o cür qalmamalıdır. Partiyalar 15-20 il öncə necə yanaşma ortaya qoyurdularsa, bu gün də həmin yanaşmanı sərgiləyirlərsə, irəli getmək mümkün deyil.

Məncə, bütün müxalifətin birləşib seçkidə iştirak etməsi, koalisiya ilə seçkiyə qatılması daha doğru olardı. Bunun reallaşması isə bugünkü vəziyyətdə asan görünmür".

❑ E.SEYİDAĞA

# Xəzərin o tayı və bu tayı....



Hüseynbala SƏLİMOV

**Bir vaxt Türkmənistanda nə baş verirdisə mənə təəccüblü görünürdü. Həmişə də düşünürdüm ki, yox, bizdə belə ola bilməz. Amma “bizdə belə ola bilməz!” deyə-deyə bir də gördüm ki, Azərbaycanla Türkmənistanı yalnız Xəzər ayırır və bu iki ölkənin fərqi ondadır ki, biri Xəzərin bu tayındadır, digəri də o biri tayındadır...**

Düzdür, hələ də kiçik fərq qalır. Türkmənistan az qala diktatura dövlətidir, Azərbaycanda isə sərt avtoritar rejim hökm sürür. Həm də bu fərq o qədər kiçikdir ki, adam ondan təsəlli duya bilmir...

Həm də ortalıqda kiçik fərqin qalması daha çox azərbaycanlıların qeyri-adi fədakarlığı hesabına baş verir...

Mən avtoritar rejimlər, diktaturalar haqqında çox yazmışam. Hər dəfə yazanda da Lev Tolstoyun bir fikri yadıma düşür. “Anna Karenina” əsərinin lap başlanğıcında Tolstoy yazırdı ki, bütün xoşbəxt ailələr biri-birinə bənzəyir, bədbəxtlərin hər biri isə özünə görə bədbəxtdir...

Amma Tolstoya bütün hörmətimə rəğmən bu gün etiraf etmək zorundayam ki, elə bütün bədbəxtlər də eyni cür bədbəxtdir, hər yerdə eyni ssenari, eyni siyasi “ustanovka”lardır....

Bəlkə də Türkmənistanı və türkmənləri başa düşmək olardı. Onlar özlərinin demokratiya təcrübəsi ilə o qədər də öyünə bilməzlər. Amma Azərbaycan....

Bəli, Azərbaycan adamı yandırıb-yaxır... Mən Avropa oyunlarından qürur duydum. Gürcüstanda da idman bayramının açılışını seyr etdim, həqiqətən də biabırçılıq idi. Amma Azərbaycan...

Bəli, düşünürsən ki, niyə görə belə bir ölkədə avtoritar rejim olsun. Axı bu ölkənin insanlarının azad yaşaması və özünü azad hiss etməsi üçün hər bir şərait var...

Bəzən deyirlər ki, azərbaycanlılar istədikləri qədər, qadir olduqları qədər azaddırlar. Mən bir söz demirəm... Amma ürəyimdə bir qədər tərəddüd və şübhə qalır. Azadlıq soğan-kartof deyil ki, onu tərəziyə vurasan. Axı kim müəyyənləşdirir ki, insanlara nə qədər azadlıq lazımdır?!.

Həm də bizim insanlar azadlığa başqa rakursdan yanaşırlar. Onlar totalitar sovet rejimindən çıxdıqlarından nəsə haqqında fikir bildirməyi, fərqli düşünməyi də böyük şey hesab edirlər...

Amma mən başqa şeylərin arzusundayam. İstərdim ki, bizdə həqiqətən də çoxpartiyalılıq olsun. İstərdim ki, insanların öz etirazlarını bildirməsi üçün əsl imkanları olsun. İstərdim ki, bizdə də əsl parlament, əsl azad məhkəmə olsun...

İndi isə... Bəli, indi bunların yalnız maketi var. Bəli, yalnız maketi... Maket isə sadəcə, insanları aldatmaq üçündür...

Türkmənistanda heç nə yoxdur. Azərbaycanda isə çox şeyin yalnız adı var.

Amma insanlar adlarla, maketlərlə xoşbəxt olmur. Üstəlik, Azərbaycanda da azad insanlara qarşı böyük təpki də var. İndi “məhkəmə” proseslərinə baxır və özüm-özümə düşünürəm ki, axı, bu insanların suçu nədir? Onlar hansı günahların sahibidirlər?..

Ağlım bir şey kəsdirmir. Sadəcə, onu bilirəm ki, bura da artıq Türkmənistandır. Türkmənistanda insanların sual vermək və soruşmaq haqları yoxdur...

Təbii ki, mən hər şeyi inkar etmək mərəzindən uzağam. Sözsüz ki, Azərbaycan Türkmənistanla müqayisədə daha maraqlı ölkədir. Amma mən “daha azaddır” deyə bilmirəm...

Bəli, daha azad ola bilərdi... Amma olmadı... Elə bil kimsə qarğıdı, elə bil kimsə tilsim etdi. Mən indi 90-cı illərin əvvəllərini xatırlayıram. O vaxt bir türkiyəli jurnalist “Demokratiya bitdimi?” deyə soruşmuşdu. O vaxt biz hamımız bu sualdakı kədəri, nisgili yaşamışdıq...

Sual ona görə kədərli idi ki, hamımız onun cavabını bilirdik. Bəlkə türkiyəli jurnalist də onun cavabını bilirdi. Amma ürəklərimizdəki son ümid qığılcımlarını da söndürmək istəmirdik. Daha doğrusu, özümüzə və cəmiyyətə güvənirdik. Amma gümanlarımız düz çıxmadı-özümüz son, bir qətrə azadlığı qorumaq üçün dəridən-qabıqdan çıxdıq. Fəqət məlum oldu ki, cəmiyyətin potensialı çox aşağıdır...

İndi Türkmənistanla müqayisədə bizi ən çox ağrıdan da elə budur. Bəli, hələki azadlığın və demokratiyanın səviyyəsi “yuxarı”dan tənzimlənir. Bəli, bu gün insanlara nə qədər azadlıq lazım olduğunu “yuxarı” müəyyənləşdirir. “Yuxarı”ların insanların halına acımaq cəhdləri isə bir çox halda yalnız acı gülüş və ironiya doğurur...

Amma nə etmək olar? Cəmiyyətin istəyi yox dərəcəsindədir, o, özü heç nə tələb edə bilmir, hər şey “yuxarı”ların insafına qalıb. “Yuxarı”lar isə hər şeyi qətrə-qətrə, damla-damla verməyi lazım bilirlər. Cəmiyyət də, artıq bir azca əvvəldə dediyimiz kimi, bunu böyük hədiyyə kimi qəbul edir. Nə etmək olar? Bu, da acı gerçəklikdir...

YENİ MÜSAVAT
N 164 (6192) 30 iyul 2015

# Tanınmış professordan iqtidara unikal təklif

## Niyazi Mehdi: “Rəqiblərinə mərhəmət örnəyi göstərsin - dövlətin gücü təkcə cəzalarda yox, həm də mərhəmətdədir”

**“Azərbaycan cəmiyyəti xəstələnib”. Ölkənin düşünən kəsimi illərdir bu fikri təkrarlayır. Təkcə siyasi müstəvidəki qarşı düşərgələrdə deyil, sadə insanlar arasında da qarşılıqlı anlaşma, xoşgörü getdikcə yoxa çıxır. Filosof Niyazi Mehdi ilə söhbətdə Azərbaycanın “xəstəliyinə” diaqnoz qoymağa çalışdıq.**

***- Niyazi bəy, cəmiyyətin ümumi durumunu necə qiymətləndirirsiz - biz sabitlikdəyik, yoxsa ətalətdə?***

- Mən anlayıram ki, müxalif düşüncəli adamlar üçün sizin sualınızdakı “sabitlik” mənfi reaksiya doğurur. Ancaq sabitlik darıxdırıcı görünsə də sabitsizlikdən yaxşıdır. Bizdə Heraklitin durmadan axan dünyasından fərqli olaraq bir çaya iki dəfə ayaq basmaq olur. Sözsüz, paradokslarla oynamaq üçün belə danışıram. Məncə, bizdə sabitlik var və bu sabitlik həm də ətalət prinsipi ilə yaşayır. Bizim sabitliyimizi “bundan da pis olardı” prinsipindən düşünəndə babat dəyərləndirirəm. Ancaq yazıqlar olsun ki, çağımızın ağıllı düşünülməsi üçün “ağ-qara” təzadları hamımıza - hakimiyyət ideoloqlarına da, müxalifətçi ideoloqlara da əngəl olur. Kimlərsə nifrət, kimlərsə sevgi dilində çağımızı dəyərləndirir. Öz işləridir. Ancaq başqa cür düşündürən politoloji yazılara da gərək var. Bunlar demək olar ki, yoxdur. İndiki zamanda belə yazıya heç mənim də gücüm çatmır. Ancaq çoxdan bildiyim bir nəsnə var: günümüzün Azərbaycanını esxatoloji simvollarda, yəni “Azərbaycan batır” ideyasında düşünmək intellektual gücsüzlüyün göstəricisidir. Sabitliyimizə məndə bir qınaq var: dayanıqlı toplumda hakimiyyətin, siyasi partiyaların rahat işləməsi üçün şərait var. “Bu şərait olduğu halda rahat çoxmu işlər görülür” sorusuna isə “hə” demək mənə çətin gəlir.

**“Azərbaycan müxalifətində məhz ”ben-Zakailik" çatışmır, çünki “xəyanət” sindromu qoymur"**

***- Sizcə, biz niyə sevinə bilmirik? Hətta başqaları sevinəndə belə çoxları onun üzərinə hücum edir, sevincin qaynağı ilə bağlı iddialar ortaya atır?***

- Biz sevinə bilirik. Bakı Olimpiadası nə qədər azərbaycanlını, eləcə də dövlət adamını sevindirdi, sevindirmədimi? Ancaq menecmentdə, hətta fəlsəfədə də bir qanunauyğunluq formulə edilib: o yerdə ki, siyasi və ya biznes rəqabəti var, orada mənəviyyatsızlıq başlayır: paxıllıq, başqasının uğuruna sevinməmək. Bu, hər yerdə belədir. Onu da deyim ki, söylədiyim hal rəqabətin dialektik rolunu danmır, sadəcə, toplumda elə mühit, elə mexanizm olmalıdır ki, bu mənəviyyatsızlığa yol verən bilsin ki, sosial meydana bu xasiyyətlə çıxsa, gözdən düşəcək. Həmin mühitdə tərəflər “mən nə etmişəm, sən nə etmisən” siyahısını ortaya qoyub camaata özlərini sübut etməlidirlər. Hərçənd bizdə heç kim öz xidmətlərini aydın-sübutlu dildə danışa bilmir. Mediamızın da bu baxımdan uğurları böyük deyil. Halbuki azərbaycanlı məhz ondan dürlü sahələrdə xidməti olan adamların nədə xidmətinin olduğunu bilməlidir. Bizdə çox pis haldır ki, hakimiyyətin xidmətlərini sübut etmək istəyən jurnalist apriori “yaltaq” damğasını alır. Hakimiyyətin xidmətlərinin sadalanmasına belə yanaşılması hər yerdə var. 19-cu yüzilin rus intelegensiyasında hakimiyyətə mənfi münasibətin dəbi vardı. Hakimiyyəti böyük məmur ordusu təmsil edir, onlarınsa bir kəsimi vətəndaşlarda sayğı doğurursa, böyük kəsimi ya gerçək, ya yanlış səbəblərə görə mənfi duyğular törədir. Ancaq bir məsələ var axı, 90-cı illərdə Bakı kəndlərində yanıb-sönən, gərginliyə dözümsüz işıq şəbəkələri indi geridə qalıb. O illərdə bugünkü işıq təchizatı böyük həsrətlə arzulanardı, indi isə adiləşib. İnsan psixolojisi belədir. Bu sözlərimin anlamı o deyil ki, “bizim hakimiyyəti sevin”. Qoy, bu sevgini filan saytlar, filan qəzetlər, filan sözçülər aşılasın. Mən isə bunları onun üçün deyirəm ki, Azərbaycanı esxatoloji duyğularla qavrayanlar silkələnsin, dünyamıza bir az işıqlı baxsınlar.

***- Belə aqressivlik nəyin göstəricisidir və nələrə səbəb ola bilər?***

- Dedim, axı. O yerdə ki rəqabət var, orada böhtan, paxıllıq da olur. Və bu zaman insanların irrasional istəkləri başlayır at oynatmağa. Toplumun əsas məsələlərindən biri odur ki, bu aqressiv, paxıl adamlar populyarlıq qazana bilməsin. Paxılların, aqressivlərin bir bicliyi var, onlar ədalət, gerçək uğrunda mücadilə maskasından istifadə edirlər. Yəni “mən paxıllıqdan bunu demirəm, düzlük üçün deyirəm”.

***- İnsanlar çox zaman gələcəkləri ilə bağlı planlar qurmaqda çətinlik çəkir, mane olan xeyli səbəb sadalayırlar. İnsanların bu bədbinliyi nələr vəd edir?***

- Dolanışıq problemləri, ailə konfliktləri, erməni işğalı kimi min problem bədbinlik qaynağıdır. Toydan qazanan müğənnilərin gəvəzə nikbinliyi bu fonda hamını əsəbiləşdirir. Ancaq insan müdrik olmalıdır ki, bədbinliyə qalib gəlsin. Dövlətin, TV-lərin önəmli vəzifələrindən biri bədbinlik okeanında nikbinlik adaları yaratmaqdır. Sırtıq nikbinlik yox, düşüncəli, mənəvi yüklü nikbinlik. Hərçənd bu vəzifəni təkcə bizdə yox, hər yerdə sadaladığım qurumlar çətinliklə yerinə yetirirlər.

***- İqtidarın durumunu necə qiymətləndirirsiz?***

- Düşünürəm ki, iqtidar çox mürəkkəb problemləri çözməklə məşğuldur. Problemlər həm dışarıdadır, həm xalqdadır, həm hakimiyyətin öz məmurlarında, onların ailələrindədir. Siz baxın, bu “balaca” Azərbaycanda nə qədər səs-küy, iddialar var. Necə pul axını var. Hamısı ilə bağlı necə çətin idarəçilik var. Bu mürəkkəbliyə baxanda Azərbaycan iqtidarını “problemi bilirəm, çözməyin yolunu tapıram” konstruksiyası parametrlərində sıfırdan aşağı - mənfiyə doğru yox, sıfırdan yuxarı - müsbətə doğru" ballar toplayan iqtidar saymaq olar. Sözsüz, bu balların konkret hallarla bağlı sayı haqqında düşüncə ayrılıqları yetərincədir. Ancaq Bakı Olimpiadası, Bakının və bölgələrin abadlığı Azərbaycan dövlətinin ballarını artıran amillərdir. Mənə qalsa, hakimiyyətə siyasi mübarizəyə çox aludə olmamağı məsləhət görərdim. Bizdə hakimiyyət bir xeyli resurslar baxımından güclüdür, ona görə arzulayardım ki, siyası mübarizəsini “ölüm-dirim” təhlükəsində görüb rəqiblərinə xeyirxahlıq örnəyi göstərməyə moratorium qoymasın. Demirəm ki, bu istiqamətdə addımlar atılmır. Ancaq həmin addımlar artan istiqamətdə getsə daha yaxşı olar. Dövlətin gücü təkcə cəzalarda yox, həm də mərhəmətdədir. Baxın, Avropa Birliyi dövlətləri ölüm cəzasını aradan götürdülər - hərçənd bu mərhəmət çox baha başa gəlir, axı ömürlük cəza alanları yedirib-içirmək gərəkir. Əvəzində Putin Rusiyası ilə yarışda Avropa Birliyi vətəndaşlarına mərhəmətinə görə nə qədər udur! Məni yandırıb yaxan odur ki, Avropada camaatı partladan islamçılar tutulanda yalvarırlar ki, onları müsəlman türmələrinə təhvil verməsinlər. Əgər Avropa belə yaxşıdır, insanidir, niyə onu partladırsan?! Əgər Avropa nifrətə layiqdirsə, nədən bu qədər müsəlman ora can atır?!



**“Jurnalistlərə mükafat verilməsi ölkəni düşmən cəbhələrə ayıran bölücü xətdən çıxmaq üçün bir addımdır”**

***- Müxalifət düşərgəsində sizin düşüncənizə görə nələr baş verir?***

- Bircə onu deyə bilərəm ki, 90-cı illərə baxanda düşüncə və mənəvi keyfiyyət xeyli aşağı düşüb. Elə Rusiya, Gürcüstanda da belədir. Müxalifətçilər arasındakı çarpışmalar göstərir ki, onlarda insaf, xeyirxahlıq potensialı da aşağı düşüb. Ancaq ümidimizi itirməyək, arzulayaq ki, o, canlı orqanizm kimi özünü sağaldacaq.

**“Məni yandırıb yaxan odur ki, Avropada camaatı partladan islamçılar tutulanda yalvarırlar ki, onları müsəlman türmələrinə təhvil verməsinlər. Əgər Avropa belə yaxşıdır, insanidir, niyə onu partladırsan?!”**

***- Milli Mətbuat Günü ilə bağlı hakimiyyətin müxalifət mediasına jestini necə dəyərləndirirsiz? Maraqlıdır ki, cəmiyyətdəki müsbət dəyişikliklərin barış və dialoqla baş verməsini istəyən kəsim də bu jesti qıcıqla qarşılayır. Bu barışmazlıq sindromu hara qədər davam edə bilər?***

- Azərbaycan siyasi düşüncəsini son on-on beş ildə “satqınlar”, “xainlər” damğası xəstə salıbdır. Mənim sevdiyim bir yəhudi olayı var, Erix Frommdan oxumuşam. Vespsianın ordusu Yerusəlimi qurşağa alanda ben-Zakai adında nüfuzlu ravvin həmin sərkərdənin yanına gəlib deyir ki, mənim nüfuzumdan nə qədər istifadə edirsən, et. Sən imperator olacaqsan, ancaq əvəzində söz ver ki, imperiyanda yəhudi akademiyalarına icazə verəcəksən. Vespsian imperator olur, elə də edir. O çağın bir çox vuruşqan yəhdiləri ben-Zakaini satqın sayırlar. Zaman keçir, bəlli olur ki, bu “satqın” ravvin yəhudi diasporasının banisidir. Və yəhudiləri axırda Yerusəlimə məhz diaspora gətirib çıxarır. Azərbaycan müxalifətində məhz “ben-Zakailik” çatışmır, çünki “xəyanət” sindromu qoymur. Jurnalistlərə mükafat verilməsi ölkəni düşmən cəbhələrə ayıran bölücü xətdən çıxmaq üçün bir addımdır. İrəlidə söylədiyim addımlara örnəkdir. Prezidentin öz opponentlərinin sinəsinə medal, orden taxması da bu bölgünü zəifləmməkdir. Ancaq aydın məsələdir ki, mükafatlanan jurnalistlər bilməlidirlər ki, mükafat, heç demirəm prezidentin, elə xalq və müxalifət qarşısında da onların üstünə azad mətbuata xidmət planında böyük məsuliyyət qoyur. Mükafat onları tənqid, haqsız tutulanları müdafiə etmək, tutulanlara hakimiyyətin kəskinliyini yumşaltmaq işində güclü etməlidir. Bu çətin prosesdir ki, hər addım yaradıcılıq, ben-Zakai bacarığını tələb edir. Yoxsa mükafatın sevincini bu mükafata görə onları pisləyən adamların “gördüz!” nidası zəhərləyəcək.

❑ **Aygün MURADXANLI**

YENİ MÜSAVAT
N 164 (6192) 30 iyul 2015

# “Sovet vaxtı kolxoz sədri, briqadir işləmiş adamlar bu gün yüksək vəzifələr tutur”

## Gədəbəyin keçmiş deputatı Nazim Məmmədov: “Üzdə prezidenti dəstəkləyib, arxada özünü kəndxuda kimi aparan məmurlar var”

**Müsahibimiz 2005-2010-cu illərdə Gədəbəy rayonundan deputat olmuş Nazim Məmmədovdur. Hazırda Gədəbəydə olan Nazim Məmmədovla bugünlərdə şəhid olan Eldar İsmayılovun üç mərasimində rastlaşdıq. Fürsətdən istifadə edib onunla danışdıq. Seçkidə namizəd olub-olmayacağını xəbər aldıq.**



*Sabiq deputat öncə Gədəbəyin hazırkı vəziyyəti haqda danışdı. Bildirdi ki, rayon Azərbaycanın əksər bölgələrindən heç də fərqlənmir.*

- Gədəbəy, Tovuz Ermənistanla yaxın təmas xəttində yerləşir. Ən yaxın sərhəd burdadır. Təxmini götürsək, yaşadığım Şınıx bölgəsinin 50 min əhali var. Bu əhalinin əsas problemi yolsuzluq, təbii qazın olmaması və elektrik enerjisinin fasilələrlə verilməsi idi. Şükürlər olsun ki, bu problemlərin bir qisminin aradan qaldırılmasına nail ola bildik. 2006-cı il noyabrın 1-də cənab prezidentin Gədəbəyə səfərindən istifadə edərək, bölgənin bütün problemlərini sadaladım. O cümlədən, ermənilərdən azad etdiyimiz Başkəndi nümunə gətirdim. Göstərdim ki, ermənilər orada bir şəhər düzəltmişdilər. Prezidentə təşəkkür edirəm ki, 2009-cu ildə Qovlar-Saratovka və Gədəbəy-Qaravəllilər yolu dövlət proqramlarına salındı. Bunun üçün bir neçə dəfə baş nazir Artur Rəsizadə və nəqliyyat naziri Ziya Məmmədovla görüşlərim oldu. İndi müxtəlif istiqamətlərdən insanlar bölgəmizə rahat gələ bilirlər. 2010-cu ildən etibarən təbii qazın çəkilişi tam dayanıb. Baxmayaraq ki, “Azəriqaz” Şınıxın qazlaşdırıldığı barədə məlumat yayıb, amma Şınıxın 28 kəndinin yalnız ikisində qaz var. Hazırda bu bölgədə yol problemləri də mövcuddur. Gədəbəyin İvanovka-Çobankənd istiqamətlərində yol bərbad gündədir. Təbii qaz da yoxdur. Bununla yanaşı, Gədəbəyi digər bölgələrlə müqayisə etmək olmaz. Yaxınlarda Qəbələdə idim. Şəhərdən 5 kilometr aralıda qaz yox idi. Yolları da bərbad vəziyyətdə idi. Amma Gədəbəydən xeyli aralıda olan Şınıxda bu cür problemlər qismən qalıb.

***- Əsas problemlər nədən ibarətdir?***

- Sərhəd bölgəsi olmasına baxmayaraq, insanlar tam şəkildə otlaq sahələrindən istifadə edə bilmirlər. İqtisadi miqrasiya üzündən əhalinin yarıdan çoxu Bakı ətrafında məskunlaşıb. İnsanlar bir maşın odunu 300-400 manata alırlar. Bir ailənin qışı keçirməsi üçün ən azı iki maşın odun lazımdır. Azərbaycan bütün dünyaya təbii qaz satır. Gürcüstan ölkəmizin hesabına 100 faiz qazlaşdırılıb. Amma təəssüflər olsun ki, Gədəbəydə qazlaşdırılma 25 faizdir. Ən böyük problem təbii qazın olmamasıdır. Meşələr bu səbəbdən qırılır, məktəblər tam qızdırılmır. Ciddi problemlər yaşanır. İşsizlik də böyük bəladır. Bu problemlərin həlli üçün dövlət proqramı olmalıdır. Əksər kəndlərin qapısında qıfıl var. Məşhur ifadə var: “Vətən sərhəddən başlayır”. Burada yaşayan insanlara qəhrəman kimi baxmaq lazımdır. Hökumətin borcu bu insanların həyat səviyyəsini yüksəltməkdir. Onu da qeyd edim ki, dövlət proqramı əsasında çəkilən Gədəbəy-Qaravəllilər yolunun bir hissəsi keyfiyyətsiz olması ucbatından dağılıb. Burada külli miqdarda pul mənimsənilib.

**“Azərbaycan bütün dünyaya təbii qaz satır. Gürcüstan ölkəmizin hesabına 100 faiz qazlaşdırılıb. Amma təəssüflər olsun ki, Gədəbəydə qazlaşdırılma 25 faizdir”**

***- Seçkilərə üç ay qaldı. Yarışmaya qoşulacaqsınızmı?***

- Elan etmişəm. Fikrim də qətidir. Fikir qətiliyi ondan irəli gəlir ki, beş il ərzində seçicilərimi tək buraxmamışam. Onlarla görüşlərimdə arzuları ondan ibarətdir ki, namizədliyimi irəli sürüm. Bunun üçün Təşəbbüs Qrupu yaradılır. Bu qrup namizədliyimi irəli sürəcək. Ümid edirəm ki, 2005-ci ildə olduğu kimi, seçicilərin etimadını qazanacam. Coğrafi cəhətdən ən çətin bölgəni təmsil etmək şansını qazanmaq istərdim. Bundan sadəcə şərəf duyaram.

***- 2010-cu ildə müəmmalı şəkildə seçkilərə az qalmış namizədliyinizi geri çəkdiniz. Bu il də belə ssenari gözlənilirmi?***

- Güman etmirəm ki, bu hadisə yenidən təkrarlansın. Onu xatırladım ki, 2005-ci ildə müstəqil namizəd idim. 2010-cu ildə Yeni Azərbaycan Partiyasının üzvü olmağıma baxmayaraq, Şınıx Təşəbbüs Qrupu namizədliyimi irəli sürdü. Namizədliyimdən bir həftə sonra partiyamız vahid siyahısını açıqladı. Bizim dairədən hörmətli Rafiq Məmmədhəsənovun namizədliyini irəli sürdülər. Seçki qaydalarına əməl edərək, normal mübarizə apardım. Monitorinqlər onu göstərirdi ki, şansım yüksəkdir. Şansım yüksək olmasına baxmayaraq, partiyamızın maraqlarını şəxsi maraqlarımdan üstün tutaraq, namizədliyimi Rafiq Məmmədhəsənovun xeyrinə geri çəkdim. Bundan təəssüflənən insanlar oldu. Deputat olmamağıma baxmayaraq, son beş ildə minlərlə müraciətlər aldım. Hər birinə deputat kimi yanaşdım. Dövlət orqanlarına minnətdaram ki, şəxsimə daim hörmət edirlər. Seçicilərin haqlı müraciətlərini araşdırıb həll etmişəm. Bir daha bəyan edirəm ki, namizədliyimi geri çəkməyimə səbəb partiyamızın sədri və prezidentimiz olan şəxsə hörmətimdir.

***- Siz YAP-ın rəhbər strukturlarında vəzifə tutursuz?***

- Xeyr. YAP-ın sıravi üzvüyəm. 2010-cu ildə seçki günü cənab prezidentin adından mənə zəng olundu. Atdığım addıma, seçkidəki mövqeyimə görə təşəkkür olunub. Gələcək seçkilərdə namizədliyimin hakimiyyət tərəfindən dəstəklənməsi vəd olunub. Bunu başqa mənada xatırlatmadım. Mənə ən böyük dəstək mane olmamaqdır. Bir neçə ay əvvəl hörmətli prezidentimizə və partiyamıza məktub ünvanlamışam. Orda göstərmişəm ki, vahid seçki siyahısını hazırlayıb televiziyalardan elan etmək rəqabət mühitinə mənfi təsir göstərir. Prezidentimizə müraciətimdə bildirmişəm ki, mütərəqqi yol siyahıların olmamasıdır. O anlama gəlməsin ki, müxalifət partiyaları və hakim partiya kimisə dəstəkləməməlidir. Təbliğat kampaniyası zamanı kimisə dəstəkləmək olar. Hakim partiyanın məni dəstəkləməsi avantaj olar. Çünki bu partiyanın kifayət qədər rayonda seçicisi olan üzvləri var. Vahid siyahının olmasını arzu etmirəm. Gülər Əhmədova və Elşad Abdullayev olayı hələ xatirimizdədir. Seçki sisteminə kifayət qədər kölgə gətirdi. Siyahıya düşmək istəyən kifayət qədər insan olur.



**“Seçkilərdə namizədliyimin hakimiyyət tərəfindən dəstəklənməsi vəd olunub”**

***- Müşahidələrimiz onu göstərdi ki, əhali hazırkı deputatdan narazıdır. Namizədliyinizi onun xeyrinə geri çəkdiyinizə nə zamansa peşman olmusunuzmu?***

- Bir seçici kimi Nərimanov-Nizami seçki dairəsində yaşayıram. Öz deputatımızdan belə razı deyiləm. Ola bilər ki, Rafiq müəllim yaşlı insandır, prorektor kimi vəzifəsi var. Bu səbəblərdən rayona tez-tez gəlməyə bilər. Mən dinamik insan kimi tez-tez gələ bilirdim. Bunun nəticəsində hazırda vəziyyət xeyrimizə yüksəkdir. Amma peşmançılıq hissi keçirmirəm. Bir dəfə milləti təmsil etmək belə qürurvericidir. Bunu yaşamağın özü ən böyük xoşbəxtlikdir. Deputatlıq və müəyyən vəzifə ömrü boyu ola bilməz. Əsas odur ki, insanlar arasında necə qarşılanırsan. Müxtəlif yollarla deputat və vəzifəsini uzatmaq istəyən insanlara tövsiyəm ondan ibarətdir ki, reytinqinizi yoxlatdırın. Bunu müəyyənləşdirəndən sonra cəhd etmək lazımdır. Buna ciddi önəm vermək lazımdır.

***- Deputat olduğunuz vaxt yarımçıq qalan işləriniz oldumu?***

- 2010-cu ildən təbii qazın kəndlərimizə verilməsi prosesi dayanıb. Deputat yol və qazçəkən deyil. Sadəcə, prosesləri sürətləndirmək üçün bir vasitədir. Prezident məni Moskvadan tanıyır. Şəxsən bu layihələrin razılığını ondan alandan sonra nazirlərlə görüşdüm. Bunları həyata keçirmək üçün qapılar arxasında gözləməyə məcbur olmuşam. Bundan məmnuniyyət hissi keçirirəm. Təəssüf hissi təbii ki, var. Çünki bu illər itirilmiş illər oldu. Təbii qaz olan kəndlərə insanlar artıq şəhərdən gəlməyə başlayıblar. Bu yerlərin torpaqları çox bərəkətlidir. Sadəcə, istifadə etmək lazımdır. Fermer təsərrüfatları yoxdur. Çalışıram ki, insanlar geri dönsünlər. Gədəbəyin tam qazlaşdırılmasına deputat olduğum zamanlarda nail ola bilmədim. Dövlət başçısı Gədəbəyə gələrkən, qeyri-millətdən olan malakanlar ona istirahət yerlərinin olmadığını bildirdilər. Bunları nəzərə alaraq, Saratovka kəndinin girəcəyində “Heydər parkı” saldırdım. Ulu öndərimizin büstünü qoydurdum. Bunu özümə mənəvi borc bildim. Dövlətimizi əsas inkişaf etdirən, vergi ödəyən sahibkarlardır. Bu sahəyə xüsusi diqqət ayrılmalıdır. İdarəetmədə daha çox gənclər olmalıdır. Müəyyən səbəblərdən bu işlərə təsir etmək imkanlarından məhrum olduq. Bundan əlavə, Azərbaycan sovet idarəetməsindən uzaqlaşmalıdır. Çünki hazırda elə insanlar vəzifədədir ki, sovet dövründə kolxoz sədri, briqadir işləyiblər. Belə insanları gənclər əvəz etməlidir. Bunun üçün çalışırıq. Üzdə hakimiyyəti, prezidenti tərifləyib, özünü kəndxuda kimi aparan insanlara qarşı daim mübarizə aparacam. Bu mübarizədə cənab prezidentin yanındayıq. Prezident deyir ki, vəzifələrə xalqa xidmət etmək üçün seçilmişik. Dövləti sevmək vəzifəni doğru-dürüst icra etməkdir.

***- Nazim müəllim, Gədəbəyin təhsil sistemi son açıqlamada bəlli oldu ki, bərbad vəziyyətdədir. Sizcə, səbəb nədir?***

- Təəssüf edirəm. Vaxtı ilə Gədəbəy türk dünyasının intellekt mərkəzi kimi qələmə verilirdi. Hazırda Azərbaycan dili və riyaziyyat fənlərindən qeyri-kafi almaqda axırdan 4-cü yerdədir. Çox pis haldır. Azərbaycan elminə yüzlərlə ziyalı bəxş etmiş bir rayonun təhsilinin bu şəkildə olması ürək ağrıdır. Məşhur məktəblərin siniflərində 5-6 nəfər oxuyur. Keyfiyyət yuxarı ola bilməz. Bulaq necə quruyursa, Gədəbəyin təhsili də elə qurumağa doğru gedir.

***- Son olaraq, seçicilərə müraciətiniz varmı?***

- Seçki hələ ki rəsmi elan olunmayıb. Sözüm odur ki, seçkilərə “bir səs hər şeyi həll edər” prizmasından baxın. İlk növbədə, vətəndaşlıq borcunu yerinə yetirib, seçkilərə gəlmək lazımdır. Bayaq qeyd etdim ki, insanlar payız fəslində şəhərə gedirlər. Bu da seçki vaxtına düşür. Arzu edərdim ki, onlar Bakıya getmələrini seçkidən sonraya saxlasınlar. Kimə səs versələr, gələcəkdə ondan nəyisə tələb etmək haqları olsun. Bu nöqteyi-nəzərdən yanaşmaq lazımdır. “Kimə səs verməyimin önəmi yoxdur. Kimi desələr o da seçiləcək” düşüncəsindən azad olmaq lazımdır. Yeri gəlmişkən, bir aydır burdayam. Eşidirəm ki, 3-4 potensial namizəd yuxarıların icazəsini aldığını deyir. Onu qeyd edim ki, seçkinin taleyini seçici həll edir. Yuxarıdan kimdənsə icazə alınması fikirlərini başdan çıxarmaq lazımdır. İcazə verən də seçicidir, alan da.

**❑ Cavanşir ABBASLI**

**““Azəriqaz” baxmayaraq ki, Şınıxın qazlaşdırıldığı barədə məlumat yayıb, amma Şınıxın 28 kəndinin yalnız ikisində qaz var. Hazırda bu bölgədə yol problemləri də mövcuddur”**



# Deyin, dustaqları buraxsınlar...

Xalid KAZIMLI

**Aprelin 25-də sonuncu görüşümüzdə onu çox üzgün, dalğın, sozalmış gördüm. Yanaşı oturmuşduq, bu cür situasiyalarda dilə gətirilən standart kəlmələrdən bir neçəsini təkrar edir, təsəlli verirdim.**

Əvvəlcə onun üzgünlüyünə, dalğınlığına, xəstəhal görkəminə ayrı bir məna vermədim. Adam gənc qızını, övladını qucağına belə ala bilməmiş nakam ananı qara torpağa qoyub gəlmişdi, başqa nə cür olacaqdı ki...

Ancaq 3-4 dəqiqədən sonra məhkum qardaşım, həbsdən sırf qızının vaxtsız vəfatına görə buraxılmış Tofiq bəyin dərman içdiyini gördüm. O xəstəydi, 50 yaşın və məhbəs divarlarının yaratdığı mərəzlər ondan yan keçməmişdi.

Üstəlik, bu adam keçmiş döyüşçüdürsə, müharibənin od-alovundan keçibsə, neçə dəfə ölümün gözünə dik baxıbsa, yaş torpaqda sürünübsə, qucağında qanına bələnmiş əsgər yoldaşını daşıyıbsa, açıq havada gecələyibsə, döyüşdən sonra Maralgölün buzlu suyunda çimməyə vadar olubsa, bütün bunlar onun səhhətində öz təsirlərini nə vaxtsa göstərməliydi.

Ağzımızda müharibə, qan-qada, od-alov deyirik, bu, sanatoriya, kurort, tətil kəndlərində istirahət deyil.

O, bəlkə də ömründə heç vaxt, hətta icra hakimiyyəti başçısının birinci müavini olanda da uzunmüddətli, iki həftəlik, bir aylıq istirahətə yollanmayıb. Ailəsini götürsün, yaşıl, sərin rayonlardan birinə getsin, isti dənizlərin sahilində narın qumda dincəlsin... Olmayıb. Bu adam özünü tanıyalı, biləli daima mübarizələrdə olub. 1988-ci ildən meydanlardadır. Həmin ilin noyabrında Azadlıq meydanında, ocaq başında ən çox gecə keçirən adamlardan olub. Bəlkə çiyninə adyal atmağı da özünə sığışdırmayıb. Sonra da müharibə meydanı, Goranboy... Murov...

Onun döyüş yolu, şəxsi şücaəti, rəşadəti barədə bir neçə dəfə yazmışam, indi təkrar etmək istəmirəm. Yalnız onu deyə bilərəm ki, bu ölkədə milli qəhrəman adını daşımağa ən çox haqqı çatan 10 hərbçimizdən biri məhz Tofiq Yaqubludur. Onun əli qanlı-qanlı yazdığı döyüş xatirələrini oxuyanda adamın tükü biz-biz durur.

Gəl gör ki, bu igid vətən oğlu *(əslində onun vətəni Gürcüstandır, amma Tofiq bu xalqın, Azərbaycanın oğludur)* bu gün məhbəsdədir, dörd divar arasındadır və daha pisi, səhhətində problemlər yaranıb.

Heç cür anlamaq olmur, nəyə görə bu şəxs günahsız yerə həbsdə yatmalıdır? "İsmayıllı işi" üzrə keçirilən saysız-hesabsız məhkəmə prosesləri işin bütün detallarını ortaya qoydu axı, Tofiq Yaqublunun heç bir günahının olmadığı sübut olundu axı...

Ona qarşı bu qədər mərhəmətsizliyin səbəbi nədir? Siyasi mübarizəsimi? Ondan başqa da partiya sədrlərinin müavinləri var və vaxtaşırı tənqidi ruhlu açıqlamalar verirlər.

Bəlkə qəzetimizdə dərc etdirdiyi publisistik yazılarına, felyetonlarına görə ona qarşı hiddət yumşalmır? Bu da ağlabatan deyil. Bu qəzetdə daha sərt yazılarla çıxış edənlər həmişə olub, yenə də var.

Hər dəfə əfv sərəncamı imzalananda, amnistiya elan olunanda onlarla, hətta yüzdən artıq sırf kriminal keçmişi olan, dinc insanların malına, mülkünə, həyatına qəsd etmiş canilər azadlığa buraxılır.

Yəni bir igid Qarabağ döyüşçüsü, son dərəcə vətənpərvər insan olan Tofiq Yaqublu o əfv olunan canilər qədər də olmadı?

İki ildən artıqdır yazırıq, onun necə bir vətəndaş, ziyalı olduğunu anladırıq, xidmətlərini sadalayırıq, bunlar da bir işə yaramır?

Ölkənin ən çox oxunan qəzet və saytlarının tanınmış imzaları olaraq bəzən tələb, bəzən xahiş edirik, yəni bizim sözümüzün heç bir dəyəri yoxdur?

Söhbət canını məmləkət, millət yolunda fəda etmiş bir insanın həyatından, sağlamlığından gedir.

Mən onu 20 ildən çoxdur tanıyıram, o, bu cəmiyyət üçün təhlükəli adam deyil, tam əksinə, cəmiyyətə fayda verən, nümunə olan bir insandır.

Belə işıqlı adamları məhbəsdə saxlayıb dustaq etmək, səhhətlərində geridönməz proseslərin başlanmasına rəvac vermək olmaz. Əli Kərimin oğlu Orxan məhbəsdən xəstə çıxdı və artıq həyatda yoxdur, yaxşı oldumu?

Siz ey səlahiyyətli insanlar, deyin, günahsız dustaqları buraxsınlar...

# Avropa İrana, ABŞ Türkiyəyə qucaq açır, bəs Azərbaycan?

**İranın nüvə proqramı ilə bağlı Tehranla "Altılıq" ölkələri arasında əldə edilmiş 14 iyun Vyana anlaşması cənub qonşumuzun dünyaya, Qərbə təzədən açılmasına yaxşı fürsət yaradıb. Artıq iri Qərb şirkətləri bir-birinin ardınca İslam Respublikası ilə bağlı əməkdaşlığı yüksək səviyyədə qurmaq üçün fəaliyyətə keçib. Təbii ki, burada söhbət qarşılıqlı mənfəət və maraqlardan gedir.**



Paralel surətdə İranla Qərb dövlətləri, o cümlədən Avropa Birliyi arasında qırılmış münasibətlər sürətlə qaydaya salınır, vaxtilə pozulmuş diplomatik əlaqələr - səfirlik və konsulluqlar bərpa olunur. Bu fonda həmçinin qarşılıqlı, siyasi-diplomatik xarakterli gediş-gəlişlər, səfərlər intensivləşməyə başlayıb.

Məsələn, dünən Fransanın xarici işlər naziri Loran Fabius İrana gedib. Fabiusun prezident Həsən Ruhani, İran XİN rəhbəri Məhəmməd Cavad Zəriflə görüşü gözlənilirdi. Fransa XİN-in rəsmi nümayəndəsi Romen Nadalın sözlərinə görə, söhbət Fransa diplomatiya rəhbərliyinin 12 il ərzində İrana ilk səfərindən gedir. **"Səfər iki ölkə arasında siyasi dialoqun bərqərar olmasına kömək edəcək. Görüşlər zamanı Fransa-İran əlaqələrinin əsas məqamları, regional məsələlər, eləcə də Parisdə keçiriləcək iqlim konfransı müzakirə olunacaq"** - qeyd edib XİN yetkilisi.

***

Öz növbəsində rəsmi Tehran da dünyaya, Qərbə daha yaxşı açılmaq, iri xarici investisiyaları cəlb eləmək üçün birtərəfli qaydada addımlar atmaqdadır. O sırada srağagün İran 7 ölkə - Türkiyə, Azərbaycan, Livan, Misir, Gürcüstan, Suriya və Boliviya vətəndaşları üçün viza rejimini götürüb. Sadalanan ölkələrin vətəndaşları 90 gün müddətində vizasız bu ölkədə qala biləcəklər. Məlumatlara görə, belə bir qərar həm də İranda turizmin inkişafına hesablanıb. Tehranın daha 60 ölkəyə qarşı eyni qərarı verəcəyi bildirilir.

Diqqətçəkicidir ki, viza ləğv edilən ilk 7 ölkə arasında Rusiya və işğalçı Ermənistan yoxdur. Halbuki cənub qonşumuzun Moskva və İrəvanla elə bir problemi mövcud deyil. Hər necə olmasa, bu iki ölkəyə qarşı vizanın saxlanması Rusiya ilə gərgin münasibətlərdə olan Qərbə və Ermənistanla müharibə vəziyyətində olan Azərbaycana özünəməxsus mesaj təəssüratı bağışlayır, beynəlxalq hüququ eyni dərəcədə ayaqaltı eləmiş iki işğalçı dövləti Tehranın ayrı bir rəfə qoyması təsəvvürü formalaşdırır.

***

Burdaca qeyd edək ki, ABŞ-dan fərqli olaraq Avropa, ələlxüsus da Fransa və Böyük Britaniya ənənəvi olaraq İslam Respublikası ilə yaxşı münasibətlərdə olub. ABŞ isə ənənəvi olaraq bölgədə Türkiyəyə stavka edib. Son günlər bu müttəfiqlik özünü Ankaranın İŞİD və PKK terroruna qarşı mübarizəsində Vaşinqtonun və Brüsselin verdiyi dəstəkdə, Suriya ərazisində iki ölkənin bufer (təhlükəsizlik zonası) yaratmaqla bağlı ortaq qərarında bir daha nümayiş etdirdi.

# Azərbaycan əleyhinə "Avrasiya Hərəkatı"nın şok səbəbi

## Ölkəmizin yerləşdiyi bölgə ətrafında başlayan proseslərin yeni, təhlükəli pərdəarxası; Rusiya "5-ci kolon"çularının qəfil fəallaşması, Sterliqov "sindromu" müstəqilliyimizə və Qarabağa nə vəd edir?

Növbəti dəfə bəlli oldu ki, qardaş ölkə ABŞ və Avropa üçün bölgədə əsas, açar ölkə olaraq qalır. Doğrudur, bəzi ehtimallara görə, Türkiyəyə verilən dəstəyin qarşılığında ABŞ ondan Ermənistanı Rusiyanın ağuşundan qoparmaq üçün konkret əvəz istəyə bilər - misal üçün, sərhədlərin açılması formasında. Ancaq hətta belə bir tələb-istək olsa belə, şübhə yox ki, Ankara bunu Bakının istəkləri nəzərə alınmaqla həyata keçirəcək.

Bütün hallarda Türkiyə ilə ABŞ-ın münasibətlərində pozitiv inkişaf söz yox ki, Qarabağ kimi üzücü bir problem yaşayan Azərbaycanın da köklü maraqlarına uyğundur. Son vaxtlar rəsmi Bakının Qərbə (ABŞ və Avropaya) münasibətdə yumşaq ritorikaya keçməsi bu xüsusda qardaş ölkə ilə ABŞ-ın ılıqlaşan əlaqələri ilə sinxronluq təəssüratı yaradır və müsbət tendensiya sayıla bilər.

Bu tendensiyanı qalıcı və daimi eləmək üçün rəsmi Bakının da görməli olduğu işlər var. Məsələn, tərəflər arasında etimadsızlıq divarı kimi qalmaqda olan siyasi məhbuslar məsələsində çoxdan gözlənilən addımı atmaq zamanı çatıb. Belə bir addım Qərblə münasibətləri tam qaydaya salmaq niyyətinin səmimiliyinin parlaq təsdiqi olar, öz pozitiv təsirini dərhal Qarabağ məsələsində də göstərərdi.

Hər halda, qərbyönlü qüvvələrin tanınmış təmsilçilərin *(Anar Məmmədli, İlqar Məmmədov, Tofiq Yaqublu, Rauf Mirqədirov, Rəsul Cəfərov, Leyla Yunus və başqaları)* bundan sonra da həbsdə saxlanması yeni və ümidverici ritorika ilə, ən önəmlisi, bölgədə formalaşmış son geosiyasi situasiya ilə uzlaşmır.

***

Yeri gəlmişkən, Azərbaycanda Rusiya "5-ci kolon"çuların qəfildən məhz bu ərəfədə fəallaşması *(Azərbaycanda "Avrasiya Hərəkatı"nın təsis edilməsi)* diqqət çəkir. O da maraqlıdır ki, Qərbin "5-ci kolonu"na qarşı olduqca sərt olan hakimiyyətimiz Azərbaycanı Rusiya boyunduruğuna salmağı hədəfləmiş və açıq fəaliyyətə keçən Rusiya "5-ci kolon"çularına *(Ilqar Qasımov, Nəriman İmranov)* qarşı olduqca tolerant davranır.

Xatırladaq ki, "Avrasiya Hərəkatı"nın Rusiyadakı lideri, Kremlin "danışan dilləri"ndən hesab edilən, avantürist və hədələyici açıqlamaları ilə tanınan Aleksandr Duqindir. Jirinovskinuin başqa bir siyasi tayı olan bu adam Qarabağ mövzusunda dəfələrlə Azərbaycanın, müstəqilliyimizin əleyhinə fikirlər söyləyib, hətta hədələr səsləndirib.

Bu da onun - Duqinin fikridir ki, Dağlıq Qarabağ problemi yalnız Azərbaycanla Ermənistan Avrasiya İttifaqına qoşulduqdan sonra mümkün ola bilər, nəinki Bakıya hansısa güzəştlərdən sonra. Yəni boş vəd məsələsi...

Belə bir absurd ideyanın müəllifinin Azərbaycanda tərəfdarlar tapması və tərəfdarların hökumətin gözü önündə açıq təbliğata başlaması *(bura rusiyalı avantürist oliqarx German Sterliqovun Azərbaycan əleyhinə fəaliyyətə keçməsini də əlavə edin)* nəinki Qarabağa, bütövlükdə Azərbaycana və onun suverenliyinə yaxşı heç nə də vəd edə bilməz.

***

Bölgəmizdə və ətrafında cərəyan edən bu və başqa təhlükəli proseslərdən qənaət hasil olur ki, Rusiya Qərbi elə Azərbaycanın öz içindən "vurmaq" istəyir. Ölkəmiz uğrunda geosiyasi rəqabət gerçəkdən də daha sərt və bəlkə də sonuncu mərhələyə adlayıb. Bu mərhələni yalnız qardaş Türkiyə ilə birgə və Qərbə ciddi reveranslar hesabına, bir də təbii ki, Azərbaycan cəmiyyətini, yerli milli-demokratik qüvvələri baş verənlərdən vaxtında hali eləməklə uğurlu şəkildə adlamaq mümkündür.

❑ Siyasət şöbəsi

**Azərbaycanın keçmiş milli təhlükəsizlik naziri Nəriman İmranovun və Rusiyanın Ədliyyə Nazirliyinin keçmiş əməkdaşı, ikinci dərəcəli dövlət müşaviri İlqar Qasımovun Azərbaycanın bir qrup ictimai və siyasi xadimləri ilə birlikdə Azərbaycanda "Avrasiya Hərəkatı" yaratdığı barədə yazmışıq. Bu barədə təşəbbüs qrupunun üzvlərindən biri məlumat verib. Əsas məqsəd Putinin Avrasiya İttifaqı ideyasını ölkəmizdə populyarlaşdırmaqdır.**

# "Azərbaycan hakimiyyəti daxilində "5-ci kolon" var"

## Rusiyaya bağlı generalların "Avrasiya Hərəkatı" yaratmasına hökumətin susqunluq göstərməsi ilginc reaksiyalar doğurdu

Bugünlərdə təşəbbüs qrupu hərəkatın rəsmi qeydiyyatı üçün Ədliyyə Nazirliyinə müraciət edib. Məlumat üçün bildirək ki, sovet KQB-sinin zabiti Nəriman İmranov 1993-cü ildə Milli Təhlükəsizlik Nazirliyinə başçılıq edib və 1994-cü ilin payızınadək nazir olub. MTN-in təcridxanasından Rəhim Qazıyevin, Ələkrəm Hümmətovun, Arif Paşayevin və Baba Nəzərlinin qaçırılmasından sonra Nəriman İmranov dövlətə xəyanətdə ittiham edilib. Azərbaycan Ali Məhkəməsinin Kollegiyasının qərarı ilə 1996-cı il, fevralın 12-də ölüm cəzasına məhkum edilib. Azərbaycanda ölüm cəzası ləğv ediləndən sonra İmranov Qobustan həbsxanasında ömürlük cəza çəkib. 2002-ci ildə Heydər Əliyevin fərmanı ilə əfv edilib.

2002-ci ildən Nəriman İmranov ictimai-siyasi fəaliyyətlə məşğul deyildi. Və onun gözlənilmədən Rusiya Ədliyyə Nazirliyinin generalı ilə siyasi səhnədə peyda olması böyük marağa səbəb olub. Eyni zamanda ortaya bir çox suallar çıxarıb. Bu suallardan biri isə budur ki, Azərbaycanda qərbyönlü olması ilə tanınan ictimai fəallara, QHT rəhbərlərinə hakimiyyət tərəfindən sərt münasibət sərgiləndiyi, onlar təqib olunduğu halda, Rusiyaya bağlı olduğu, sifarişlə hərəkət etdiyi haqda çoxsaylı məlumatlar olan tanınmış şəxslərin əl-qol açmasına, hərəkat yaratmaq qədər irəli getməsinə nədən loyal yanaşma müşahidə edilir? İlqar Qasımovla Nəriman İmranovun yaratdığı hərəkat cəmiyyət tərəfindən dəstək qazana bilərmi?

**Bu barədə danışan Azərbaycan Milli Strateji Araşdırmalar Mərkəzinin rəhbəri Natiq Miri öncə bu iki şəxsin illərdir Rusiya xüsusi xidmət orqanlarının nəzarətində olduqlarını diqqətə çatdırdı:** "Hər iki şəxs zaman-zaman konkret sifarişlər yerinə yetiriblər. Bu, birmənalıdır. Lakin onların nə qədər cəhd etsələr də cəmiyyətdən dəstək almaları mümkün deyil. Çünki Azərbaycan ictimaiyyəti arasında müsbət imicləri, hörmətləri yoxdur. Odur ki, İlqar Qasımovla Nəriman İmranovun hansısa hərəkat yaratmasını Azərbaycan üçün o qədər də böyük təhlükə hesab etmirəm. Bu adamların ikisi də ifşa olunmuş, cəmiyyət tərəfindən qəbul edilməyən insanlardır. Belə adamların ətrafında hər hansı ciddi təmərküzləşmənin, koalisiyanın yaranacağını düşünmürəm. Bunu təbii ki, Azərbaycanın xüsusi xidmət orqanları da bilməmiş deyil. Rusiyanın nəzarətində olan adamlara - "5-ci kolon" nümayəndələrinə Azərbaycan hökumətinin qərbyönlü şəxslərdən fərqli olaraq sərt münasibət sərgiləməməsinə gəlincə, bu faktın özü bir daha göstərir ki, Azərbaycan hakimiyyətinin daxilində "5-ci kolon" var və onlar Rusiyanın sifarişi ilə hərəkətə keçən adamlara qarşı ciddi tədbirlər görülməsinə mane olurlar. Buna görə də İlqar Qasımov, Nəriman İmranov kimi adamlar burada arxayın hərəkət edirlər, hətta o qədər arxayındırlar ki, yaratdıqları təşkilatın qeydiyyata alınması istiqamətində addımlar atırlar. Onlar Azərbaycan cəmiyyətində Putinin Avrasiya İttifaqı projesini, Azərbaycanın oraya daxil olmasını təbliğ etmək üçün təlimatlandırılıblar. Ancaq mən onların Azərbaycan ictimaiyyətinə təsir edə biləcəyini düşünmürəm. Qərbyönlü fiqurları Azərbaycan hakimiyyəti içində müdafiə edən güclü şəbəkə mövcud deyil. İlqar Qasımov və Nəriman İmranov kimi Rusiyanın birbaşa nəzarətində olan adamları isə hakimiyyət içində olan güclü şəbəkə himayə qoruyur".

**Politoloq Qabil Hüseynli də hesab edir ki, Kremldən qaynaqlanan Avrasiya İttifaqı layihəsinin təbliğatı üçün yaradılmış hərəkatın, ideyanın xalqın dəstəyini qazanması gözlənilmir:** "Rusiya Qarabağ məsələsində ermənilərə təsir göstərməyəcəksə, Azərbaycan xalqı məlum hərəkata "hə" deməz. Ermənistan işğalçılıq siyasətindən əl çəkməyəcəksə, onun ağası olan Moskva buna susqunluq nümayiş etdirəcəksə, sözügedən hərəkat ölkəmizdə dəstək qazanmayacaq. İkincisi, İlqar Qasımov möhkəm adam deyil və onun ipinin üstünə odun yığmaq olmaz, cəmiyyətdə də onun haqqında müsbət rəy yoxdur. Nəriman İmranov mərhum Heydər Əliyevin yaxın silahdaşlarından biri olub. Buna rəğmən o, Azərbaycanın təhlükəsizliyi ilə bağlı proseslərdə alver yaratmaq istəyirsə, bunu pisləyirəm. Güman edirəm ki, Abbas Abbasov kimi onun da addımları uğursuzluğa düçar olacaq".



**Natiq Miri:** "İlqar Qasımov, Nəriman İmranov kimi adamlar burada ona görə arxayın hərəkət edirlər ki..."



**Qabil Hüseynli:** "Bu ideyanın xalqın dəstəyini qazanması mümkün deyil..."

**Keçmiş müdafiə naziri Rəhim Qazıyev isə Nəriman İmranovun hərəkat yaratmasının Rusiyanın dəstəyi ilə baş verdiyini bildirib və İmranovu sərt tənqid eləyib. R.Qazıyev "Azadlıq" qəzetinə deyib ki, bütün bunlar Nəriman İmranovun ölənə kimi xidmət etməyə borclu olduğu Rusiya KQB-sinin qarşısında götürdüyü öhdəliklərlə bağlıdır:** ""Avrasiya Hərəkatı"nın yaradılması təşəbbüsü Rusiyanın Nəriman İmranova sifarişidir. Mən buna qəti şübhə etmirəm. Nəriman İmranovun azadlığa çıxdıqdan 13 il sonra siyasi səhnədə görünməsini adı hadisə hesab etmirəm. Nəriman İmranovun bu iqtidara böyük məhəbbət bəslədiyi şübhə doğurur. Ona bəzi məqamları xatırlatmaq istəyirəm. Nəriman İmranov 1999-cu il dekabrın 31-də Bayıl təcridxanasının 128-ci kamerasında mənə təbrik "ksiva"sı göndərdi. Təbrikdə onu da qeyd etmişdi ki, əfv fərmanı verilib və bu əfvlə azadlığa çıxmaqdansa burada ölmək daha şərəflidir. Həmin məktubda ovaxtkı ölkə rəhbərliyinin ünvanına da sərt ifadələr işlətmişdi. Bu hadisədən 2 il sonra Heydər Əliyev Nəriman İmranovun ömürlük cəzasını 15 illə əvəz etdi. Mən həmin vaxt təsadüfən görüşdə idim və Nəriman İmranovun televiziyada minnətdarlıq çıxışını izləməli oldum. O, çıxışında Heydər Əliyevin əsgəri olduğunu və onun əmri ilə hara lazımdırsa getməyə hazır olduğunu bildirirdi. Nəriman İmranovun bu sözlərini eşitdikdə onun təbrik məktubunda yazdıqları gözümün önünə gəldi.

Nəriman İmranovun İlqar Qasımovla hər hansı hərəkat yaratması onun bu rejimə məhəbbətindən irəli gəlmir. Bu işlər Azərbaycana yaxşı heç nə vəd etmir. Nəriman İmranovun diqqətinə çatdırmaq istəyirəm ki, müxalifət olaraq yaşadığı ölkənin hakimiyyətinə qarşı mübarizəni açıq aparmaq lazımdır. Hansısa ölkənin sifarişilə yaşının bu ixtiyar vaxtında siyasət meydanına atılmaq vətənpərvərlik ələməti deyil. Nəriman İmranov, sizin Heydər Əliyevə olan mövqeyinizi mən də bilirəm, siz özünüz də bilirsiniz. Ona görə 13 il susub kimlərinsə sifarişi ilə ölkədə qarışıqlıq salmaq vətənə xidmət yox, xəyanət əməlidir".

❑ Etibar SEYİDAĞA



# Abırsızlığın son həddi

## Bu hakimiyyətdən iki dəfə deputat mandatı, ev, milyonlarla pul alan Əli Kərimli öz adını başqalarına qoymaq istəyir

**Əli Kərimli öz qəzetində Akif imzası ilə "Yeni Müsavat" və Rauf Arifoğlu haqda məqalələr yazmaqdadır. Yeri gəlmişkən, adı "Azadlıq" olan, amma heç bir azadlığı, müstəqilliyi, müxtəlifliyi tanımayan, qəbul etməyən qəzet hər sayında barəmizdə bir neçə məqalə dərc edir. Dünənki sayında da ən azından 3 məqalə həsr edib bizə. Məqalələrdən birində yazılıb ki, kim Əli Kərimli haqda tənqidi məqalə yazırsa, deyirsə, həmin adamlar hakimiyyətdən mükafat umurlar. Guya camaat işini-gücünü atıb Ə.Kərimli haqda yazır ki, iqtidardan mükafat alsın.**

Burda deyirlər, "adımı sənə qoyum, səni yana-yana". Əli Kərimli hakimiyyətdən mükafat - mandat, ev, pul və s. almaq üçün nəyi vardısa satışa çıxarıb zamanında. Bu üzdən də elə bilir hamı onun kimidi. AXCP-nin sədri Əbülfəz Elçibəy Kələkidə məcburi sürgündə olanda ona yaşadığı kənddən kənara çıxmağa icazə vermirdi hakimiyyət. Kəndi üzük qaşı kimi mühasirədə saxlayırdı polis və hərbçilər. Amma Əli Kərimli Bakıda rahat kabinetdə otururdu. Üstəlik, ürəyi istədiyi vaxt Avropaya, Amerikaya, Türkiyəyə gedirdi. 1993-cü ildə AXC iqtidarının məmurlarına verilmiş evlər YAP iqtidarı tərəfindən qanunsuz olaraq qəsb edildi. Prezident Administrasiyasının işçiləri üçün tikilən binadan Əli Kərimliyə də ev verilmişdi. Bu "fərasətli oğlan" hakimiyyətlə separat danışıqların içində olduğundan onun evinə toxunmadılar. Bu gün də o mənzildə yaşayır.

1995-ci ilin payızı. Əbülfəz Elçibəy Kələkidə ən ağır şərtlər altında yaşayır. Cəbhənin bir çox üzvləri, funksionerləri həbsdə, mühacirətdə. Belə bir şəraitdə ölkə parlament seçkisinə hazırlaşır. AXC-nin adını dəyişib, arxasına bir P artırıblar. Təşkilatı partiyaya çeviriblər, çünki qanunvericiliyə görə, hərəkat şəklində seçkiyə gedə bilməzdi. Repressiyaya məruz qalmış bir təşkilat seçkiyə buraxılır. Əli Kərimli və onun "Yurd" təşkilatının əsas fiqurları parlamentə düşür. Tam saxta yolla hakimiyyətdən mandat alan Əli Kərimli Milli Məclisdə müxalifəti təmsil edir.

Bu, 5 il sonra yenidən təkrarlandı. 2000-ci ilin parlament seçkilərində sonradan hakimiyyət qarşısında nə səhvi, günahı oldusa, heç kimin, hətta özünün belə gözləmədiyi halda onu təhdir edib parlamentdən qovdular.

Əli Kərimli hakimiyyətdən təkcə mandat almamışdı o zamanlar. Tapşırıqlar da alırdı. Ən əsas tapşırıqlardan biri də müxalifətin mümkün birliyinə mane olmaq idi. AXCP-ni dağıtmaq, gerçək hərəkatçıları, vicdanlı partiya funksionerlərini təşkilatdan didərgin salıb onların müxalifətdəki təsir imkanlarını azaltmaq da onun qarşısına qoyulan vəzifələrdən idi. Bütün bu xidmətin müqabilində hakimiyyət ona geniş biznes şəbəkəsi yaratmışdı. O da boş dayanmırdı, biznesdən əldə etdiyi pullarla özünə az qala media-holdinq yaratmışdı. O vaxt "Yurd"a xeyli qəzet açmışdı Əli Kərimli. Jurnalist ordusu saxlayırdı - hər birinə də paket-maaş verirdi.

Siyasi tərcümeyi-halı separatçılıqla, satqınlıqla, xəyanətlə zəngin olan biri indi kim xoşuna gəlmirsə, ona satqın damğası vurmağa çalışır. Və həyasızcasına deyir ki, məni söyüb iqtidardan para, mandat alırlar. Sən elə dəyərlisənsə, özünə gün ağla də. "Ətəyimi buraxmırlar, çünki mənim ətəyimdən ruzi qazanır məni söyənlər". Sənin ətəyin elə bərəkətli, bol ruzilidirsə öz dostların, qohum-əqrəban yapışsın. Xeyli insan sənin üzündən türmələrdədir, canını repressiyadan qutaranlar da vətəndən didərgin düşüblər. Əli Kərimli, sən ruzi verən yox, ruzi, çörək kəsənsən. İnsanların halal haqqına girib onları özünə düşmən edənsən. Biz Allahın ətəyindən yapışmışıq, Yaradanın verdiyi ruziylə yaşayırıq. Səndən fərqli olaraq bu iqtidardan nə ev almışıq, nə deputat mandatı. Nə də sənin kimi satqınlıq edib özümüzə biznes şəbəkəsi qurmuşuq.

Özünü çox da əhəmiyyətli bilmə. Sənə baş qoşmaq fikrimiz yoxdu, sadəcə, hər gün öz zombilərinə bizi söydürdüyün üçün arada cavabını veririk. Əslində sən bizim hesabımıza dolanırsan, başını girləyirsən. Şəxsən sənin və AXCP rəhbərliyinin başqa işi yoxdu. "Hakimiyyətlə mübarizə aparırıq" deyib, əslində hakimiyyətə xidmət edirsiz. İctimai diqqəti yayındırmaq üçün Rauf Arifoğlunu, "Yeni Müsavat"ı söyürsüz, təhqir edirsiz. Sənin bu ölkəyə, bu millətə verə biləcəyin şey budur - söyüş, təhqir, şər-böhtan... Bu xalq niyə sənin arxanca gəlsin ki?! Belə bir idbar "lideri" Azərbaycan insanı haqlı olaraq boykot edir - tədbirlərinə gəlməməklə, arxasınca getməməklə.

❑ ŞAİQ

YENİ MÜSAVAT
N 164 (6192) 30 iyul 2015

**Azərbaycan prezidenti İlham Əliyev Nazirlər Kabinetinin 2015-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında bir çox maraqlı çıxışlar etmişdi. Prezidentin iclasda səsləndirdiyi fikirlər artıq ölkə ictimaiyyəti arasında geniş müzakirələrə yol açıb. İ.Əliyevin toxunduğu məsələlərdən biri də AZAL-ın əl "yandıran" bilet qiymətləri idi.**

# İqtidaryönlü deputat AZAL-ı sərt tənqid etdi

## Fəzail Ağamalı: "Prezidentin tapşırıqları nəzərə alınmasa, biz kütləvi istefaların, hətta həbslərin şahidi ola bilərik"

Aviabiletlərin qiymətinin baha olması uzun zamandır ki, müzakirə mövzusudur. Prezident son müşavirədə AZAL-ın təyyarə biletlərinin qiymətlərinin digər ölkələrə, şəhərlərə nisbətən baha olması məsələsinə də diqqət çəkmişdi.

AZAL-ın ucuz qiymətə yanacaq, üstəlik, dövlətdən subsidiyalar aldığı təqdirdə biletlərin niyə baha olması barədə sual verən İ.Əliyev qiymətlərin aşağı salınmasını ilə bağlı göstəriş vermişdi: "Azərbaycanda bütün təyyarələr dövlət büdcəsinin vəsaiti hesabına alınır, bütün aeroportlar dövlət hesabına tikilir, bütün şərait dövlət hesabına yaradılır. Yanacaq digər ölkələrə baxanda daha ucuza satılır. Bu zaman niyə bilet qiymətləri daha bahadır? Hə, AZAL yüksək xidmət göstərir. Amma bu qiymətlərin süni şəkildə artırılmasına bəhanə deyil. Şəffaflığın təmini, qiymətlərin tənzimlənməsi üçün Maliyyə Nazirliyi, İqtisadiyyat və Sənaye Nazirliklərinə tapşırıq verirəm ki, bu məsələni araşdırsınlar".

İ.Əliyevin bu çıxışı böyük səs-sədaya səbəb oldu. Hər kəs qiymətlərin aşağıya salınacağını gözləməyə başladı. Amma... AZAL qiymətləri azaltmadı. Daha dəqiq desək, azaltmaq görüntüsü yaratdı.

AZAL qiymətlərdə dəyişiklik etdi, amma müəyyən şərtlərdə. İlk olaraq azalın yeni qiymətlərindən bəzilərini sizinlə bölüşürük:

*Roma "gediş-dönüş" cəmi 359 Avro;*
*Milan "gediş-dönüş" cəmi 349 Avro;*
*Paris "gediş-dönüş" cəmi 369 Avro;*
*Praqa "gediş-dönüş" cəmi 349 Avro;*
*Bakı- London-Bakı "gediş-dönüş" cəmi 389 Avro;*
*London-Bakı-London "gediş-dönüş" cəmi 339 Funt sterling;*
*İstanbul "gediş-dönüş" cəmi 209 Avro;*
*Pekin "gediş-dönüş" cəmi 369 Avro;*
*Tel-Əviv "gediş-dönüş" cəmi 339 Avro;*
*Ankara "gediş-dönüş" cəmi 269 Avro;*
*Aktau "gediş-dönüş" cəmi 189 Avro;*
*Tehran "gediş-dönüş" cəmi 179 Avro;*
*Dubay "gediş-dönüş" cəmi 239 Avro;*

Qiymətlərin avro ilə olması belə ekspertlərin fikrincə, düzgün addım deyil. Onlar bunu manata güvənməmək kimi qiymətləndirirlər.

AZAL tənqidlərdən sonra qiymət məsələsinə bir daha aydınlıq gətirib. Amma dəyişən bir şey yoxdur. Misal üçün, Bakı-İstanbul-Bakı marşrutu üzrə biletin qiyməti 277 avrodan 219 avroya (58 avro və ya 21% ucuz) endirilib. Amma nəzərə alsaq ki, sərnişinlər 23 kiloqrama qədər olan hər baqaj üçün əlavə 50 manat ödəyirlər. O zaman edilən endirim 8-10 manat edir. Yəni prezidentin iradlarından sonra AZAL-ın tətbiq etdiyi qiymət endirimi bu qədərdir.


Fəzail Ağamalı

### "AZAL rəhbərliyi ölkə başçısının tənqidlərindən nəticə çıxartmalıdır"

**AZAL-ın bu qiymət siyasəti ilə bağlı məsələyə münasibət bildirən millət vəkili Fəzail Ağamalı dedi ki, şirkət ölkə başçısının tənqidlərindən nəticə çıxartmalı, radikal addımlar ataraq, qiymətləri aşağıya salmalıdır:** "Prezidentin çıxışı həqiqəti özündə ehtiva edən, vətəndaşların maraqlarına söykənən sözlər idi. Ölkə başçısının sözlərindən kimsə nəticə çıxarmırsa, deməli, o, bütün dəyərləri itirib, qırmızı xətti keçib. Mən çox təəssüf edirəm ki, İlham Əliyevin çıxışından sonra AZAL rəhbərliyi qiymətləri azaltmaq əvəzinə, elə bir fikir irəli sürdü ki, haqlı olaraq tənqidlərə məruz qaldı. Məsələn, bir tərəfdən qiymətləri aşağı saldıqlarını iddia edirlər, digər tərəfdən də baqajlara görə rüsum tuturlar. Bu necə olan şeydir? AZAL rəhbərliyi ölkə başçısının tənqidlərindən nəticə çıxartmalı, radikal addımlar ataraq, qiymətləri aşağıya salmalıdır".

### "AZAL-ın inhisarçılığına son qoyulmalıdır"

**Millət vəkili qiymətlərin aşağı salınmasının asan yolunu rəqabət mühitinin yaradılmasında görür:** "AZAL-ın xidmətlərindən mən də razıyam. Tam səmimi olaraq deyirəm ki, AZAL yüksək xidmət göstərir. Lakin qiymətlər fantastik həddədir. AZAL ən qısa müddətdə heç bir kateqoriyalara bölmədən qiymətləri aşağıya salmalıdır. Qiymətlərin azalmasının ikinci yolu da rəqabət mühitinin yaradılmasıdır. AZAL-ın inhisarçılığına son qoyulmalıdır. Müxtəlif aviaşirkətləri Azərbaycana cəlb etmək lazımdır. Bu yolla rəqabət yaranacaq. Və qiymətlər avtomatik olaraq normallaşacaq".

### "Biz kütləvi istefaların şahidi ola bilərik"

**F.Ağamalı sonda qeyd etdi ki, əgər yaxın zamanlarda tənqid edilən strukturlarda müsbətə doğru dəyişiklik olmazsa, istefalar qaçılmazdır:** "Əgər ölkə prezidentinin son ciddi xarakter daşıyan çıxışından sonra ayrı-ayrı strukturlar nəticə çıxarmasa, onlar ən yaxşı halda istefaya getməlidirlər. Hətta daha kəskin addımlar ataraq, onlar hüquq qarşısında cavab verməli ola bilərlər, həbs edilərlər. İlham Əliyevin dediyi kimi, kimliyindən asılı olmayaraq hər bir məmur xalqa xidmət etməlidir. Əgər yaxın bir neçə ay ərzində ayrı-ayrı sahələrdə deyilən iradlar aradan qaldırılmazsa, problemlər həll edilməzsə, biz kütləvi istefaların şahidi ola bilərik".

❑ **Məhəmməd TÜRKMƏN**

# Bahalaşma Şeyxi "vurdu", zəvvarlar üçün kvota dolmayıb

## Həcc qiymətlərinin bahalaşması nəticəsində zəvvar yerləri hələ də dolmayıb

**Bu il Həcc ziyarəti sentyabr ayında baş tutacaq. Həcc mərasiminin əsas ayini olan və müsəlmanların əsas bayramı olan Qurban bayramı sentyabrın 24-də qeyd olunacaq. Sentyabrın əvvəlində isə Azərbaycandan zəvvar qrupları Ərəbistana yola düşəcək.**

Qeyd edək ki, Azərbaycanda hər il olduğu kimi, Həcc ziyarətinə sənəd qəbulu QMİ tərəfindən ilin əvvəlindən başlayıb. İdarədən verilən məlumata görə, bu il Həcc ziyarətinə gedəcək zəvvarlarla QMİ arasında müqavilə imzalanacaq və xidmət haqqı zəvvarın özü, yaxud onun səlahiyyətli nümayəndəsi tərəfindən, QMİ-nin Azərbaycan Beynəlxalq Bankının "Mərkəz" filialındakı (Ünvan: AZ1005, Bakı, Səbail, Hacı Zeynalabdin Tağıyev, 3) manat hesabına ödənilir.

Ancaq bu il ziyarət qiymətləri ilin əvvəlində baş verən devalvasiya səbəbindən bahalaşıb. Belə ki, xidmət və keyfiyyət fərqlərinə əsasən zəvvarlara, hər il olduğu kimi, iki Həcc tarifi təklif olunur. Nisbətən aşağı keyfiyyətli və hotel nömrəsində çox adamın qaldığı zəvvar paketi 4700 ABŞ dolları və nisbətən yüksək keyfiyyətli (VİP) xidmətlərə görə 5750 ABŞ dolları nəzərdə tutulub.

Bu isə ötən illə müqayisədə xeyli bahadır. Xatırladaq ki, son iki ildə Azərbaycanda Həcc qiymətləri sabit olub. Yəni nisbətən şəraiti zəif və gündə iki dəfə yemək verilən hotellərdə qalmaq istəyən zəvvarlar 3250 manat, daha yaxşı şəraitli və yeməkləri daha çeşidli olan hotellərdə qalmaq istəyən zəvvarlar isə 4100 manat ödəməli olublar. Bu il isə qiymətlər 35 faiz civarında, yəni devalvasiya kursuna uyğun olaraq qaldırılıb. Həcc ziyarəti VİP xidmətlərlə 5750, adi xidmətlərlə isə 4700 dollar olub. Yəni bu il əvvəlki illərlə müqayisədə adi xidmətlərlə Həcc ziyarətinə gedənlər təxminən 1500, VİP xidmətlərlə gedənlər isə 1700 manat əlavə pul ödəməli olacaqlar.


photo TREND
Allahşükür Paşazadə

Doğrudur, ilk vaxtlarda QMİ bu bahalaşmanı devalvasiya və xaricdəki şirkətlərə ödəmələrlə əsaslandırmağa çalışdı. Yəni idarə ziyarətin təşkili ilə bağlı xarici şirkətlərə ödənişi dollarla həyata keçirdiyi üçün qiymətləri qaldırmaq məcburiyyətində olduğunu əsaslandırmağa çalışdı. Ancaq Azərbaycanda Həcc qiymətlərinin digər ölkələrlə müqayisədə baha olduğu hər kəsə məlumdur. Bu mənada bahalığın "əsaslandırılması" çox adamı qane etmədi.

Ancaq indi məlum olur ki, bahalaşma daha ciddi fəsada səbəb olub. Aldığımız məlumata əsasən, bu il Həcc ziyarəti kvotası dolmayıb. Həcc ziyarətinin başlamasına 1 aydan bir qədər az vaxt qalmasına baxmayaraq, QMİ-nin kvotası hələ də dolmayıb. Hər kəsə aydındır ki, kvotanın dolmaması bahalaşma ilə bağlıdır. Çünki mətbuatdan da məlumdur ki, hər il yayın əvvəlində artıq kvota dolurdu, hətta ötən il QMİ müraciət edənlərin bir qisminin növbəti il ziyarətə göndəriləcəyini bəyan etmişdi. Hətta 2009-cu ildə məlum kvota azaldılmasından sonra QMİ-yə 2 min yer verilsə də, sonrakı illərdə məhz müraciətlərin çoxluğu ucbatından kvota 3 minə, son iki ildə isə 3600 nəfərə və hətta daha artırılmışdı.

İndi isə vəziyyət dəyişib, ziyarətə 1 aydan bir qədər artıq vaxt qalmasına baxmayaraq yerlər tam dolmayıb. Görünən odur ki. devalvasiya ilə əhalinin gəlirlərinin aşağı düşməsi və QMİ-nin qiymətləri birdən-birə 35 faiz həddində qaldırması bir çox müsəlmanların ziyarət arzularının üstündən xətt çəkib. Yeri gəlmişkən, Azərbaycanda bir çox imkanlı adamlar Həcc ziyarətinə imkansız insanları göndərirlər. Belə görünür, bu cür aksiyalar da azalıb.

Əldə etdiyimiz məlumata görə, qiymətlərin bu qədər bahalaşması və yerlərin boş qalması QMİ-də də narahatlıq yaradıb, qiymətlərin bu qədər artırılmasının ziyanlı addım olduğunu düşünürlər.

Maraqlıdır ki, bu il Şeyx Həcc ziyarəti ilə bağlı bir sıra müsbət addımlar atıb. Onlardan biri də hər il sual doğuran və "Yeni Müsavat" qəzetinin bir neçə dəfə işıqlandırdığı problem zəvvarların miqatda ehram bağlaması məsələsidir. Aldığımız məlumata görə, bu il Həcc ziyarətinin qrafiki dəyişib və zəvvarlar ilk olaraq Mədinə şəhərinə gedəcək, orda müqəddəs məkanları, o cümlədən Peyğəmbər (s.ə.s) məscidini ziyarət etdikdən sonra Məkkəyə - Həcc ziyarətinə yola düşəcəklər. Bu zaman miqat yol üstündə olduğundan zəvvarlar ehramı ənənəyə uyğun şəkildə bağlaya biləcəklər. Həcc ziyarəti bitdikdən sonra zəvvarlar ötən illərdə olduğu kimi Mədinəyə qayıtmayacaq, Məkkədən Ciddə şəhərinə gəlib oradan təyyarə ilə vətənə qayıdacaqlar. Qeyd edək ki, Azərbaycanda 2008-2010-cu illərdə bu cür ziyarət təşkili olub. Eyni zamanda İran və Türkiyənin bir sıra Həcc qrupları məhz bu marşrutdan istifadə edir.

❑ **KƏNAN**

YENİ MÜSAVAT
N 164 (6192) 30 iyul 2015

**Azərbaycan Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi əməkdaşları Azərbaycan Müdafiə Nazirliyinin Baş hərbi müfəttişliyinin üç yüksək vəzifəli əməkdaşını həbs ediblər. Haqqin.az bu barədə etibarlı mənbələrə istinadən məlumat yayıb. Daha sonra Səbayel Rayon Məhkəməsi onların barəsində həbs-qətimkan tədbiri tətbiq edib. Baş hərbi müfəttişliyin əməkdaşları rüşvətxorluqda ittiham edilirlər.**

# 3 yüksək çinli zabit rüşvətxorluğa görə həbs olundu

## Müdafiə Nazirliyi: "Toplanmış materiallar qanunamüvafiq tədbir görülməsi üçün Azərbaycan Respublikasının Baş Prokurorluğuna göndərilib"

Haqqin.az redaksiyasına saxlanılan yüksək vəzifəli zabitlərin adları məlumdur, amma dəfələrlə edilən müraciətlərə baxmayaraq Baş Prokurorluq saxlanılan şəxslərin adını açıqlamayıb.

Xəbərdə deyilir ki, həbslər barədə dövlət başçısı İlham Əliyevə məlumat verilib. Yüksək vəzifəli şəxslərin cəlb edildiyi korrupsiya qalmaqalının araşdırılması ölkə prezidentinin şəxsi sərəncamı üzrə aparılır.

Xatırladaq ki, Azərbaycan Silahlı Qüvvələrinin bütün bölmələrində müfəttişlik fəaliyyəti göstərən Hərbi müfəttişliyin rəisi, Qaradağ rayonunun sabiq hərbi komissarı Milli Qəhrəman Fəxrəddin Cəbrayılovdur. O, bu vəzifəyə yeni müdafiə naziri Zakir Həsənovun dövründə təyin edilib. Lakin ölkə və Müdafiə Nazirliyinin rəhbərliyinin gözləntilərinin əksinə olaraq, hərbi idarənin əsas bölmələrindən birində neqativ halların qarşısı alınmayıb, əksinə, belə hallar daha da geniş miqyas alıb.

**Hərbi ekspert Üzeyir Cəfərov bildirdi ki, adıçəkilən şəxslərin saxlanması ilə bağlı onda çoxdan məlumat var idi:** "Bu məlumatı mən Baş Prokurorluqdakı dostlardan almışdm. Əslinə qalsa, bu məlumatın kökü bir neçə ay bundan qabağa gedir. Sağ olsun MTN və onun Hərbi Əks-Kəşfiyyat İdarəsi. Dediyim kimi, bu barədə məlumat var idi və onun aşkarlanması gec-tez baş verməliydi. Çox təəssüflər olsun ki, Baş hərbi müfəttişliyin əməkdaşları tərəfindən belə hərəkətlərə yol verilib. Çünki bu qurum ordunun görən gözü, eşidən qulağı olmalıydı. Çox təəssüflər olsun ki, bu müfəttişliyin əvvəlki rəhbəri general Məmməd Beydullayev olub, hansı ki, indi Müdafiə Nazirliyi sistemində xidmət keçir. Mərhum Heydər Əliyev bu adamı ordudan uzaqlaşdırmışdı. Çox təəssüflər olsun ki, həm Səfər Əbiyevin, həm də Zakir Həsənovun dönəmində yenidən orduda oldu. Bu kadrların da əksəriyyəti Beydullayevin həmin əməllərinin bir növ davamçılarıdır. Baxmayaraq ki, müfəttişliyin rəisi Fəxrəddin Cəbrayılov hörmətli şəxsdir, Azərbaycanın Milli Qəhrəmanıdır və Zakir Həsənov tərəfindən bu vəzifəyə layiq görülüb". **Ü.Cəfərov güman edir ki, həbs olunan əməkdaşlar rəhbərliyin xəbəri olmadan müəyyən əməlləri həyata keçirib:** "Fəxrəddin Cəbrayılovun burada birbaşa rolu yoxdur, amma onun yeganə məsuliyyəti odur ki, tabeliyində olan şəxslər yaramaz əməllərlə məşğul olublar. Burada rüşvət və korrupsiya hallarından söhbət gedir. İndi Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi bu məsələləri araşdırır. Mən dəfələrlə qeyd etmişdim, yenə deyirəm ki, təəssüflər olsun ki, bu gün Müdafiə Nazirliyi sistemində bəzi şəxslər var ki, çirkin əməllərdən əl çəkmirlər".




**Müdafiə Nazirliyinin mətbuat xidmətindən isə "Yeni Müsavat"ın sorğusuna cavab olaraq xəbəri təsdiqlədilər:**

"Müdafiə Nazirliyi Baş Hərbi İnspeksiyasının əməkdaşları haqqında kütləvi informasiya vasitələrində yayılan xəbərlərlə bağlı bildiririk ki, inspeksiyanın əməkdaşları hərbi xidmət vəzifələrinin icrası zamanı yol verdikləri ciddi qanun pozuntularına görə Müdafiə Nazirliyi rəhbərliyinin göstərişi əsasında müvafiq araşdırma aparılmış və toplanmış materiallar qanunamüvafiq tədbir görülməsi üçün Azərbaycan Respublikasının Baş Prokurorluğuna göndərilmişdir. Həmin materiallar əsasında Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən cinayət işi başlanılmış və hazırda istintaq aparılır.

Azərbaycan Respublikası Prezidenti, Ali Baş Komandanın qeyd etdiyi kimi, tutduğu vəzifədən, keçmiş xidmətlərindən asılı olmayaraq xidməti dövründə yol verdiyi qanun pozuntularına görə hər kəs qanun qarşısında məsuliyyət daşıyır".

❑ **Cavid TURAN**

# Mirzə Sakitdən sensasion müraciət

## "...O veriliş dayandırılsın"


Mirzə Sakit

**Tanınmış satirik şair, sabiq vicdan məhbusu Mirzə Sakit musavat.com-a bir müraciət yollayıb. Həmin müraciəti olduğu kimi təqdim edirik:**

"Azərbaycan ictimaiyyətinə və hüquq-mühafizə orqanlarının rəsmilərinə

**MÜRACİƏT**

Azərbaycan Konstitusiyasında göstərildiyi kimi, "Azərbaycan dövlətçiliyinin mənbəyi Azərbaycan Xalqıdır" maddəsini əsas tutaraq, ilk öncə Azərbaycan ictimaiyyətinə müraciət edirəm;

- Hörmətli azərbaycanlılar, son vaxtlar bizim qohumlarımızın kütləvi həbs olunmalarına görə insanlar mənə yazırlar, telefon edirlər və öz sayğılarını, münasibətlərini bildirirlər. Eyni zamanda bu həbslərin motivinin nə olması ilə maraqlanırlar... Mən də qəzet vasitəsilə həmin insanlara burdan yazıb bildirirəm ki, qohumlarımın həbsinin "Azərbaycan saatı" verilişi ilə bağlı olduğu deyilir. Əgər belədirsə də o zaman sizlərə bu veriliş və verilişin mahiyyəti haqda bir neçə kəlmə bildirmək istəyirəm. Əvvəla, bu verilişin yaradıcıları və aparıcıları Avropa ölkələrində mühacirətdə yaşayan insanlardır, bu insanları mübarizənin hansı formada daha effektiv və nailiyyətli olması qəti maraqlandırmır, adamların əsas məqsədlərindən biri ilk növbədə həmin verilişin layihəsi əsasında bir az maliyyə əldə etməkdən ibarətdir. Vətəndaş harda yaşamasından asılı olmayaraq, öz doğma vətənində baş verən neqativ hallara heç vaxt biganə qalmamalıdır; ölkəsindəki haqsızlıqlar haqda mütləq şəkildə öz sözünü deməlidir. Bunu Avropada yaşayan bir çox soydaşlarımız mütəmadi şəkildə və bəzən də etirazlarını beynəlxalq aləmə çatdırmaqla həyata keçirirlər...

...Dünən "Yeni Müsavat" qəzetində mənim kürəkənimin bir müsahibəsi dərc olundu. Həmin müsahibədə kürəkənim öz qardaşının və o biri qohumlarının həbsi ilə bağlı öz fikirlərini bildirib. Müsahibədə o, "Azərbaycan saatı"nı yox, "Azərbaycan saatı" verilişini aparanları ittiham edib. Bu gün isə Cəbhə qaragüruhçuları qarğa-quzğun kimi üstümüzə tökülüşdülər. Bu qarğa-quzğunlar israrla bildirirlər ki, həmin müsahibəni kürəkənim yox, məhz mən vermişəm, guya mənim dəsti-xəttimdir.

Məni tanıyanlar gözəl bilirlər ki, mən heç kimin adından söz yazmıram, yazdıqlarımı da istər hakimiyyətə qarşı, istər müxalifətə qarşı öz adımla yazıram... Nə sifariş qəbul edirəm, nə də sifariş verirəm... Həmin adamların əksəriyyəti sifarişlə hərəkət etdiklərinə görə, sifarişlə yazdıqlarına görə elə düşünürlər ki, hamı sifarişlə yazır. Bəzi əbləh adamların da mənim haqqımda sosial şəbəkələrdə sərsəmləmələrinə qətiyyən əhəmiyyət vermirəm. Onların nə düşünməsi də məni qətiyyən maraqlandırmır, çünki əbləhlərin düşüncələri də əbləh düşüncə olacaq...

...O müsahibənin altında bir sürü *(mən belələrinə sürü deyirəm)* insanlar tökülüşüblər kürəkənimi orda təhqir edirlər, halbuki adam öz fikrini deyib və düz də deyib...

İndi də qayıdaq yenə o həbslərə... Tam məsuliyyətimlə deyirəm, həbs olunan insanlar mənim əməlimə *(baxmayaraq ki, yaxşı və pis əməlimə görə)* həbs olunsaydılar, mən birinci növbədə onların həbsdən azad olunması istiqamətində çalışardım. Nəinki onların həbs olunmalarını eynimə də almamaq... Bir halda ki, sən hakimiyyətə deyirsən, qeyri-qanuni hərəkət edirsən, yürütdüyün siyasət anti-demokratikdir, deməli, sən sonradan həmin hakimiyyətdən ədalətmi gözləməlisən... Onda belə çıxır ki, sən qohumlarının yenə də davamlı həbs olunmasına şərait yaratmaq üçün həmin o maliyyə mənbəyi olan verilişini daha da artırmalısan...

Və başqa bir məsələni diqqətinizə çatdırım. Hər bir vətəndaşın müstəqil şəkildə istənilən mətbu orqana müsahibə vermək hüququ var. Həbs olunan insanlar haqda mənim də qohum olaraq söz demək, münasibət bildirmək haqqım var. Çox istərdim ki, bu həbslər haqda fikirlərimi özünü demokratik, müstəqil qəzet hesab edən "Azadlıq" qəzetində dərc etdirəm. Amma təəssüflər olsun ki, o qəzet bir mülkədarın əmlakı olduğu üçün orada mənim nəinki yazım, hətta adım belə yazıla bilməz. O zaman mən neyləməliyəm. "Yeni Müsavat" qəzetində yazımı dərc etdirən kimi deyirlər ki, sən İlham Əliyevdən medal almış adamın qəzetində yazı dərc etdirirsən...

Ay yoldaşlar, bəs sizin "Azadlıq" qəzeti də bir zamanlar İlham Əliyevdən iki dəfə deputatlıq mandatı almış adamın qəzeti deyilmi?..

Amma buna baxmayaraq, mən qəzetçiliyin siyasiləşməsinin əleyhinəyəm. Özüm də hər zaman tənqidlər yazıram, amma mənim yazdıqlarım siyasi mövzulara gətirib çıxarırsa da, bu mənim siyasiləşməyimin yox, vətəndaş mövqeyimin məhsuludur...

...Qayıdaq yenə qohumların həbsinə. Kimlərin nə dəməsindən, kimlərin nə düşünməsindən asılı olmayaraq, mən hesab edirəm ki, qohumlarımın həbsdən azad olunması üçün o veriliş dərhal dayandırılmalıdır. Yuxarıda qeyd etdiyim kimi, dövlətçiliyin mənbəyi Xalqdır və mənim qohumlarım da həmin xalqın nümayəndələridir. Deməli, insan faktoru hər şeydən üstündür. "Mübarizə bu gün də var, yarın da"... Bu sayaq ağılsız və lovğa uşaq ədasıyla aparılan mübarizədən heç kim xeyir görməz, o xeyri, dediyim kimi, ancaq o verilişin maliyyəsini güdənlər görərlər... ...Qəzetiniz vasitəsilə də qohumlarımın həbs olunmasıyla bağlı hüquq-mühafizə orqanlarına bildirirəm ki, mənim qohumlarımın həbs olunmalarının əsl səbəbi sizə aydındır. Hər halda, qanunun aliliyini və insanlıq hisslərini əsas götürərək qohumlarımın işinə ədalətlə baxılmasını istərdim. Mən özüm də bu hakimiyyətə qarşı sərt tənqidlər yazmışam və yenə də yazmaqda davam edirəm, hətta həbsxanada ola-ola da həmin yazılarımı daha da sərt formada yazıb qəzetlərdə dərc etdirirdim. Həbs olunan o insanlar heç vaxt siyasətə meylli olmayıblar, onlar həyatlarında heç bir qanunsuz hərəkətlərə yol verməyiblər, ömürlərini halal zəhmətləri ilə yaşayan adamlardı. Hər zaman qeyri-qanuni işlərdən uzaq dayanıblar. Öz külfətlərinin rahat yaşaması üçün fəhləliklə məşğul olurlar.. Bütün bunları nəzərə almanızı arzu edirəm..."

❑ **Mirzə SAKİT, Belçika**

YENİ MÜSAVAT
N 164 (6192) 30 iyul 2015

# Azərbaycanın ÜTT dirənişi - kim nədən narazıdır?

## Ekspertlər bildirirlər ki, ÜTT-yə üzv olmaq Azərbaycan iqtisadiyyatı üçün neftin qiymətinin aşağı düşməsi fonunda daha vacibdir...

**Bir neçə gün əvvəl Qazaxıstanın Ümumdünya Ticarət Təşkilatına (ÜTT) qəbul olunması Azərbaycanla bağlı məsələni yenidən gündəmə gətirib. Qazaxıstan prezidenti Nursultan Nazarbayevin müraciətində deyilir ki, “Bizim ticarətimizin 90 faizi ÜTT-yə üzv dövlətlərin payına düşür. Ona görə də müvafiq qərar bizim üçün çox vacibdir. Qazaxıstan həm xarici, həm də yerli investorlar üçün cəlbedici olur.**

Biz yeni məhsullar və iş yerləri yaratmaq üçün imkan əldə edirik”. Qazaxıstan ÜTT-nin 162-ci üzvü olacaq. “Dünyanın bütün iri iqtisadçıları Qazaxıstanı beynəlxalq hüquq normalarına uyğun ticarət siyasəti aparan əlverişli investisiya imkanına malik ölkə kimi tanıyıblar”, -deyə sənəddə qeyd olunub. Qeyd edək ki, Qazaxıstan ÜTT-yə üzv olmaq üçün 1996-cı il yanvarın 29-da ərizə verib.

Yerli ekspertlər isə bildirirlər ki, Azərbaycanın bu quruma nə vaxt üzv olacağı bəlli deyil. Yəni hökumət üzvlüyün yaxın illərdə mümkün olacağına o qədər də inanmır. Həmçinin qeyd edilir ki, Azərbaycan ÜTT-yə üzvlüyünü gecikdirməklə çox böyük risk altına girir. Gecikmə ölkəni gələcəkdə əsassız tələblərlə üz-üz qoya bilər. Ancaq ortalıqda siyasi iradə olsa, Azərbaycanın qısa zamanda təşkilata üzv olması mümkündür.

**Ekspert Vüqar Bayramovun sözlərinə görə, digər MDB ölkələrinin, Rusiya və Qazaxıstanın da ÜTT-yə üzv olması Azərbaycanın üzvlük məsələsini daha da aktuallaşdırır:** “Bu, yalnız iqtisadi baxımdan deyil, eyni zamanda psixoloji baxımdan da Azərbaycanın ÜTT-yə üzv olmasını sürətləndirə bilər. Baxmayaraq ki, Azərbaycan hələlik üzv olmaq niyyətində olmadığını müəyyən edib. Buna rəğmən, güman olunur ki, MDB ölkələrinin Ümumdünya Ticarət Təşkilatına üzv olması Azərbaycanın bu qurumla danışıqlarının sürətlənməsinə gətirib çıxara bilər. Bu, birmənalı şəkildə həm də ona görə vacibdir ki, Azərbaycan üçün daxili bazarda rəqabətin güclənməsi, eyni zamanda ixracatın artırılması baxımından kifayət qədər müsbət təsirlərə malik olacaq. Azərbaycan iqtisadiyyatının MDB üzvlüyünə hazır olması olduqca vacibdir. Yalnız müsbət deyil, müəyyən neqativ də təsirləri olacaq. Məsələn, aqrar sektorda və daxili bazarda rəqabətin qorunması və xarici kapitalın ölkəyə daxil olması səbəbindən yerli iş adamlarının rəqabət qabiliyyətinin aşağı düşməsi ehtimalı var. Və bəzi kiçik və orta müəssisələrin müflis olması kimi müəyyən risklər var. Amma bu risklərə rəğmən, ölkənin ÜTT-yə üzvlüyü olduqca vacibdir. Hazırda Azərbaycanla ÜTT arasında aparılan danışıqlarda daha çox problem doğuran məsələlər Azərbaycanın quruma inkişaf etməkdə olan ölkə kimi daxil olmaq istəməsidir. Çünki bu zaman güzəştlər olacaq. Qurumla danışıqlar xeyli müddətdir, 1997-ci ildən davam edir. Bu, əslində göstərir ki, bu müddətdə Azərbaycanla ÜTT arasında standartlarla bağlı 80 faizə yaxın məsələlər razılaşdırılıb. O baxımdan, Azərbaycan qərar verərsə, bu halda növbəti bir il ərzində üzv olması realdır. ÜTT-yə üzv olmaq Azərbaycan iqtisadiyyatı üçün neftin qiymətinin aşağı düşməsi fonunda daha vacibdir. Bu baxımdan, danışıqların sürətlənəcəyini güman edirəm”.

**Ekspert Natiq Cəfərli isə bildirib ki, Azərbaycan ÜTT ilə danışıqlara Gürcüstan, Ermənistan və Rusiya ilə birlikdə başlamışdı:** “Qazaxıstan hətta bizdən 7-8 il sonra danışıqlara başlayıb, bu gün artıq üzv olub. Gürcüstanla Ermənistan 2004-cü ildə üzv olublar. Rusiya isə 2013-cü ildə üzvlüyünü rəsmiləşdirdi. Regionda demək olar ki, bizdən başqa ÜTT-yə üzv olmayan ölkə qalmayıb. Hətta İran da müraciət etdi. Azərbaycan hökuməti 1997-ci ildən bəri ÜTT ilə danışıqlar aparır. Amma bütün ölkələr üzv olmaq üçün danışıqlar apardığı təqdirdə, Azərbaycan hökuməti sanki üzv olmamaq üçün danışıqlar aparır. Yəni bütün maneələr Azərbaycan hökuməti tərəfindən yaradılır. Gürcüstana, Ermənistana üzvlük təklif olunanda, onlarla birlikdə Azərbaycana da təklif olunmuşdu. Amma Azərbaycan imtina etdi. İmtina edərkən Azərbaycan hökumətinin bircə gətirdiyi arqument var ki, Azərbaycan daxili bazarını qorumaq istəyir. Daxili bazarını qorumaq üçün də quruma üzv olmur. Əslində çox bəsit və yalan bəhanədir. Çünki daxili bazarı qorumaq istəyən ölkə yerli istehsalı gücləndirərdi. Son illərdə biz əksini görürük. Yerli istehsalın zəifləməsi və yerli istehsala aid olan sahələrdə gerilələmələr görürük. İxracatda belə gerilələmələr var. Buna görə də gətirilən arqument heç də yerində işlədilən arqument deyil. İkinci səbəb kimi deyirdilər ki, kənd təsərrüfatı sahəsini qorumaq üçün belə edirlər. Əgər ÜTT-yə üzv olsaq, xarici mallar ölkə bazarına daxil olacaq, yerli fermerlərin öz işlərində əngəllər törədəcək, onlara maneçilik törədəcək. Bunların, gətirilən bəhanələrin heç biri doğru -dürüst məsələ deyil. Azərbaycanın ÜTT-yə üzv olmamasının yeganə səbəbi odur ki, oraya üzvlük gömrükdə və vergidə yeni oyun qaydalarının, beynəlxalq standartlara uyğun qaydaların götürülməsinə xidmət etməlidir. Azərbaycan Beynəlxalq Ticarət Arbitrajının yuridiksiyasını qəbul edir. Gömrükdə və vergidə istədiyi qaydaları tez-tez dəyişərək, istədiyi inhisarçı qaydalar gətirməkdən məhrum olacaq. Ona görə də Azərbaycan hökumətində iri çaplı məmurlar bu işi sapotaj edirlər ki, Azərbaycan ÜTT-yə üzv olmasın. Çünki onların birbaşa şəxsi maraqlarına toxunur, ticari maraqlarına toxunur. Əgər ölkə ÜTT-yə üzv olsa, əsasən də istehlakçılar üçün ciddi irəliləyiş olacaq, ciddi üstünlüklər olacaq. Azərbaycan bazarı keyfiyyətli və ucuz mallara açıq olacaq. Azərbaycan gömrüyündə şəffaflıq artacaq. Azərbaycanın yerli biznesmenləri də xaricə mal ixrac edərkən daha şəffaf qaydalardan istifadə edəcəklər”.

**Ekspert qeyd edib ki, problemlər də var:** “Azərbaycan iqtisadiyyatı o qədər zəifdir ki, bu da hökumətin günahıdır. 20 ildə rəqabətli iqtisadi model qura bilməyib. Azərbaycan iqtisadiyyatı o qədər zəifdir ki, xarici rəqabətdə davam gətirməyə bilər. Amma bunun üçün də ÜTT-nin müəyyən rıçaqları var. Üzv olarkən, müəyyən güzəştlər qazana bilər. Hökumətin fikri olarsa, çoxdan ÜTT-yə üzv olardı. Bununla bağlı heç bir əngəl yoxdur. Yeganə əngəl indiki sistemi ayaqda saxlamaq, inhisarçı və korrupsiya modelini, əsasən də gömrük sistemini ayaqda saxlamağa xidmət edir”.

❑ **Röya RƏFİYEVA**

# Qanun üzərində bir antikorrupsiyon ekspertiza



**Vətəndaş Cəmiyyəti uğrunda Qadınlar Alyansı iki tanış xətti birləşdirməklə yeni "düyün vurub". Qanunların antikorrupsiyon ekspertizası nə hüquqda, nə vətəndaş toplumu praktikasında yenilik deyil. Eləcə də rəmzi məhkəmələr "janrında" rollar oyunu yeni deyil, nə hüquqda, nə vətəndaş cəmiyyətində.**

Yenilik qanunvericilik üstündə məhkəmə qurmaqdır. Qadınlar Alyansı bu yenilik əsasında Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının yardımı ilə proqram gerçəkləşdirir. Adı belədir: “Azərbaycan qanunları Şərti Antikorrupsiya Məhkəməsində” (vətəndaş ekspertizası). Bugünlərdə Qadınlar Alyansı həmin layihə çərçivəsində "İlham Səfər Azərbaycan qanunvericiliyində yerli qanunqüvvəli aktların korrupsiya hallarına qarşı" mövzusunda ikinci rəmzi məhkəmə keçirmişdir.

İddiaçı ilə cavabdehin (*Şahbaz Xuduoğlunun*) çəkişməsindən aydın oldu ki, bizim qanunvericilikdə ən ciddi korrupsiyatörədici hallar qanunlarda yox, qanunaltı, yəni icra təşkilatlarından qanunlara qoşulan sənədlərdədir. Qanunvericilik icazə verir ki, uyğun nazirliklər, bələdiyyə orqanları, icra orqanları öz sərəncamları, əsasnamələri və başqa qaydaları ilə qanunun yerinə yetirilməsini konkretləşdirsin, düzənə salsın. Bax alyansın məhkəməsindəki çəkişmələrdən aydın oldu ki, qanunla bağlı korrupsiyatörədici hallar çox vaxt bu müstəvidə özünə yer alır. İcra orqanı hətta korrupsiyanı məqsəd qoymayanda belə bilmədən elə qərarlar qəbul edir ki, onun işini asanlaşdırsın. Bu təbii istək isə təşkilati eqoizmə görə çox tez-tez korrupsiyayönümlü qaydalara gətirib çıxarır. Onun üçün də təkcə qanunların korrupsiya baxımından ekspertizasını aparmaq düz deyil. Heç olmaza ən əsas, vətəndaşların taleyinə təsir edən qanunlarla bağlı nazirliklərdə çıxarılan aktlar, fərmanlar, nizamnamə və əsasnamələr də antikorrupsiya testindən keçirilməlidir. Qadınlar Alyansının məhkəməsində səsləndirildi ki, bu işi müəyyən dərəcədə Milli Məclisin qanunların antikorrupsiyon ekspertizası üzrə şöbəsi apara bilərdi. Ancaq onun saytından görünür ki, bu ekspertiza aşağı səviyyədədir.

İddiaçı təklif etdi ki, ciddi aktlarla bağlı nazirliklər və başqa icra orqanları ictimai dinləmələr düzənləyə bilər ki, məhkəmə tipli çəkişmələrdən aydın etsin, həmin sənədlərdə korrupsiya doğuracaq hansı məqamlar var? Bu ictimai dinləmələrin İnternet TV ilə göstərilməsi isə tədbirin faydasını daha da artırardı.

Rəmzi Məhkəmədə sədr prof.Qulu Məhərrəmli və iddiaçı İlham Səfərov hüquqçu deyildilər. Yalnız Şahbaz Xuduoğlunun bu ixtisası vardı. Ancaq vətəndaş toplumunun bir vəzifəsi hüquqi məsələlər üzrə debatlara qeyri-hüquqçuları cəlb etməkdir. Düşünürəm ki, bu deyilən hal Qadınlar Alyansının məhkəməsində baş tutdu.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



YENİ MÜSAVAT
N 164 (6192) 30 iyul 2015

# Rusiya Sterliqovu Bakıya təhvil verəcəkmi?

**İşğal altındakı Şuşa şəhərində qanunsuz olaraq məskunlaşan və bununla da Azərbaycan qanunlarını pozan rusiyalı milyarder German Sterliqovun növbəti dəfə sərsəmləməsinə, Cıdır düzündə fotolar çəkdirib yaymasına, bura ilə bağlı planlarına Azərbaycanın müvafiq qurumlarından növbəti reaksiyalar verilib.**

## Baş Prokurorluğun barəsində cinayət işi qaldırdığı rus milyarder İnterpol xətti ilə axtarışdadır; ekspert Moskvaya yox, beynəlxalq təşkilatlara ümid etməyi zəruri sayır

Rəsmi məlumata görə, Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsində "German Sterliqov Şirkətlər Qrupu"nun Direktorlar Şurasının rəhbəri German Sterliqov və digərlərinin Azərbaycanın dövlət sərhədini qanunsuz keçməsi ilə bağlı istintaq davam etdirilir.

İttiham üçün kifayət qədər sübutlar toplanıldığından iyulun 28-də Nəsimi Rayon Məhkəməsində German Sterliqov barəsində həbs-qətimkan tədbiri seçilməsi və beynəlxalq axtarışa verilməsi barədə qərar qəbul edilib.

Hazırda onun tutulub istintaqa cəlb edilməsi üçün İnterpolun Azərbaycan Milli Mərkəzi Bürosu tərəfindən zəruri istintaq və əməliyyat-axtarış tədbirləri keçirilir.

Qeyd edək ki, rusiyalı iş adamı German Sterligov iyulun 4-də qanunsuz olaraq Azərbaycanın separatçı bölgəsi Dağlıq Qarabağa gedib və 13 iyulda Şuşada mətbuat konfransı keçirib, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyünün əleyhinə çıxış edib.

O, kənd təsərrüfatı ilə məşğul olmaq niyyətində olduğunu bildirib. Eyni zamanda Qarabağın müstəqilliyini dəstəklədiyi və Azərbaycanın fikrinin onu maraqlandırmadığı barədə bəyanat səsləndirib. German Sterliqov Rusiyadakı ilk əmtəə birjasının təsisçilərindən biridir.

Məlumata görə, onun adı millətçilərin birləşdiyi BORN təşkilatına qarşı cinayət işində hallanır.

Moskva məhkəməsi iyulun 24-də bu təşkilatın lideri İlya Goryaçyevi ömürlük həbs cəzasına məhkum edib.

33 yaşlı Goryaçyev 2010-cu ildə hakim Eduard Çuvaşov, 2009-cu ildə rusiyalı antifaşist fəal Stanislav Markelov, tacik və azərbaycanlı miqrantın qətlində təqsirli bilinib.

Ən təəccüblüsü isə Rusiya hüquq-mühafizə orqanlarının adı cinayət işində hallanan, üstəlik, Azərbaycan-Rusiya münasibətlərinə xələl gətirən hərəkətlərinə hüquqi qiymət verməyə tələsmir. Üstəlik, rus motosikletçilərinin işğal olunmuş ərazilərə gəlməsi xəbəri də yayılıb. Azərbaycanın Rusiya Federasiyasındakı səfirliyi vasitəsilə Rusiyadan olan bir qrup motoskiletçinin Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazilərinə səfəri məsələsi araşdırılır. **Azərbaycan XİN-in mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev** deyib ki, işğal olunmuş Azərbaycan ərazilərinə qanunsuz səfər "Azərbaycan Respublikasının dövlət sərhədi haqqında" Qanunun və Miqrasiya Məcəlləsinin pozulmasıdır: "Bu kimi əməllər, eləcə də Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyü və suverenliyinə, Ermənistanın işğalı nəticəsində qanlı etnik təmizləməyə məruz qalmış azərbaycanlı qaçqın və məcburi köçkünlərə qarşı hörmətsizlikdir. Ermənistan və erməni lobbisinin təhriki və təsiri altında işğal olunmuş ərazilərə qanunsuz səfər edərək Azərbaycan xalqına qarşı törədilmiş işğal və qanlı etnik təmizləmənin təşviqinə xidmət edən bu kimi şəxslər daşıdıqları siyasi, hüquqi və mənəvi məsuliyyəti dərk etməlidirlər". Lakin yenə Rusiyadan rəsmi reaksiya yoxdur.


German Sterliqov

Maraqlıdır, Azərbaycanın müvafiq qurumları rusiyalı həmkarları ilə Sterliqov məsələsi ətrafında müzakirələr aparırmı və Moskva Azərbaycanda barəsində cinayət işi qaldırılan vətəndaşını Bakıya təhvil verərmi? Yeri gəlmişkən, Gümrüdə bir ailəni qətlə yetirən rus hərbçisi Permyakov məhz erməni xalqının davamlı tələblərindən sonra İrəvana təhvil verildi və məhkəmə prosesi də Ermənistanda keçiriləcək. Düzdür, hazırda Sterliqov Rusiyanın hüdudlarından kənardadır. Lakin bu da faktdır ki, o, iyulun ortalarında nümayişkaranə şəkildə Moskvaya getdi və daha sonra heç bir müqavimətlə üzləşmədən Qarabağa döndü. Deməli, Sterliqovun Şuşada məskunlaşmasında Rusiyadakı müəyyən dairələrin də marağı var. Əks təqdirdə, Rusiya hakimiyyəti bir düyməni basmaqla onu elə ermənilərin əli ilə Qarabağdan çıxara, yaxud məsuliyyətə cəlb edə bilər.

Azərbaycanın Baş Prokurorluğundan sorğumuza cavab olaraq bildirildi ki, rəsmi açıqlamadan kənar hər hansı şərh verilməyəcək.

**Politoloq Arzu Nağıyev açıqlamasında Rusiyanın Azərbaycanın maraqlarını nəzərə alacağını düşünmədiyini vurğuladı:** "Məlumdur ki, qanunsuz olaraq Azərbaycanın işğal olunmuş ərazilərinə gəlmiş Rusiya vətəndaşı German Sterliqovun hərəkətlərində Azərbaycan Cinayət Məcəlləsinin bir sıra maddələri ilə - dövlət əleyhinə yönələn açıq çağırışlar və dövlət sərhədini qanunsuz olaraq keçmə əməllərinin tərkib ələmətləri olduğundan fakta görə 281.2 *(dövlət əleyhinə yönələn açıq çağırışlar)* və 318.2-ci *(Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə)* maddələri ilə cinayət işi başlanıb. Bundan başqa, ona qarşı Tel-Əvivdə yaşayan İsrail vətəndaşı Milana Qorenşteynin böhtanla bağlı müraciəti əsasında Rusiyada da cinayət işi qaldırılıb. Yəni fakt ondan ibarətdir ki, onun haqqında artıq cinayət işi açılıb. İşğal olunmuş ərazilərə qanunsuz gələn hər bir vətəndaşa belə iş qaldırmaq mümkündür və onların hər biri Azərbaycan qanunlarını pozmuş hesab olunurlar. Bundan başqa, konkret Sterliqova gələndə o erməni təcavüzünü dəstəklədiyini bəyan edib və qondarma qurumun tanınması üçün bir sıra çağırışlar da edib. Məhz buna görə də onun haqqında belə bir iş açılıb". **Onun Azərbaycana ekstradisiyasına gəldikdə isə A.Nağıyev dedi ki, bu, inandırıcı görünmür:** "Onun siyasi baxışlarını, Azərbaycan və Ermənistan arasındakı müharibə şəraitini nəzərə alsaq, bunun mümkünlüyü minimuma enir. Düşünürəm ki, ilkin ibtidai istintaq araşdırmalarından sonra onun haqqında hər hansı qərar qəbul edilərsə, Rusiya hüquq-mühafizə orqanları ilə razılıq əldə edilərsə, İnterpola axtarışa verilməlidir, bu yolla hansısa müsbət nəticəyə gəlmək olar. Bundan başqa, Rusiyanın Dağlıq Qarabağ münaqişəsi ilə bağlı yürütdüyü bugünkü siyasət də önəmli rol oynayır. Düşünürəm ki, Sterliqova ancaq beynəlxalq qurumlar vasitəsilə təsir etmək lazımdır".

# 2014-cü ilin 3 günlük müharibəsindən sonra ordumuz daha da güclənib

## **Üzeyir Cəfərov:** "Ermənilər artıq qorxularından yanvar ayında itirdikləri 100 minlik pilotsuz təyyarələrdən istifadə etmir"

**Ermənistan-Azərbaycan qoşunlarının təmas xəttində baş verən və "üç günlük müharibə" kimi təqdim olunan 2014-cü ilin yay döyüşlərinin ildönümü tamam olur. Xatırladaq ki, ötən ilin bu günlərində baş verən gərgin döyüşlərdə hər iki tərəf itkilər vermişdi. Lakin ondan sonrakı müddətdə Azərbaycan düşməndən bu itkilərin əvəzini bir neçə dəfə artıqlaması ilə çıxa bildi. Düşmənin döyüş helikopteri, dörd pilotsuz aparatı, onlarla canlı qüvvəsi məhv edildi.**

Sonuncu pilotsuz aparat iki gün öncə məhv edildi. Xatırladaq ki, bu, təmas xəttində vurulan ilk pilotsuz uçan aparat deyil. Belə ki, bu ayın əvvəllərində cəbhənin Füzuli və Tərtər rayonu istiqamətində ordumuzun mövqeləri üzərində uçuşlar həyata keçirməyə cəhd göstərən Ermənistan Silahlı Qüvvələrinə məxsus 3 ədəd DJI Inspire1 (Quadcopter) tipli pilotsuz uçan aparat (PUA) bölmələrimizin sayıqlığı nəticəsində vaxtında aşkar olunaraq açılan atəş nəticəsində məhv edilib. Yanvar ayında da cəbhənin Ağdam istiqamətində Silahlı Qüvvələrimizin mövqeləri üzərində erməni PUA-sı Hərbi Hava Qüvvələrimiz tərəfindən məhv edilmişdi. Ermənilərin pilotsuz uçan aparatının Azərbaycan Silahlı Qüvvələri tərəfindən vurulması Türkiyə mətbuatında da geniş şəkildə işıqlandırılmışdı.

**Hərbi ekspert Üzeyir Cəfərov "Yeni Müsavat"a bildirdi ki, ötən 1 il ərzində orduda inanılmaz işlər görülüb:** "Açığını desək, müdafiə naziri Zakir Həsənovun gördüyü işlər birmənalı olaraq cəmiyyət tərəfindən yaxşı qarşılanır və bu, müsbət haldır. Ermənilər artıq yanvar ayında itirdikləri 100 minlik pilotsuz təyyarələrdən istifadə etmirlər. Son vurduğumuz aparatlardan Rusiyada dövlət yol polisi istifadə edir. Çin istehsalı da olsa, Rusiyadan alınma aparatlardır. Azərbaycan dərhal məhv edəcək deyə, bahalılarından istifadə etmirlər. Həm də hərbi hava qüvvələrimizdə olan müasir avadanlıqlar belə təxribatları dərhal aşkarlayıb sıradan çıxartmağa qadirdir".


Üzeyir Cəfərov

**Ü.Cəfərov qeyd etdi ki, Rusiya Baş Kəşfiyyat İdarəsi rəisinin Ermənistana səfəri Azərbaycanın hərbi hazırlıqları ilə bağlı bəzi məlumatların İrəvana çatdırılması məqsədilə həyata keçirilib:** "Bunu birmənalı şəkildə deyirəm. Çünki Azərbaycan Silahlı Qüvvələrinin son təlimləri, döyüş hazırlıqları, müdafiə nazirinin ən ön xətlərə baş çəkməsi və digər məsələlər Rusiyanı da narahat etməyə başlayıb. Odur ki, Rusiya daha çox kəşfiyyat xarakterli məlumatları Ermənistan Müdafiə Nazirliyinə çatdırıb. Bu, onu deməyə imkan verir ki, son səfər Rusiyanın Ermənistana qarşı lazımi ölçü götürəcəyindən irəli gələn narahatlıqla əlaqədardır".

**Ü.Cəfərov deyir ki, əslinə qalsa, indiki proseslər Azərbaycanın xeyrinə cərəyan edir:** "Sadəcə olaraq, biz bu arada son dərəcə təmkinli, diqqətli və ayıq mövqe tutmalıyıq ki, bədxahlarımız situasiyadan öz faydaları üçün yararlana bilməsin".

Azərbaycan ordusunun uğurlu əməliyyatları, düşmənin təxribatlarının qarşısını alması, eyni zamanda döyüş əməliyyatlarının hər an başlana biləcəyi barədə məlumatlar Rusiya tərəfdən də narahatlıq doğurub. Elə Rusiya Baş Kəşfiyyat İdarəsinin rəhbəri İqor Serqunun İrəvana səfəri də bu narahatlığın məntiqi nəticəsi sayılır.

**Politoloq Rasim Musabəyov axar.az-a deyib ki, general İrəvana Rusiya rəhbərliyi tərəfindən göndərilib. Onun sözlərinə görə, Kremlin bu səfəri gerçəkləşdirməkdə məqsədi regionda hərbi balansın Azərbaycanın xeyrinə dəyişməsi ilə əlaqədar Ermənistan rəhbərliyinə öz ambisiyalarını cilovlamağı məsləhət görməsidir:** "Serqunun Ermənistana səfərində ilk məqsəd ordu kəşfiyyatına aid olan səlahiyyətlərlə bağlıdır. Ənənəvi olaraq hələ sovet dövründən bu yana Baş Kəşfiyyat İdarəsi və Xarici Kəşfiyyat Xidməti aktiv şəkildə öz agentləri və informasiya mənbələri kimi xaricdəki erməni diasporundan istifadə ediblər. Yaxın Şərqdəki gərgin situasiya ilə əlaqədar Suriya, Livan, Türkiyə və İrandakı ermənilərin Rusiya kəşfiyyatına xidməti Ermənistanın müxtəlif strukturları vasitəsilə koordinasiya edilməsi tələb olunur. Baş Kəşfiyyat İdarəsi üçün son illər ən vacib fəaliyyət istiqamətlərindən biri Gürcüstandır - çünki Qərb bu ölkədə güclənməkdə davam edir. Burada artıq NATO-nun hərbi infrastrukturu formalaşır. Batumi və Axalkalakidə uzun müddət sovet diviziyaları yerləşib, burada yaşayan ermənilərdən geniş agentura şəbəkəsinin qurulmasında istifadə edilib. Gürcüstan və Rusiya ilə diplomatik münasibətlərin olmaması bu agenturanın Ermənistandan idarə edilməsi və aktivləşdirilməsini zəruri edir. Şübhə etmirəm ki, Serqunun Ermənistana səfəri təkcə Azərbaycan yox, həm də Türkiyə, Gürcüstan və NATO tərəfindən diqqətə alınıb və analiz edilib. Serqunun səfərindən dərhal sonra Ermənistan müdafiə nazirinin birinci müavini David Tonoyan Gürcüstana öncədən planlaşdırılmamış səfər edib. Mətbuatdakı məlumata görə, tərəflər öz ərazilərindən bir-birinə qarşı düşmən fəaliyyətinin heç vaxt həyata keçirilməməsi ilə bağlı söz veriblər. Lakin bölgədə Rusiya, Türkiyə və ABŞ-ın aktivliyini nəzərə alsaq, buna inanmaq çətindir".

Azərbaycan Respublikasının Prezidentı yanında Kütləvı İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Cavid TURAN

YENİ MÜSAVAT
N 164 (6192) 30 iyul 2015

# Sabirabadda dəhşət: kişi arvadını, sonra özünü güllələdi



**Sabirabad sakini sərxoş vəziyyətdə arvadını və özünü güllələyib. Sabirabad Rayon Prokurorluğundan APA-nın Mil-Muğan bürosuna verilən məlumata görə, hadisə iyulun 28-də gecə saat 23.00 radələrində Sabirabad rayonunun Ulacalı kəndində qeydə alınıb.**

Kənd sakini, 1969-cu il təvəllüdlü Azad Canı oğlu Alışov yaşadığı evdə ailə-məişət münaqişəsi zəminində "İj" markalı ov tüfəngindən açdığı atəşlə həyat yoldaşı, 1983-cü il təvəllüdlü Alışova Sədaqət Valeh qızını ağır yaralayıb.

Sonra o, tüfəngdən atəş açaraq özünü ağır yaralayıb. Yaralılar əvvəlcə Sabirabad rayon mərkəzi xəstəxanasına, sonra isə vəziyyətləri ağır olduğundan 1 saylı Şəhər Kliniki Xəstəxanasına (Semaşko) çatdırılıblar.

Hadisə yerindən 1 ədəd "İj" markalı ov tüfəngi maddi sübut kimi götürülüb. Hadisənin hansı səbəbdən baş verməsi istintaq tərəfindən araşdırılır.

Faktla bağlı Sabirabad Rayon Prokurorluğunda cinayət işi açılıb, araşdırma aparılır.

**Elan**

**Şəxsi yük maşınımı girov qoymaq şərtilə "DAF"-(105) kub qara bazarda qiyməti 50.000 AZN bahadır. 1 il müddətinə aylıq (3-4)%-dan çox olmamaq şərtilə 25.000 AZN kreditə ehtiyacım vardır.**

**Yalnız Notorius qaydasında.**

**Əlaqə telefonu: (050) 387-47-57; (070) 387-47-57**

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda**, nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini

**d-r Vaiz Səmədov apara bilər:**

*** Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
*** Cinsi marağın** və **cinsi aktların** azalması
*** Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
*** Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
*** Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
*** Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
*** Cinsi vəzilərin-**xayaların **böyüməsi** və ya **kiçilməsi**
*** Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
*** Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
*** Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
*** Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
*** Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
*** Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
*** Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
*** Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
*** Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
*** Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

## Peterburqda insanları öldürüb parçalayan təqaüdçü qadın həbs edildi



**Rusiyanın şimal paytaxtında polis dəhşətli cinayətkarı yaxalayıb. APA TV-nin "İnterfax"a istinadən verdiyi məlumata görə, saxlanılan Tamara Samsonova adlı 68 yaşlı təqaüdçü qadın 10 amansız qətldə ittiham edilir. O, mənzilinə gətirdiyi tanışlarını zəhərlədikdən sonra onları hissələrə bölüb. Qadının sonuncu qurbanı onun evinə iyulun 23-də gəlib.**

Tamara Samsonovanın 79 yaşlı "rəfiqə"sinin meyitinin parçaları Sankt-Peterburqun Dmitrov küçəsindəki binalardan birinin yaxınlığından tapılıb.

Müstəntiqin sözlərinə görə, qadın tanışının bədənini mişar və bıçaqla doğradıqdan sonra hissələrini yaxınlıqdakı əraziyə atıb. Tamara Samsonova dindirilmə zamanı 2003-cü ildə törətdiyi qətl barədə danışıb. Qatil qadın bildirib ki, o zaman evində kirayədə yaşayan Norilsk şəhər sakinin aralarında yaranmış mübahisə zəminində öldürüb parçalayaraq küçəyə atıb.

Tamara Samsonova daha sonra ilk qətli 2000-ci ildə törətdiyini də xatırlayıb. Həmin qurban da onun evində kirayənişin olub.

Ümumilikdə təqaüdçü qadın 10 ölüm işində ittiham olunur.

## Sumqayıtda silsilə oğurluq edənlər yaxalandı

**Sumqayıtda silsilə oğurluq edən dörd nəfər saxlanılıb. Sumqayıt Şəhər Polis İdarəsi əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Zakir Nuriyevə, Məmmədrəsul Qurbanova məxsus mağazalardan, İlqar Əliyev və Müseyib Abışova məxsus evlərdən və Mahal Tağıyevə məxsus tibbi müəssisədən pul, qızıl və məişət əşyaları oğurlayan Sumqayıt şəhər sakinləri Anar Rzayev, Elvin Məmmədov, Mərdan Xankişiyev və Tural Əhmədov tutulublar.**

## Beyləqan sakini bacısını boğub öldürdü

**Azərbaycanın Beyləqan rayonunda qətl hadisəsi baş verib. APA-nın Daxili İşlər Nazirliyinin saytına istinadən verdiyi məlumata görə, iyulun 28-də Beyləqan rayonunun Örənqala qəsəbəsində qəsəbə sakini Əli Süleymanov ailə münaqişəsi zəminində bacısı Solmazı boğaraq öldürüb.**

Beyləqan Rayon Polis Şöbəsinin əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Ə.Həsənov tutulub.




**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks hələə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34



## "Penitensiar Xidmətin maşını gəlib olduğumuz maşını arxadan vurub"

**Ötən saylarımızdan birində "Lökbatanda məhkumları daşıyan maşın qəzaya düşdü" sərlövhəli yazı dərc etmişdik. Həmin yazıda Ədliyyə Nazirliyi Penitensiar Xidmətə məxsus olan, məhkumların daşınması üçün nəzərdə tutulan nəqliyyat vasitəsi ilə "Toyota" markalı avtomobilin toqquşmasından söhbət açılırdı. Redaksiyamıza daxil olan ilkin məlumatda bildirilirdi ki, olay məhkumlar məhkəməyə aparılarkən baş verib. Qəza zamanı sürücüdən başqa nəzarətçilər və 6 məhkum müxtəlif dərəcəli xəsarətlər alıblar.**

Qəza "Toyota" markalı avtomobilin yüksək sürətlə idarə olunması və yolun əks tərəfinə çıxması səbəbindən baş verib. Redaksiyamızla əlaqə saxlayan Emil Museyib oğlu Həsənov isə bildirib ki, qəza məhkumları daşıyan nəqliyyat vasitəsi sürücüsünün diqqətsizliyi üzündən baş verib: "Mən dayım oğlu Elxan Hacıyevin idarə etdiyi "Toyota" markalı maşınla Salyandan Bakıya gəlirdik. Lökbatan dairəsinə 500-600 metr qalmış yolun sağ tərəfində sarı zolağı keçib yolun torpaq hissəsində maşını saxlayıb gözləyirdik. Yoldaş vardı, ona zəng edib hansı yolla gəldiyini dəqiqləşdirirdik. Soruşurduq ki, Bakı dairəvi yolunun Yasamal tərəfindən və ya Xocahəsən yolu ilə gəlir. Elxan dayandığımız üçün maşının qəza işıqlarını yandırmışdı, amma təhlükəsizlik kəmərlərini açmamışdıq, mühərriki də söndürməmişdi. Çünki həmin yoldaşı gözləyirdik. Həmin vaxt Penitensiar Xidmətin maşını gəlib olduğumuz maşını arxadan vurub. Günah həmin maşının sürücüsündə olub".

**E.Həsənov deyir ki, qəza zamanı huşunu itirib. Özünə gələndə isə həkimləri başı üstündə görüb:** "Sonradan bildim ki, Elxanın başı yan "stoyka"ya dəyib və zədələnib. Kəllə-beyin travması alıb. Zərbədən maşında hər iki qabaq oturacaq sınmışdı. Bir lənkəranlı qəzanı görüb və saxlayıb bizə yardım edib. Özümə gələndə o, həkimlərə deyirdi ki, 20 dəqiqədir zəng eləmişəm, hardasız? Dayım oğlu Elxan qanaxmadan ölüb. Əgər həkimlər tez gəlsəydi, bəlkə də onu xilas etmək olardı. Onun 1 yaşında qızı, 7 yaşlı oğlu var".

**E.Həsənov deyir ki, qəza zamanı huşunu itirdiyindən digər nəqliyyat vasitəsində olan şəxsləri görməyib:** "Özümə gələndə isə artıq onlar hadisə yerində yox idi. Dustaqların xəsarət alıb-almadığını görmədim. Deyirlər ki, o maşının sürücüsü də xəsarət alıb".

Yada salaq ki, Daxili İşlər Nazirliyinin saytında yer alan məlumatda bildirilir ki, iyulun 25-də saat 17 radələrində Qaradağ rayonunun Lökbatan qəsəbəsində Bakı şəhər sakini Elxan Hacıyevin idarə etdiyi "Toyota" və Tofiq Xudabaxşiyevin idarə etdiyi "QAZ-3309" markalı avtomobillər toqquşub. Nəticədə hər iki sürücü xəstəxanaya yerləşdirilib, E.Hacıyev orada ölüb. Saytda məhkumları daşıyan "QAZ-3309" markalı avtomobildə məhkumların xəsarət alıb-almaması haqda məlumat verilmir.

Hazırda faktla bağlı Qaradağ Rayon Polis İdarəsinin İstintaq Şöbəsində araşdırma aparılır.

**E.MƏMMƏDƏLİYEV**



## Nabranda ana və qızı dənizdə boğuldu

**Xəzər dənizinin Xaçmaz rayonu sahilində iki nəfər dənizdə batıb. APA-nın məlumatına görə, hadisə Nabran istirahət zonasında qeydə alınıb. Qusar rayon sakinləri, 1963-cü il təvəllüdlü Osmanova Faizə Nurəddin qızı və onun qızı Osmanova Olya Nəriman qızı dənizdə boğularaq ölüb.**

Hər iki şəxsin meyiti tibbi müayinəən keçirilməsi üçün Xaçmaz Mərkəzi Rayon Xəstəxanasının morquna gətirilib.

Faktla bağlı araşdırmalar aparılır.

# Savabların savabı - kimsəsiz uşağa sahib çıxmaq...

## Azərbaycanda övladlığa uşaq götürmək istəyənlərin sayı artıb; ölkədə bu sahədə prosedurlar azyaşlıların marağına uyğun olaraq sərtləşdirilib; uşaq götürməyin şərtləri bu yazıda...

**Heydər Əliyev Fondunun vitse-prezidenti, ölkə prezidentinin qızı Leyla Əliyevanın valideyn himayəsindən məhrum olan qız uşağını övladlığa götürməsi ölkədə övladlığa uşaq götürmək məsələsini yenidən gündəmə gətirib. Bundan sonra xeyli sayda tanınmış şəxs də övladlığa uşaq götürmək istədiklərini bəyan ediblər.**



Qəlbində mərhəmət hissi olan insanlar daha yaxşı anlayır ki, ən yaxşı uşaq evi belə ailəni əvəz etmir. Bütün uşaqların ailə ortamında yaşamağa haqqı var. Buna görə də övladlığa uşaq götürmək bəlkə də savabların ən böyüyüdür.

**Son 2 ildə ölkədə övladlığa uşaq götürmək istəyənlərin sayı xeyli çoxalıb. Bu barədə Azərbaycan Uşaqlar Birliyinin sədri Kəmalə Ağazadə "Yeni Müsavat"a açıqlamasında bildirib:** "Bəzən insanlar elə güman edirlər ki, bizim təşkilatımızın nəzdində fəaliyyət göstərən Uşaq Sığınacağından uşaqları övladlığa götürmək mümkündür. Lakin belə deyil. Bizim fəaliyyətimiz əsasən ailə zorakılığına qarşı mübarizə və küçə uşaqları ilə işdir. Qanunla müəyyələşmiş formada bir çox hallarda uşaqları dövlət müəssisələrinə yerləşdirməli oluruq. 2013-cü ildə "Özgə uşaq olmur" layihəsində yaxından iştirak etdik. Məhz bundan sonra övladlığa uşaq götürmək üçün xeyli sayda müraciətlər oldu. Ötən il 60-a yaxın bu cür müraciət almışıq. Belə olan halda biz onları aidiyyəti orqanlara yöndələndirmişik. Bütün bunlar onu göstərir ki, artıq insanların qəlbində bir mərhəmət hissi yaranmağa başlayıb".

Məlumat üçün bildirək ki, üç aylıqdan 3 yaşına qədər övladlığa verilməsi mümkün olan uşaqların mərkəzləşmiş uçotu Səhiyyə Nazirliyi tərəfindən aparılır. 3 yaşdan 18 yaş arası uşaqların övladlığa verilməsi üçün mərkəzləşmiş uçot qeydiyyatı isə Təhsil Nazirliyi tərəfindən aparılır.

Ölkəmizdə övladlığa uşaq götürmək istəyən əcnəbilərin də sayı az deyil. Kiçik araşdırmamızdan məlum oldu ki, əcnəbilərə verilən uşaqlar əsasən qüsurlu uşaqlardır. Belə ki, dəfələrlə ailələrə təklif olunan, lakin qüsurlu olduğuna görə övladlığa götürülməkdən imtina edilən uşaqlar sonda əcnəbilərə verilir. Övladlığa uşaq götürmək istəyən əcnəbilərin demək olar ki, əksəriyyəti Rusiyada yaşayan azərbaycanlılardır. Ekspertlər bildirirlər ki, əcnəbilərə övladlığa götürülmə ilə bağlı Ailə, Qadın, Uşaq hüquqları üzrə Dövlət Komissiyası təyin olunduqdan sonra qaydalar xeyli ciddiləşib və sərtləşdikdən sonra statistikada kəskin azalma var.

Statistikaya əsasən deyə bilərik ki, övladlığa uşaq götürmək istəyən şəxslərin əksəriyyəti 5 yaşınadək qız uşaqlarına daha çox maraq göstərir.

### Övladlığa uşaq götürmək istəyən məşhurlar...

Böyükdən-kiçiyə hər kəsə məlumdur ki, Hollivudun məşhur simaları üçün övladlığa uşaq götürmək çox adi haldır. Məsələn, Bred Pitt və Ancelina Coli, Nikol Kidman və Tom Kruz, Evan Mak Qreqor və xanımı İv Mavrakis cütlükləri, Şeron Stoun, Madonna, Ketrin Heyql kimi məşhurlar bu günəcən müxtəlif irqlərdən olan uşaqları övladlığa götürüb.

Yerli məşhurlarımıza gəldikdə isə nədənsə bizimkilər bu məsələyə o qədər də isti yanaşmaq istəmir. Doğrudur, onların arasından Xoşqədəm Hidayətqızı və Doğuş cütlüyü fərqlənərək övladlığa uşaq götürmək istədiklərini desələr də, hələ ki bunu reallıqda həyata keçirməyiblər. Xalq artisti İlhamə Quliyeva da Zimbabvedən qaradərili bir qız uşağını övladlığa götürmək istədiyini açıqlasa da sonradan fikrini dəyişərək həmin uşağa yalnız uzaqdan-uzağa kömək istədiyini bildirmişdi.

Bəs görəsən, övladlığa uşaq götürmək üçün hansı proseslərdən keçmək lazımdır?

**"Hüquqi Dövlət" Araşdırmalar Mərkəzinin rəhbəri Müzəffər Baxış bu barədə bildirdi ki, övladlığa uşaq götürmək istəyən şəxs ilk növbədə ərizə ilə məhkəməyə müraciət etməlidir:** "Övladlığa götürmə yetkinlik yaşına çatmayanlar barəsində və yalnız onların mənafeyi naminə uşağın doğumu Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin qeydiyyat şöbələrində qeydə alındıqdan sonra yol verilir. Bir uşaq ər-arvaddan başqa iki şəxs tərəfindən övladlığa götürülə bilməz. Ər və yaxud arvad özünün nikahdan olmayan uşağını, yəni ər və ya arvadının uşağını övladlığa götürə bilər. Eyni zamanda aralarında nikah olmayan şəxslər birlikdə eyni uşağı övladlığa götürə bilməzlər. Övladlığa götürən şəxs nikahda deyilsə, onunla övladlığa götürülən uşağın yaş fərqi 16-dan az olmamalıdır. Məhkəmə tərəfindən üzürlü hesab edilən səbəb olduqda yaş fərqi qısaldıla bilər. Ögey ata-ana uşağı övladlığa götürəndə nəzərdə tutulan yaş fərqinin olması tələb edilmir. Ümumiyyətlə isə 18 yaşına çatmış uşaqlar övladlığa götürülə bilməz".

**Hüquqşünas bildirdi ki, əcnəbi şəxslər tərəfindən uşağın övladlığa götürülməsi Azərbaycan Respublikasının Ailə, Qadın və uşaq Problemləri üzrə Dövlət Komitəsinin razılığı əsasında aparılır:** "Əcnəbi və ya vətəndaşlığı olmayan şəxslər tərəfindən uşaqların övladlığa götürülməsinə, həmin uşaqların Azərbaycan Respublikası ərazisində daimi yaşayan Azərbaycan Respublikası vətəndaşlarının ailələrinə tərbiyə vermək mümkün olmadıqda və ya vətəndaşlığından və yaşayış yerindən asılı olmayaraq yaxın qohumları, yəni bacı-qardaşları, nənə-babaları, valideynlərinin bacı və qardaşları, onların övladları tərəfindən övladlığa götürülmədikdə icazə verilir. Azərbaycan Respublikası vətəndaşı olan uşaqların əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər tərəfindən övladlığa götürülməsinə Azərbaycan Respublikasının Ailə, Qadın və uşaq Problemləri üzrə Dövlət Komitəsinin razılığı əsasında yol verilir. Azərbaycan Respublikasının vətəndaşı olan uşağın Azərbaycan Respublikasının vətəndaşları tərəfindən övladlığa götürüldükdə isə yerli icra hakimiyyətlərinin qəyyumluq və himayə orqanlarının iştirakı ilə mülki prosessual qanunvericilikdə nəzərdə tutulan xüsusi icraat qaydasında baxılır. Övladlığa götürənlərin və övladlığa götürülən uşaqların hüquq və vəzifələri məhkəmənin uşağın övladlığa götürülməsinin müəyyən olunması barədə qətnamənin qanuni qüvvəyə mindiyi gündən yaranır. Övladlığa uşaq götürmək istəyən şəxsin psixologiyası, maddi durumu, yaşayış tərzi ciddi araşdırılır. Hər hansı şərtlər altında, hər hansı müddətə və ya nümayəndələr vasitəsi ilə övladlığa götürmək yolverilməzdir. Uşaq öldükdə övladlığa götürməyə yol verilmir".

**Hüquq müdafiəçisinin sözlərinə görə, bacı-qardaş müxtəlif şəxslər tərəfindən övladlığa götürülə bilməz:** "Uşağın mənafeyinə cavab verən hallar istisna olmaqla, qardaş və bacı müxtəlif şəxslər tərəfindən övladlığa götürülə bilməz, yəni bu yolverilməzdir. Valideynləri olan uşaqlar isə müəyyən hallar istisna olmaqla, yalnız valideynlərinin razılığı ilə övladlığa götürülə bilər. Yəni valideynlər valideynlik hüquqlarından məhrum ediliblərsə və bundan 1 il müddət keçibsə və ya qanunla müəyyən olunmuş qaydada fəaliyyət qabiliyyəti olmayan, yaxud xəbərsiz itkin düşmüş hesab ediliblərsə, övladlığa götürməyə onların razılığı tələb olunmur. Eyni zamanda valideynlər 6 aydan artıq müddətdə uşaqla birlikdə yaşamırlarsa, qəyyumluq və himayə orqanlarının xəbərdarlığına baxmayaraq, onun tərbiyəsində və ya saxlanılmasında iştirak etməkdən boyun qaçırırlarsa, uşağa valideynlik diqqəti və qayğısı göstərmirlərsə, övladlığa götürmə onların razılığı olmadan da icra edilə bilər. Valideyn himayəsindən məhrum olan uşaqların övladlığa götürülməsinə qəyyumların, himayədar ailənin, uşaqların yerləşdiyi müəssisələrin rəhbərlərinin razılığı tələb olunur. Lakin məhkəmə uşağın mənafeyini nəzərə alaraq bu şəxslərin razılığı olmadan da onun övladlığa götürülməsi barədə qətnamə qəbul edə bilər. 10 yaşına çatan uşaq övladlığa götürüldükdə onun razılıq verməsi zəruridir. Övladlığa götürmə haqqında ərizə verilənə qədər uşaq övladlığa götürmək istəyənin ailəsində yaşamışsa və onu öz valideyni hesab edirsə, övladlığa götürmə övladlığa götürülən uşağın razılığı olmadan da aparıla bilər".

**Ekspert hansı halda övladlığa götürülən uşağın ad, soyad, ata adını dəyişdirmək mümkün olmasından da danışdı. O bildirdi ki, yalnız 1 yaşınadək uşağın adı, soyadı, ata adı, doğum tarixini dəyişdirmək mümkündür:** "Belə hallarda uşağın doğum tarixi 3 aydan çox olmayaraq vaxtı dəyişdirilə bilər. 1 yaşından sonra isə uşağın ad və soyadının dəyişdirilməsi yalnız istisna hallarda, məhkəmə yolu ilə ola bilər. Övladlığa götürülən uşağın artıq 10 yaşı varsa yalnız onun razılığı ilə bu proses aparıla bilər".

**M.Baxış onu da vurğuladı ki, övladlığa götürmənin sirri qanunla mühafizə olunur:** «Övladlığa götürənlərin razılığı olmadan, onlar öldükdə isə qəyyumluq və himayə orqanının razılığı olmadan övladlığa götürmə haqqında hər hansı məlumat vermək, habelə vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyat kitablarından övladlığa götürənlərin övladlığa götürülənin doğma valideynləri olmadığını göstərən çıxarışlar vermək qadağan edilir. Övladlığa götürənin iradəsi ziddinə övladlığa götürmə sirrini yayan şəxslər qanunla müəyyən edilmiş qaydada məsuliyyətə cəlb olunurlar".

### Bəs hansı şəxslər övladlığa uşaq götürə bilməz?

Qanuna əsasən məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilən şəxslər, məhkəmə tərəfindən valideynlik hüquqlarından məhrum edilən və ya valideynlik hüquqları məhdudlaşdırılan şəxslər, qanunla üzərinə qoyulan vəzifəni yerinə yetirmədiyinə görə qəyyum və ya himayəçi vəzifələrindən kənarlaşdırılan şəxslər, əvvəllər məhkəmə tərəfindən təqsirkar bilinərək bu hüququ ləğv edilən şəxslər, səhhətinə görə valideyn vəzifələrini həyata keçirə bilməyən şəxslər övladlığa uşaq götürə bilməz. Yəni Nazirlər Kabinetinin 2000-ci il tarixli, 141 saylı qərarına əsasən, vərəmin aktiv və xroniki vəziyyətdə olması, I, II və V qrup dispanser qeydiyyatında olan xəstələr, daxili orqanların, sinir sistemi xəstəlikləri olan şəxslər, bundan başqa, bədxassəli onkoloji xəstəliklər, narkomanlıq, toksikomanlıq və xronoloji alkoqolizm, infeksion xəstəliklər və ruhi xəstəlikləri olanlar da övladlığa uşaq götürə bilməz.

❑ **Xalidə GƏRAY**

# YENİ MÜSAVAT

Son səhifə

N 164 (6192) 30 iyul 2015




## Qırışları açan üz kremini özünüz hazırlayın!

Qırışlar 30 yaşdan sonra bütün xanımları narahat etməyə başlayır. Brendlərin qırışlar üçün təqdim etdiyi kremlər isə çox baha olur. Ancaq gözəl görünmək üçün sərvət xərcləməyə məcbur deyilsiniz. Qırış açan kreminizi ev şəraitində də hazırlaya bilərsiniz. Dərini gəncləşdirən ən effektli krem resepti belədir:

**Tərkibi:**

1/4 stəkan badam yağı

2 xörək qaşığı kokos yağı

2 xörək qaşığı bal mumu

1/2 çay qaşığı E vitamini yağı

1 xörək qaşığı şit yağı

**Hazırlanması:**

Yuxarıda adıçəkilən bütün məhsulları bir qaba tökün. Kiçik bir qazana 2-3 xörək qaşığı su töküb qaynadın. Məhsulları tökdüyünüz qabı həmin qazanın içinə qoyun. Qabın içindəki hər şey əriyib qarışana kimi gözləyin. Arada qarışdırın. Daha sonra qarışığı kiçik bir şüşə qaba boşaldıb otaq temperaturunda saxlayın. Krem qatılaşandan sonra qabın qapağını örtün. Sərin yerdə saxlayın. Gündə iki dəfə təmiz dəriyə çəkin. Kremin effektini ən qısa zamanda müşahidə edəcəksiniz (publika.az).

## Batmış gəmidən xəzinə çıxdı

Amerikanın Florida ştatı sahillərində xəzinə axtaran bir ailə əsrlər əvvəl batmış bir gəminin içərisindən xəzinə tapıb. 3 əsr əvvəl batan "Queens Jevells" (Kraliçanın Qızılları) adlı gəmidə tapılan xəzinənin 51 qızıl sikkədən və 12 metr uzunluğundakı qızıl zəncirdən ibarət olduğu məlum olub. Dəyəri 1 milyon dollar olan xəzinə ailə üzvləri arasında bölünəcək. Məlumatlara görə, xəzinəni tapan Schimitt ailəsi illərdir batıq gəmilərin içərisində xəzinə axtarırlar. Florida ştatındakı qanunlara görə, dövlət tapılan xəzinənin 20%-nə əl qoyur və muzeydə sərgiyə çıxarır.




## Qulaqcığın zərərləri

Alimlər xəbərdarlıq edir ki, müntəzəm qulaqcıqdan istifadə edən musiqisevərlərin sağlamlığı risk altındadır. Müasir gənclər musiqiyə qulaqcıq vasitəsilə qulaq asırlar və bu da gələcəkdə kütləvi karlığa səbəb ola biləcək bir amildir. Statistikalar göstərir ki, Rusiyada "karlaşma" həddi cavanlaşır. Belə ki, əvvəllər bu hədd 70 yaşdan sonra görülürdüsə, artıq 30-40 yaşında insanlar bundan əziyyət çəkir.

Nə etmək lazımdır ki, belə erkən yaşda qulaqlarımızı itirməyək. Budur, sizlərə bir neçə məsləhətimiz var:

- Adi qulaqcıqlarla maksimum səviyyədən bir az aşağı səslə musiqiyə qulaq asmaq zərərsizdir. Lakin bu o demək deyil ki, günün bütün saatı həmin qulaqcıq sizin qulağınızda olmalıdır.
- Ətrafdakı səsi batırmaq üçün qulaqcığa çox səs verməyin.
- Qulağınıza istirahət verin
- Siqareti atın: Uzunmüddətli səsdən sonra siqaret kar-olmanı 2 dəfə çox artırır.





## Gözündən bit çıxdı

Gözündəki qaşıntı şikayəti ilə həkimə gedən çinli qadın həkimin qoyduğu diaqnoz qarşısında şoka düşüb. Gözünə infeksiya düşdüyünü düşünən qadın gözünün içində bitlər olduğunu öyrənib. Gənc qadının oğlu anasının gözündə bir şeylərin tərpəndiyini görüb. Anasını həkimə getmək üçün israr edən uşaq onun həyatını xilas edib. Belə ki, adı açıqlanmayan qadının gözünü müayinə edən həkim onun gözünün içərisində 20 ədəd bit yaşadığını deyib. Həkimlərin uzunmüddətli səylərindən sonra qadının gözündəki bitlər təmizlənib. Mütəxəssislərin sözlərinə görə, gözdə bit yaşamasının səbəbi heyvanlarla yaxın təmas və ya taxma kirpiklər ola bilər. Həkimlər bitləri əvvəlcə parazitə bənzətdiklərini deyiblər. Lakin mikroskop altında baxdıqdan sonra onların bit olduqlarını başa düşüblər.




**QOÇ** - İşgüzar əlaqələrinizi dərinləşdirməklə qarşınızda duran vəzifələri layiqincə yerinə yetirə bilərsiniz. Tələsik qərar verməyin. Gümanınız gələn hər kəsdən məsləhət almağa çalışın.

**BUĞA** - Astroloji göstəricilər qeyri-adi addım atmağınızı məqsədəuyğun hesab etmir. Daha çox neytral mövqedə durmalı, gündəlik qayğılarınızla məşğul olmalısınız. Qəfil iş tutmayın.

**ƏKİZLƏR** - Şəxsi işlərinizdə əsaslı dönüş gözlənilir. Buna hazır olduğunuz təqdirdə ulduzlar müdafiənizdə duracaq. Uzaq məsafələrə aldığınız dəvətlərdən bacardığınız qədər imtina etməyin.

**XƏRÇƏNG** - Giley-güzarı bir tərəfə atın, təcrübə göstərir ki, bunun heç bir səmərəsi olmur. Sevgi-ailə istiqamətində mülayimlik nümayiş etdirin. Qanqaraldıcı addımlardan uzaq olmağa çalışın.

**ŞİR** - Ulduzlar bu təqvimdə yeganə probleminizin maliyyə məsələləri ilə bağlı olacağını xəbər verir. Odur ki, bəri başdan buna hazır olun. İş yerində rəhbərliklə mülayim davranın.

**QIZ** - O qədər də uğurlu təqvim deyil. Ətrafınızda olan şəxslərlə aranızda anlaşılmazlıqlar yaranmaması üçün maksimum ehtiyatlılıq nümayiş etdirin. Səhhətinizə diqqəti artırın.

**TƏRƏZİ** - İyulun ən uğurlu gününü yaşayacaqsınız. Qarşılıqlı münasibətlərdən tutmuş fəaliyyət zəmininə qədər bütün proseslər xeyrinizə olacaq. Yeni təklif alsanız, imtina etməyin.

**ƏQRƏB** - Ailə zəminində mübahisələriniz gözlənilir. Bu səbəbdən də hər xırda xoşagəlməzliyi ciddi problemə çevirməməlisiniz. Fəaliyyətlə bağlı riskli hərəkətlərə yol verməyin. Bəxtinizdə pul var.

**OXATAN** - Maraqlı səfərlərə çıxmaq üçün Göy qübbəsi sizə şans verəcək. Maddi imkanınız buna yetdiyi təqdirdə imtina etməyin. Bu ərəfədə fəaliyyətə bir qədər ara verməyiniz məsləhət görülür.

**OĞLAQ** - Mənfi yüklü Ay bürcünüzdə olduğu üçün ciddi planlarınızı təxirə salın, istənilən mübahisələrdən uzaq olun. Əgər kiminləsə "haqq-hesab"ınız varsa, bunu başqa vaxta saxlayın.

**SUTÖKƏN** - Təxminən saat 13-ə qədər bütün ciddi işlərinizin həllini təxirə salmalısınız. Əks təqdirdə cəhdləriniz boşa çıxacaq. Sonrakı saatlarda isə perspektivli təkliflər alacaqsınız.

**BALIQLAR** - Bəxtinizdə uğurlu ərəfə durur. Bəzi xırda xoşagəlməzliklər olsa da, situasiyaların nəticəsi zövqünüzə uyğun tərzdə cərəyan edəcək. Yay istirahətinə də vaxt ayırın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Google-dən uzun ömür dərmanı



Araşdırma sistemi olan google iki il əvvəl başlatdığı yaşayış projesi olan Calico və populyar soy araşdırma sistemi olan Amnesty ilə birlikdə insan ömrünü uzatmağın yollarını axtaracaq. Amnestyin geniş soy ağacı nəticələrinə əsaslanaraq uzun yaşamış insanların DNA-ları haqqında araşdırma aparılacaq. Calico isə bu nəticələr əsasında insan ömrünü uzadacaq dərmanlar hazırlayacaq. Google tibbi araşdırma projesi olan Calicoya təxminən 730 milyon dollar xərcləyib. Caliconun bu haqdakı araşdırmasında tanınmış alimlər iştirak edəcəklər.

**Səhifəni hazırladı: ŞAHNAZ**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300